RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 179 (9634) 22 avqust 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycana şərəfli xidmət nümunəsi

## Azərbaycan naminə missiya



Prezident İlham Əliyevlə birgə Mehriban xanım Əliyevanın ölkənin inkişaf strategiyasının uğurla həyata keçirilməsində, həmçinin sosial-humanitar layihələrin gerçəkləşməsində böyük əməyi var.

Həqiqətən də ölkəmizdə elə bir sahə yoxdur ki, orada Mehriban xanım Əliyevanın xoş əməlləri, xoşniyyətli layihələri olmasın. Bütün bunları nəzərə alaraq əminliklə deyə bilərik ki, Azərbaycanın birinci xanımı, Birinci vitse-prezident Mehriban Əliyevanın keçdiyi parlaq həyat yolu Vətənə və xalqa xidmət nümunəsidir.

Hazırda möhtəşəm inkişaf mərhələsini yaşayan respublikamızın qazandığı uğurlara dəyərli töhfələr verən Mehriban xanım ictimai-siyasi həyatda, dönməz xarakter alan islahatlar prosesində fəal iştirakı, milli mədəniyyətimizin dünyada tanıdılması istiqamətində yorulmaz fəaliyyəti, vətənpərvərliyi və xeyirxahlığı ilə diqqətdən kənarda qalmır. Onu haqlı olaraq Azərbaycan humanizminin simvolu adlandırırlar.

Mehriban Əliyevanın xoşməramlı fəaliyyəti həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək ali dəyərlərlə, orden və medallarla qiymətləndirilir.

Amma Mehriban xanım Əliyevanın özü hesab edir ki, ən böyük mükafatı xalqının ona olan sevgisi, inamı və etimadıdır. Bunu isə birinci xanım əməlləri, humanizmi, xeyirxahlığı, nəcibliyi ilə çoxdan qazanıb.

Əminliklə deyə bilərik ki, xalqın sevgisini, etimadını qazanmış Mehriban xanım Əliyeva Azərbaycanın bundan sonra daha da güclənməsi, qlobal nüfuzunun daha da yüksəlməsi istiqamətində sadiq silahdaş kimi Prezident İlham Əliyevlə birgə çox mühüm işlər görəcək, daha möhtəşəm layihələr reallaşdıracaq. Qalib dövlətin yeni zirvələr fəth etməsi üçün möhtəşəm layihələrə imza atacaq.

→ 3



## Mehriban Əliyevanın təşəbbüsü ilə...

Yaradıcılıq, incəsənət bacarıq, böyük zəhmətlə yanaşı, səbir və diqqət tələb edir. Bu sahəyə göstərilən diqqət və qayğı hər zaman yüksək qiymətləndirilir. Həssas əhali qrupundan olan şəxslərin istedadlarının ortaya çıxarılması, bacarıqlarının inkişaf etdirilməsi, eyni zamanda onların sosial adaptasiyasının təşkil edilməsi isə xüsusilə vacibdir.

Bu baxımdan Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr, birinci xanımın təşəbbüsü əsasında yaradılan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyəti təqdirəlayiqdir. Mehriban Əliyevanın xüsusi qayğıya ehtiyacı olan valideyn himayəsindən məhrum olmuş uşaqlara, əlillərə, xəstə uşaqlara, eyni zamanda autizm və Daun sindromlu şəxslərə göstərdiyi diqqət, onların həyat səviyyəsinin yüksəldilməsi, cəmiyyətə adaptasiyası üçün həyata keçirdiyi tədbirlər humanizmin, insanlığın ən gözəl nümunəsidir.

→ 4

## Zəfər zirvəsində zəfər seçkisi



### Şuşa ilk parlament seçkilərinə hazırdır

Bu seçkilər həm də ərazi bütövlüyümüzün, suverenliyimizin tam təminatından sonra işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda təşkil edilən ilk parlament seçkiləridir. Yəni ilk dəfə olaraq parlament seçkilərinə suverenliyini tam bərpa etmiş ölkə kimi gedirik.

Ümumiyyətlə isə Qarabağ və Şərqi Zəngəzurda 34 daimi seçki məntəqəsi yaradılıb. Keçmiş məcburi köçkünlər 574 məntəqədə səs verə biləcəklər. Onların sayı isə 399 min 56 nəfərdir.

Əlbəttə ki, seçkilər hər bir xalqın ictimai-siyasi həyatında mühüm rol oynayır. Bu mənada, həmin prosesə xüsusi önəm verilir. Sentyabrın 1-də ölkəmizin şanlı tarixində daha bir mühüm hadisə yaşanacaq. İşğaldan azad olunmuş ərazilərə köçürülən keçmiş məcburi köçkünlər bu tarixi hadisənin iştirakçısı olacaqlar.

Vətən müharibəsində qazandığımız Zəfərin zirvəsi sayılan Şuşa şəhəri də seçkilərə hazırlaşır. Artıq böyük köç karvanının yeni ünvanları sırasında Şuşanın da olması onu deməyə əsas verir ki, mədəniyyət paytaxtımızın sakinləri doğma yurdda səs verəcəklər.

Biz də Şuşaya səfərimiz çərçivəsində yolumuzu 124 saylı Şuşa-Ağdam-Xocavənd Seçki Dairəsinin buradakı məntəqə seçki komissiyasından salaraq səsverməyə hazırlıq prosesi ilə maraqlandıq.

124 saylı Şuşa-Ağdam-Xocavənd Seçki Dairəsi 93 seçki məntəqəsini əhatə edir.

Aparılan hazırlıqlar, həyata keçirilən tədbirlər onu deməyə əsas verir ki, Zəfər zirvəmiz Şuşa parlament seçkilərinə tam hazırdır. Suverenliyimizin bərpasından sonra mədəniyyət paytaxtımızda ikinci dəfə seçki prosesi baş tutacaq. 30 illik həsrətdən sonra Şuşaya qayıdan yerli sakinlərin içərisində həm ikinci, həm də birinci dəfə seçki prosesində iştirak edənlər tarixə yazılacaqlar.

→ 6

## Qarşılıqlı etimad və bərabərhüquqlu tərəfdaşlıq

### Rusiya Azərbaycanla dostluq münasibətlərinin inkişafına böyük əhəmiyyət verir

Azərbaycanla Rusiya arasında əməkdaşlıq əlaqələri siyasi sferadan tutmuş iqtisadi, mədəni, humanitar sahələrə qədər geniş spektri əhatə edir. Prezidentlərin danışıqları zamanı bütün bunlar, o cümlədən regional təhlükəsizlik ilə bağlı fikir mübadiləsi aparıldı. Dövlət başçılarının danışıqları, mətbuata verilən bəyanatlar isə göstərdi ki, bütün istiqamətlərdə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün güclü siyasi iradə mövcuddur. "Bütün istiqamətlər üzrə müsbət dinamika görürük. Nümayəndə heyətlərimizin tərkibi də bunu çox əyani şəkildə göstərir. Bu çox mətləblərdən xəbər verir. Yəni qarşılıqlı fəaliyyətin müzakirəsi üçün mövzular çoxdur və qarşılıqlı fəaliyyətimizin əhatə dairəsi ildən-ilə genişlənir. Biz bütün istiqamətlər üzrə qarşılıqlı fəaliyyətimizi möhkəmləndirmək əzmindəyik və əminəm ki, Sizin səfəriniz ölkələrimizin və xalqlarımızın yaxınlaşmasında növbəti mühüm addım olacaq", - deyə geniş tərkibdə görüşdə Prezident İlham Əliyev bildirib.



→ 5

## Makron düşdüyü vəziyyətdən çıxış yolu axtarır

### O, demokratiyaya qarşı institusional çevrilişdə ittiham olunur



Bu günlərdə solçu siyasətçilərin, o cümlədən "Yenilməyən Fransa" partiyasının lideri Jan-Lük Melanşonun "The Tribune Sunday" qəzeti üçün yazdığı məqalədə deyilir: "Prezident Makron bilməlidir ki, onu dövlət başçısı postundan kənarlaşdırmaq üçün bütün konstitusiya vasitələrindən istifadə olunacaq, onun demokratiyanın əsas qaydasına qarşı biabırçı addımına heç bir tabeçilik olmayacaq: Fransada yeganə hakim xalq səsidir".

→ 12

## Aqrar sektorun da COP29-dan gözləntisi çoxdur



Aqrar sektorda suvarmadan düzgün istifadə etməklə iqlim dəyişmələrinin fəsadlarına "qalxan" tutmaq mümkündür. Damcı üsulu ilə suvarma sistemləri, yağış suyunun yığılması, su ehtiyatlarının bərpası kimi texnologiyalar və təcrübələrin tətbiqini genişləndirmək dövrün tələbidir. Bu üsullar suyun bitkinin birbaşa köklərinə çatdırılması ilə israfı azaldır və su resurslarının səmərəli istifadəsini təmin edir. Yağış suyunun yığılması isə su qıtlığı olan bölgələrdə su ehtiyatlarının artırılmasına əməlli-başlı yardımçı olur. Onu da bildirək ki, quraqlığa davamlı bitkilər iqlim dəyişmələrinə "müqavimət" göstərir və bu, su qıtlığı olan bölgələrdə məhsul istehsalını davam etdirməyə imkan verir. "Yaşıl kənd təsərrüfatı" həm "yaşıl enerji"dən, həm də kimyəvi gübrələrdən normasında istifadə etmək, daha çox təbii gübrələrə üstünlük vermək deməkdir. Aqrar sektora "yaşıl enerji"ni düzgün tətbiq etmək məhsuldarlığın artmasında böyük rol oynayır.

→ 8

## Övladlarımız niyə aqressivdir?

Psixiatr İkram Rüstəmov:

"İnsanın istər fiziki, istər psixi problemlərinin əksəriyyətinin altında müxtəlif genetik amillər dayanır. Şüa, radiasiya, qida kimi genetikaya təsir edən, onu pozan amillər, üç-dörd nəsil sonra belə nəvə-nəticələrdə müxtəlif problemlərə gətirib çıxara bilər, o cümlədən aqressiyaya".



→ 9

# Azərbaycan Respublikası vətəndaşlarının 2024-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2006-cı ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1989-2005-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2024-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2024-cü il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 avqust 2024-cü il*

# YAP Mərkəzi Aparatında MDB müşahidə missiyası qərargahının rəhbəri ilə görüş keçirilib

**Avqustun 21-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla Müstəqil Dövlətlər Birliyi (MDB) müşahidə missiyası qərargahının rəhbəri Oleq Kuleba arasında görüş keçirilib.**



Görüş imkanının yaradılmasına görə təşəkkürünü bildirən Oleq Kuleba MDB müşahidə missiyasının 2003-cü ildən etibarən Azərbaycanda seçkiləri müşahidə etdiyini söyləyib. O bildirib ki, sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilər MDB missiyası tərəfindən Azərbaycanda müşahidə edilən 12-ci seçki olacaq.

MDB müşahidə missiyasının tərkibi və fəaliyyəti haqqında məlumat verən qərargah rəhbəri hazırda heyətdə 132 nəfərin yer aldığını, onlardan 10 nəfərin uzunmüddətli müşahidə apardıqlarını qeyd edib. Onun sözlərinə görə, ilkin müşahidələr namizədlər üçün bərabər imkanların yaradıldığını, Mərkəzi Seçki Komissiyasının və onun yerlərdəki qurumlarının seçkilərə yüksək səviyyədə hazırlaşdığını göstərir. O.Kuleba, həmçinin missiya üzvlərinin fəaliyyətinə heç bir maneə yaradılmadığını və lazımi məlumatların əldə edilməsinə aidiyyəti qurumlar tərəfindən dəstək göstərildiyini bildirib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov MDB müşahidə missiyasının Azərbaycandakı fəaliyyətinin seçki təcrübəsinin mübadiləsi və seçki institutunun daha da inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib.

Yeni Azərbaycan Partiyasının seçkilərə hazırlıqla bağlı gördüyü işlər və seçkiqabağı təşviqat kampaniyasının gedişatı haqqında məlumat verən YAP Sədrinin müavini Azərbaycanın zəngin və daim təkmilləşən seçki təcrübəsinə malik olduğunu, qarşıdan gələn parlament seçkilərinin də rəqabətli mühitdə - azad, ədalətli, şəffaf və demokratik keçirilməsi üçün bütün şəraitin təmin edildiyini bildirib.

YAP Sədrinin müavini MDB müşahidə missiyasını maraqlandıran sualları cavablandırıb, seçkilərin gedişatına dair kənar qiymətləndirmənin önəminə diqqət çəkərək missiyaya fəaliyyətində uğurlar arzulayıb.

# Almaniya səfiri Azərbaycanda insan hüquqları sahəsində həyata keçirilən fəaliyyət barədə məlumatlandırılıb

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ralf Horlemanla görüşüb.**



Ombudsman Aparatından AZƏRTAC-a bildirilib ki, görüş zamanı ombudsman qonağa Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilən fəaliyyət barədə geniş məlumat verib.

İnsan hüquqları sahəsində müsbət təcrübələrin öyrənilməsinin əhəmiyyətini vurğulayan S.Əliyeva bununla bağlı xarici ölkələrin ombudsman və milli insan hüquqları institutları, həmçinin bu təsisatları birləşdirən regional, beynəlxalq assosiasiyalar ilə qurulan səmərəli əməkdaşlıq əlaqələrindən danışıb.

Diqqətə çatdırılıb ki, müasir çağırışlar fonunda insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən təsisatlar arasında əməkdaşlıq əlaqələrin güclənməsi hüquq mədəniyyətinin inkişafı ilə yanaşı, dünyada sülhün təmin olunmasında da mühüm rol oynayır.

Eyni zamanda ombudsman "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununa edilmiş son dəyişikliklərdən bəhs edib, əlilliyi olan şəxslərin və uşaq hüquqlarının müdafiəsi, ayrı-seçkiliyin qarşısının alınması və digər sahələrdə mandatının genişləndiyini qeyd edib.

Görüş zamanı Müvəkkilin Milli Preventiv Mexanizm mandatı çərçivəsində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə həyata keçirilən başçəkmələr, ombudsmana müraciət üsulları, eləcə də ombudsmanın məhkumların və onların ailə üzvlərinin çağırışları əsasında ölkə Prezidentinə əfv təklifləri ilə müraciət etdiyi diqqətə çatdırılıb.

S.Əliyeva ölkəmizin cari ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a evsahibliyi edəcəyini, tədbirin yüksək səviyyədə təşkili istiqamətində hazırlıq işlərinin həyata keçirildiyini bildirib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub və qonağı maraqlandıran suallar cavablandırılıb.

# *Rusiya XİN:* Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanması Cənubi Qafqazda sabitliyin bərqərar olunması üçün ən mühüm şərtdir



**Rusiya və Azərbaycan prezidentləri Rusiya dövlətinin başçısı Vladimir Putinin Azərbaycana dövlət səfəri zamanı Bakı ilə İrəvan arasında barışıq mövzusunu ətraflı müzakirə ediblər. AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə bildirib.**

Diplomat vurğulayıb ki, prezidentlər birgə mətbuat konfransı zamanı da bu məsələnin üzərində xüsusi dayanıblar.

"Bizim bütün səylərimiz həm Bakı, həm də İrəvanla xalqlarımız arasında dərin tarixi və mədəni əlaqələrə və regionda güclü təhlükəsizlik sistemi qurmaq üçün birgə səyə əsaslanan xüsusi müttəfiqlik münasibətlərinin ruhuna uyğundur. Biz mütəmadi olaraq Bakı və İrəvanı vəziyyətin pisləşməsinə səbəb olan istənilən hərəkətlərdən çəkindirməyə çağırırıq. Bütün mübahisəli məsələlər müstəsna olaraq sülh, siyasi və diplomatik yol ilə həll edilməlidir", - deyə Zaxarova əlavə edib.

Rusiya XİN nümayəndəsi qeyd edib ki, Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin bağlanması Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olunması üçün ən mühüm şərtdir.

"Biz sülh müqaviləsinin mümkün qədər tez imzalanmasında maraqlıyıq və bunun üçün praktiki baxımdan əlimizdən gələni etmişik. Erməni və azərbaycanlı tərəfdaşlarımıza kömək etmək niyyətimiz qeyd olunan mətbuat konfransında Rusiya Federasiyasının Prezidenti tərəfindən şəxsən təsdiqlənib", - deyən Zaxarova əlavə edib ki, Rusiya tərəflərə üçtərəfli sazişlərin bütün istiqamətləri üzrə ən yüksək səviyyədə kömək etməyə hazırdır və Qazaxıstanın bu sahədə səylərini alqışlayır.

# G20 Dinlərarası Forumun iştirakçılarına Azərbaycanın Qarabağda gördüyü işlər barədə məlumat verilib



**Qafqaz Müsəlmanları İdarəsinin sədri (QMİ) Şeyxülislam Allahşükür Paşazadə Braziliyada səfərdədir. Səfər çərçivəsində Braziliyanın paytaxtı Brazilia şəhərində keçirilən G20 Dinlərarası Forumunda iştirak edən Şeyxülislam A.Paşazadə qurumun prezidenti Kol Durhamla görüşüb.**

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə dini liderlərin siyasi xadimlər və hökumətlərlə əməkdaşlığa cəlb olunmasının əhəmiyyəti vurğulanıb, dialoqun səmərəli şəkildə davam etməsindən məmnunluq ifadə olunub. G20 Braziliya Zirvə görüşünün əsas mövzularının qida təhlükəsizliyi, ətraf mühitin qorunması, sülh quruculuğu, kasıb ölkələrlə zəngin dövlətlər arasında münasibətlər, insan alveri və müasir quldarlıq olduğu diqqətə çatdırılaraq, dini liderlərin bu mövzulara dair mənəvi dəyərləndirməsinin zəruriliyi diqqətə çatdırılıb.

Forum çərçivəsində Şeyxülislam A.Paşazadə Özbəkistan Prezidentinin müşaviri Müzəffər Kamilov, KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Baş katibi Züheyr əl Harisi, ABŞ-dakı İsa Məsihin Son Zaman Müqəddəsləri Kilsəsinin Yetmişlər Kvorumunun üzvü, ağsaqqal Ahmed Salem Korbitt, G20 Braziliya yerli Təşkilat komitəsinin başçısı Rodriqo Vitorino Souza Alves, Müqəddəs İsa Redeemin rektoru Omar Rapozo, BƏƏ Əbu-Dabi Sülh Forumunun katibi Şeyx əl-Mahfud bin Bəyyah və başqaları ilə görüşüb, forumun mövzuları ətrafında fikir mübadiləsi aparıb.

Allahşükür Paşazadə "Heç kimi unutmayaq: insanlar və planet üçün tərəfdaşlıq" mövzusunda keçirilən forumda dini müstəvidə qlobal debatda çıxış edib. Braziliyanın G20-də sədrliyi çərçivəsində Dinlərarası Foruma dəvətə görə minnətdarlığını bildirən A.Paşazadə vurğulayıb ki, ümumi evimiz olan Yer kürəsində insan həyatına olan təhdid və təhlükələrin artdığı müasir dövrdə siyasi, ictimai və dini liderlərin birgə səylərinin artırılması qlobal zərurətdir. Beynəlxalq sabitliyə təhdid olan ksenofobiya təzahürləri, etnik, dini, irqi ayrı-seçkiliyə təhrik edən nifrət çağırışları, sivilizasiyaların toqquşdurulması cəhdləri dünya ictimaiyyəti tərəfindən qətiyyətlə qınanmalıdır. Müasir dünyada törədilən ekoloji və müharibə cinayətləri, ekosistemin pozulması, münbit torpaqların yararsız hala salınması səbəbindən yaşanan qıtlıq, qida çatışmazlığı, ərzaq təhlükəsizliyi kimi bəşəriyyəti təhdid edən problemlərə toxunan Şeyxülislam Forumun sülh və əmin-amanlığı tərənnüm etməsini, münaqişələrə, bərabərsizliyə son qoymağa çağırmasını, bəşəri narahat edən aclıq, yoxsulluq, ərzaq təhlükəsizliyi, ətraf mühit, dini etiqad azadlığının, uşaq, qadın və gənclərin hüquqlarının qorunması kimi mühüm problemlərə diqqət ayırmasını yüksək qiymətləndirib. O, bütün dünya və ənənəvi dinlərin bəşərə ətraf mühitə mərhəmət, ehtiram ruhunu təlqin etdiyini və əks təqdirdə, yaşanacaq fəlakət, böhran və imtahanlardan xəbərdar etdiyini vurğulayıb.

Şeyxülislam A.Paşazadə forum iştirakçılarının diqqətinə çatdırıb ki, ekoloji böhran, iqlim dəyişikliyinin fəsadlarının aradan qaldırılması bu ilin noyabrında Bakıda COP29-da müzakirə olunacaq və bu toplantı çərçivəsində iqlim problemlərinin mənəvi dəyərləndirilməsində dini liderlər yaxından iştirak edəcəklər.

QMİ sədri onu da deyib ki, dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycan dövləti bu gün işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda dinc quruculuq işləri, əhalinin qayıdışı layihələrini həyata keçirir, ekosid və urbisidin nəticələrini aradan qaldırır, bölgəmizdə sülh və tərəqqi yönündə səy göstərir.

Braziliyanın G20 Zirvəsinə və COP30-a evsahibliyi etmək şərəfinə layiq olmasını yüksək dəyərləndirən Şeyxülislam BMT-nin COP sessiyalarına sədrlik edən Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliyanın davamlı əməkdaşlıq platformasında - COP sədrləri üçlüyündə bir araya gəlməsini böyük əhəmiyyət daşıyan hadisə olaraq səciyyələndirib.

# Məhkəmələrə elektron qaydada müraciət etmək imkanı genişləndirilib

**Azərbaycan Respublikası Ali Məhkəməsinin təşəbbüsü ilə "Elektron məhkəmə" informasiya sisteminin təkmilləşdirilməsi çərçivəsində məhkəmələrə elektron qaydada müraciət etmək imkanı daha da genişləndirilib.**

Ali Məhkəmənin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, "Elektron kabinet" istifadəçisi olan fiziki və hüquqi şəxslər, o cümlədən dövlət orqanları "Elektron kabinet" vasitəsilə apellyasiya instansiyası məhkəməsinin birinci instansiya məhkəməsi qismində baxdığı inzibati mübahisələr üzrə iddia ərizələrini elektron qaydada məhkəmələrə göndərə biləcək. Eyni zamanda, iş üzrə prosesin gedişi, çıxarılan məhkəmə aktları, onlardan verilən şikayət barədə operativ məlumat əldə edəcəklər.

İstifadəçilər məhkəmələrə bu tip iddia ərizələri vermək üçün ilk növbədə "Elektron kabinet"ə daxil olmalı, oradan "Yeni ərizə" bölməsinə keçid edərək müvafiq apellyasiya instansiya məhkəməsini seçməli, iddia üzrə zəruri məlumatların daxil edilməsini ardıcıl şəkildə təmin etməli və elektron imza ilə təsdiqləməlidirlər.

Apelyasiya məhkəməsinin birinci instansiya məhkəməsi qismində baxdığı seçki (referendumda iştirak) hüquqlarının müdafiəsi ilə bağlı mübahisələr, media ilə bağlı mübahisələr, siyasi partiyalarla bağlı mübahisələr, Mərkəzi Seçki Komissiyasının qərarının mübahisələndirilməsinə dair mübahisələr və digər bu tip işlər üzrə icraatın elektron qaydada aparılması məhkəmələrdə rəqəmsallaşma prosesinin sürətləndirilməsinə xidmət edəcək.

# Azərbaycan hərbçiləri "Altın Kıran" beynəlxalq taktiki-xüsusi təlimində iştirak edirlər





**Jungar Alatau dağlarında Qazaxıstanın Desant-Hücum Qoşunları və Azərbaycan Ordusunun bölmələri arasında kəşfiyyat tapşırıqlarının yerinə yetirilməsi üzrə təcrübə mübadiləsinin həyata keçiriləcəyi "Altın Kıran" beynəlxalq taktiki-xüsusi təlimi başlayıb.**

AZƏRTAC Qazaxıstan Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla xəbər verir ki, təlim Qazaxıstan Respublikası Silahlı Qüvvələrinin Desant-Hücum Qoşunlarının komandanı general-mayor Almaz Jumakeyevin rəhbərliyi ilə keçirilir.

Təlim iştirakçılarının daha səmərəli fəaliyyət göstərmələri üçün iştirakçılar Qazaxıstan və Azərbaycan hərbçilərindən ibarət iki qarışıq qrupa bölünübllər.

İlk gündə təlim iştirakçılarına alpinizm avadanlıqlarından istifadə, düyünlər bağlamaq, qayadan qalxmaq və enmək, yüksək dağlıq şəraitində ilkin tibbi yardımın göstərilməsi və yaralıların təxliyəsi ilə bağlı təlimlər keçirilib. İki ölkənin hərbçiləri qida təminatı olmadan dağ şəraitində sağqalma bacarıqlarını bölüşüblər.

Xatırladaq ki, "Altın Kıran - 2024"ün açılış mərasimi Almatı şəhərində baş tutub.

Açılışdan dərhal sonra bölmələr təyin olunan rayona avtomobillərlə yürüş edib və qarışıq bölmələrin tərkibində birgə təlim-döyüş tapşırıqlarının yerinə yetirilməsinə başlayıb.

# Azərbaycana şərəfli xidmət nümunəsi

# Azərbaycan naminə missiya



**Şanlı tariximizin bütün mərhələlərinə Azərbaycan qadınının adı şərəflə həkk olunub. Azərbaycan qadını iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətin həyatında, milli-mənəvi dəyərlər sisteminin formalaşmasında müstəsna rol oynayır.**

**Bu gün qadınların ölkəmizin ictimai-siyasi həyatında yeri və roluna diqqət etsək, sadalananlara şahidlik etmiş olarıq. Reallıq budur ki, müasir Azərbaycan qadını ana olmaqla yanaşı, həm də alim, siyasətçi, dövlət məmuru, xalqın inanıb səs verdiyi deputat və iş adamıdır. Azərbaycan qadını hər zaman olduğu kimi, bu gün də dövlətin dəstəyini hiss edərək, özünün fəallığı ilə cəmiyyətdə bərabərhüquqlu mövqeyə nail olmağı bacarır.**

Tariximizin istənilən zamanında örnək kimi qəbul etdiyimiz qadınlarımız olub və indi də var. Buna nümunə kimi ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanı, onun bənzərsiz ictimai-siyasi fəaliyyətini göstərmək yetərlidir. Mehriban xanım müasir Azərbaycan qadın hərəkatının lideri kimi xalqımızın və dövlətimizin tərəqqisi naminə bənzərsiz fəaliyyət göstərir.

Mehriban xanım Əliyevanı şəxsiyyət kimi xarakterizə edərkən bir məqamı nəzərdən qaçırmaq olmaz ki, onun fəaliyyətində ənənəviliklə müasirlik əsas prinsiplərdəndir. Keçdiyi mənalı ömür yolu, yüksək humanizmi, məhsuldar ictimai fəaliyyəti ilə nəinki Azərbaycanda, eləcə də dünyada yüksək ehtiram sahibi olan ölkəmizin birinci xanımı Mehriban Əliyeva tariximizin şanlı salnaməsinə öz dəst-xəti ilə daxil olan şəxsiyyətlərdəndir.

Onun xalqına, dövlətinə xidmət fəlsəfəsinin təməlində Azərbaycana sonsuz sevgi, Ulu Öndər Heydər Əliyev ideyalarına sarsılmaz inam və Prezident İlham Əliyevin siyasətinə yüksək sədaqət hissləri dayanır.

Azərbaycanın birinci xanımı xeyirxahlığına, yüksək idarəçilik bacarığına, diqqət və qayğısına görə xalqımızın hörmətini, məhəbbətini qazanıb və onun ölkəmizin ictimai-siyasi, mədəni həyatındakı rolu, mühüm xidmətləri danılmaz reallıqdır.

## Azərbaycan qadınının mükəmməl obrazı

Mehriban xanım Əliyeva özünün çoxşaxəli fəaliyyəti ilə Azərbaycan qadınının həm örnək ana, həm də fəal ictimai xadim olduğunu sübut edir. Azərbaycanda qadın hərəkatının yeni mərhələsinin lideri kimi geniş ictimai fəaliyyəti humanizm meyarlarına söykənir.

Həyatının mənasını Vətənə, xalqa və insanlara xidmətdə görən, sərhəd tanımayan xeyirxahlıq, insanpərvərlik onu fərqləndirən özünəməxsus xüsusiyyətləridir. Gəlin, Mehriban xanım Əliyevanın bir insan obrazı haqında söylədiyi ibratamiz fikirlərə diqqət edək: "Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub-yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir. Kimsənsə, elə də olmalısan - bax, budur bizim həyatımız. Ona görə də özgələrin rollarını və obrazlarını gərək öz üzərinə götürməyəsən. Çünki sən də, dünyada yerin də yeganə və bənzərsizdir".

Göründüyü kimi, Birinci vitse-prezident insanlara aşılayır ki, kiminsə yox, öz yolunla getsən, kiməsə oxşamağa çalışmasan, xoş əməllər sahibi olsan, mütləq özünü tapacaqsan və seviləcəksən.

Həqiqətən də, Mehriban xanım Əliyeva öz dəst-xəti ilə, xoşməramlı missiyası, təmənnasız yaxşılığı ilə könüllərdə heykəlini ucaldıb. Ona görə də deyə bilərik ki, Mehriban xanım Əliyeva tarixdə yaşamış vətənpərvər qadınlarımızın örnək olan həyatını öz fəaliyyətində yeni keyfiyyətdə və yüksək səviyyədə davam etdirir.

Maraqlı sual yaranır: bu gün xalq Prezident İlham Əliyevi və Birinci vitse-prezidenti nədən bu qədər sevir?

Buna cavab vermək heç də çətin deyil. Çünki hər bir ölkə sakini cənab Prezidentin və Mehriban xanımın timsalında onların istəkləri ilə maraqlanan, protokol çərçivəsindən kənara çıxmağı, problemə münasibət bildirməyi bacaran insanları görürlər. Onlar daim əhalinin yanındadırlar, ünsiyyətdən çəkinmirlər, əksinə, insanların görüşünə can atırlar. Doğum günlərini əvvəllər keçmiş məcburi köçkünlərlə, bu gün isə 30 ildən sonra doğma yurdlarına qayıdan soydaşlarımızla birgə qeyd edirlər. Qarabağ və Şərqi Zəngəzura səfərlər edərkən kiçikdən tutmuş böyüyədək, hər kəslə görüşür, tək-tək şəkil çəkdirir, mehriban söhbət edirlər. Onların istəklərini, arzularını gerçəkləşdirirlər. Bu da onu göstərir ki, xeyirxahlıq və şəfqət insanın daxilindən gəlməlidir, yoxsa, ictimaiyyət onu qəbul etməyəcək. Mehriban xanım Əliyevanın humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətlərdən irəli gələn əzmkar və genişmiqyaslı fəaliyyətinin təməlində məhz millətə layiqli xidmət məramı dayanır.

Azərbaycanın birinci xanımı statusunu ləyaqətlə daşıyan Mehriban Əliyeva həm Azərbaycan qadınının layiqli obrazı, həm müasir və mütərəqqi düşüncəyə malik ictimai xadim, həm də humanizm, xeyriyyəçilik ənənələrini yaşadan şəxsiyyətdir.

Bir sözlə, xeyirxah əməlləri ilə xalqının sevimlisinə çevrilən Mehriban xanım Əliyeva Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləşdirən missiyanı şərəflə yerinə yetirir.

## Ümumxalq sevgisi, sadiq silahdaş

Ümummilli Lider Heydər Əliyev ideyalarını, onun humanizm siyasətini Prezident İlham Əliyevlə birgə birinci xanım Mehriban Əliyeva da olduqca mükəmməl şəkildə davam etdirir.

Əlbəttə ki, Mehriban xanımın həm də görkəmli dövlət xadimi kimi formalaşmasında Heydər Əliyev məktəbinin rolu danılmazdır. Bu barədə ölkəmizin birinci xanımının çox maraqlı fikirləri var: "Mən Heydər Əliyev ailəsinin üzvü olanda birinci kursda oxuyurdum, deməli, 20 ildən artıq bir müddətdə bir çox amillər formalaşmış, daim kütləvilik elementi olan mühitdə davranış tipini şərtləndirmişdir. Mən 20 il Heydər Əliyev kimi bir insanın ailəsində, yanında yaşamışam. Biz çətin illərində də, xoşbəxt anlarında da onun yanında olmuşuq. Sarsılmaz iradəsi ilə bu insan qalib kimi yaşamış və dünyadan qalib kimi getmişdir. Adamların böyük əksəriyyətindən fərqli olaraq, biz onu təkcə siyasi xadim, dövlət rəhbəri rolunda deyil, həm də adi insan, ailə başçısı, övladlarını sevən ata, baba kimi görmüşük. Mən taleyimə minnətdaram ki, belə bir imkanım olmuşdur. Bu insanla ünsiyyət mənim üçün qeyri-adi bir həyat məktəbi olmuşdur. Ümid edirəm ki, ondan nə isə öyrənə bilmişəm".

Həqiqətən də Mehriban xanım Əliyevanın həyat yoluna nəzər saldıqda aydın şəkildə görünür ki, onun reallaşdırdığı bütün layihələr, gördüyü əvəzsiz işlər genetik kodundan və düşdüyü ailənin mühitindən gəlir. Bütün bunlara misal kimi onun səhiyyə, təhsil, mədəniyyət, ədəbiyyat sahəsində reallaşdırdığı layihələri, xeyriyyəçilik əməllərini və nəhayət, dövlətçilik siyasətini göstərə bilərik. Məhz onun səyləri nəticəsində Azərbaycanda qadın hərəkatı keyfiyyətcə yüksək səviyyəyə çatıb. Ölkədə bütün dövlət strukturlarında qadınların idarəçilikdə rolunun artırılması istiqamətində mühüm işlər həyata keçirilib. Bu gün Azərbaycan qadını parlamentdə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, bələdiyyələrdə, təhsildə, səhiyyədə, biznes strukturlarında, kənd təsərrüfatı sektorunda, orduda, hüquq-mühafizə orqanlarında təmsil olunur.

Mehriban xanım Əliyevanın fəaliyyəti Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətti uğurla tamamlayır. Ölkənin birinci xanımı fədakarlığı, mədəniyyətimizə, tariximizə, adət-ənənələrimizə bağlılığı ilə ən böyük mükafat olan ümumxalq sevgisinə layiq olduğunu sübut edir.

Bütün bunları nəzərə alan Prezident İlham Əliyev 2017-ci ildə doğru seçim edərək, Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin olunması haqqında sərəncam imzaladı. Bu, heç də təsadüfi deyildi. Çünki bu dövrə qədər o, həm Milli Məclisin deputatı kimi, həm də Heydər Əliyev Fondunun rəhbəri olaraq çox mühüm ictimai-siyasi fəaliyyəti ilə seçilirdi. Milli Məclisin deputatı olduğu zamanlar daim seçicilərlə görüşlər keçirir, onların qayğıları ilə maraqlanır, rəy və təkliflərini öyrənib, sosial problemlərinin həlli istiqamətində müvafiq tədbirlər görürdü. Seçicilərin dərin hörmət və rəğbətini qazanan Mehriban xanım Əliyeva parlamentdə dövlətimizin və xalqımızın maraqlarından çıxış edərək vacib qanunların qəbul olunmasında yaxından iştirak edirdi. Bununla bərabər, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında fəal rol oynayır, təhsil, səhiyyə, mədəniyyət, incəsənət sahəsində həyata keçirdiyi layihələr bu istiqamətlərin inkişafına əvəzsiz töhfə verirdi. Həmçinin Azərbaycan həqiqətlərinin, mədəniyyətinin dünyaya tanıdılması istiqamətində gördüyü işlər beynəlxalq aləmdə böyük əks-səda doğurur, bu layihələr Azərbaycanın dünyadakı mövqeyinin daha da möhkəmləndirilməsi prosesinə müsbət töhfə verirdi.

Azərbaycana, qədirbilən xalqımıza sonsuz sevgisi, milli-mənəvi dəyərlərə dərin hörməti, ölkənin ictimai-siyasi həyatındakı xidmətləri onun ölkəmizin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmasını şərtləndirən əsas amillər oldu.

Artıq 7 ildir ki, bacarıqlı siyasi fəaliyyəti, yüksəksəviyyəli təşkilatçılıq məharəti, özünəməxsus idarəçilik xüsusiyyətləri, humanist yanaşma tərzi sayəsində Mehriban xanım Əliyeva bu vəzifənin öhdəsindən ləyaqətlə gəlir. Hər kəs şahidlik edir ki, o, dövlət başçımızın həm də ən sadiq silahdaşıdır.

Birinci vitse-prezident vəzifəsində fəaliyyətini dövlətə, xalqa xidmət prinsipləri əsasında quran Mehriban xanım Əliyevanın bu dövrdə irəli sürdüyü və icrasına birbaşa rəhbərlik etdiyi layihələrin hər biri sosialyönümlüdür. Bu kiçik dövrə nəzər yetirsək, onun ölkəmiz, xalqımız adına çox böyük işlər gördüyünə şahidlik edərik. Həmin dövrdə torpaqlarımız işğal altında idi. Dövlət siyasətinin prioritet istiqamətlərindən biri də ölkə əhalisinin ən həssas təbəqəsi olan, doğma yurdlarından didərgin salınmış soydaşlarımıza diqqət və qayğı, onların qarşılaşdıqları problemlərin aradan qaldırılması idi. Bu istiqamətdə Mehriban Əliyevanın gördüyü işlər də əvəzsiz qiymətləndirilməlidir. Birinci vitse-prezident kimi ilk iclasını məcburi köçkünlərin probemlərinin həlli istiqamətinə həsr etməsi, daim bu təbəqədən olan insanlara qayğı göstərməsi, onların mənzillərlə təmin olunması məsələsini həll etməsi əsl reallığı göstərir. Mərhəmət, kömək etmək, təmənnasız yardım onun həyat kredosudur.

Ümumiyyətlə, humanizm Mehriban xanım Əliyevanın həyatından və fəaliyyətindən qırmızı xətt kimi keçir. O, yardıma ehtiyacı olanlara diqqət və qayğı göstərir, dəstək verir, müsbət nümunə yaradır. Mehriban xanım Əliyevanın çoxşaxəli, uğurlu, səmərəli və nümunəvi fəaliyyəti həm ölkəmizdə, həm də beynəlxalq müstəvidə olduqca yüksək qiymətləndirilir. Dünya miqyasında elm xadimləri, ziyalılar, ictimai-siyasi xadimlər, dövlət adamları və digərləri Azərbaycanın birinci xanımının tarixi missiya yerinə yetirdiyini ifadə edirlər. Bu fikirlər əbəs yerə səslənmir. Çünki Mehriban xanım Əliyeva təkcə ölkəmizdə deyil, həmçinin bir sıra xarici ölkələrdə məktəb, xəstəxana, katolik və pravoslav kilsələri, sinaqoqların tikintisinə, təmir və bərpasına, yenidən qurulmasına köməyini əsirgəməyib.

## Heydər Əliyev Fondu - 20 illik uğurlu missiya

Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin dövlətçilik ideyalarından güc alan Mehriban xanım Əliyevanın humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq reallaşdırdığı genişmiqyaslı layihələr onu xalqın sevimlisinə çevirib.

Dahi liderin miras qoyduğu irsin öyrənilməsi, təbliği və tətbiqində Mehriban xanım Əliyevanın 2004-cü ildən bəri rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xidmətləri müstəsna əhəmiyyət kəsb edir. Başqa sözlə, Azərbaycan xalqının rifahının yüksəldilməsinə yönəldilmiş təşəbbüsləri himayə etmək, ölkədə elm, təhsil, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, milli-mənəvi dəyərlərə sadiq gənclərin yetişdirilməsinə nail olmaq ölkənin birinci xanımının rəhbərlik etdiyi təşkilatın genişmiqyaslı fəaliyyətinin prioritet istiqamətlərini təşkil edir və ictimaiyyət tərəfindən yüksək dəyərləndirilir.

Ötən 20 ildə həyata keçirdiyi müxtəlifistiqamətli xeyriyyəçlik fəaliyyəti ilə dünyada tanınan Heydər Əliyev Fondunun reallaşdırdığı layihələri saymaqla bitməz. Azərbaycanın birinci xanımının genişmiqyaslı proqram və layihələrinin sırasında təhsil sistemini təkmilləşdimək və onun dünya təhsil sisteminə inteqrasiyasını təmin etmək hədəfi xüsusi yer tutur. Fondun layihələri çərçivəsində minlərlə məktəb, uşaq bağçaları və ixtisaslaşdırılmış uşaq məktəbləri tikilib və ya təmir olunub. Heydər Əliyev Fondu tərəfindən "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" layihələri, "Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı" təhsil sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyətə malikdir.

Bu bir həqiqətdir ki, Azərbaycanda uşaq evlərinin və internat məktəblərindəki kimsəsiz uşaqların ən böyük qayğıkeşi, hamisi də Mehriban xanımdır. Kimsəsizlərə böyük qayğı göstərən, bayramları onlarla birlikdə keçirən Birinci vitse-prezident əsl ana qayğısı sərgiləyir. Heydər Əliyev Fondunun bu istiqamətdə reallaşdırdığı "Uşaq evləri və internat məktəblərinə dəstək" layihəsi çərçivəsində ölkəmizdə 40-a yaxın uşaq evi və internat məktəbi ən müasir standartlara uyğun olaraq təmir edilib.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə fondun genişmiqyaslı səhiyyə layihələrinə də nəzər yetirsək görərik ki, bu sahədə çox böyük işlər həyata keçirilib. Buraya xəstəxanalar, klinikalar, müasir avadanlıqların alınması, diabet və talassemiya xəstələrinin müalicəsi daxildir. Bu istiqamət üzrə Mehriban xanımın təşəbbüsü ilə "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi olduqca əhəmiyyətli layihələrin həyata vəsiqə alması geniş ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanıb. Bu layihələr çərçivəsində Bakıda müasir Talassemiya Mərkəzi, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, Mərkəzi Neftçilər Xəstəxanasında Cərrahiyyə və Orqan Transplantologiya Mərkəzi, Psixonevroloji Uşaq Mərkəzi və digər səhiyyə ocaqları inşa olunub və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib.

## Qarabağ və Şərqi Zəngəzurda möhtəşəm layihələr

Artıq 4 ilə yaxındır ki, Azərbaycan xalqı Vətən müharibəsindəki böyük Zəfərin sevincini, qürurunu yaşamaqdadır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində dünyaya səs salan bu Zəfərimiz tariximizin ən şanlı səhifəsidir. Qarabağ və Şərqi Zəngəzuru yenidən quran möhtərəm Prezidentimiz həm də dünyaya Azərbaycanın iqtisadi qüdrətini nümayiş etdirir. Qafqazın ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondunun fəaliyyətinin ən şanlı səhifəsi Qarabağ və Şərqi Zəngəzurun bərpa-quruculuq prosesində ön sırada olmasıdır. İndiyə qədər minlərlə abidəyə nəfəs verən Heydər Əliyev Fondu Qarabağdakı dini irsimizin, məscidlərimizin, mədəniyyət abidələrimizin bərpasını reallaşdırmaqdadır. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir.

İşğaldan azad olunan torpaqlarımızda erməni vandalları tərəfindən darmadağın edilmiş mədəni-dini abidələrimizin bərpası prosesi davam etdirilir. Ənənəvi fəaliyyətlə yanaşı, bu gün Heydər Əliyev Fondu azad edilmiş torpaqlarda geniş fəaliyyət göstərməkdədir.

Şuşada fond tərəfindən aparılan bərpa işləri cəmi bir neçə aya başa çatdırılıb. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Vaqifin muzey-məqbərə kompleksinin, görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışı olub.

Heydər Əliyev Fondunun Qarabağ layihəsi əsasında bərpa olunaraq istifadəyə verilən işlərdən Şuşa Yaradıcılıq Mərkəzini, Aşağı Gövhər ağa məscidini, Mehmandarovların malikanə kompleksini, Milli Xalça Muzeyinin Şuşa filialını, Mamayı, Çöl Qala, Saatlı məscidlərini, eləcə də "Yasəmən" hotelini, "Şirin su" hamamını, Cıdır düzündə yerləşən Mir Möhsün Nəvvab Qarabağinin məzarı və qəbirüstü abidəsini, bunlardan başqa, Ağdam Cümə Məscidini, Zəngilan məscidini göstərmək olar.

Əlbəttə ki, işğaldan azad olunan torpaqlarımızdakı abidələrin bərpa edilərək yenidən xalqımıza qaytarılması çox əhəmiyyətlidir. Faktiki olaraq, Qarabağdakı dini abidələrimizin bərpa edilməsi prosesinin başlanması Azərbaycan tərəfindən tarixi gerçəklik missiyasının, ədalətin bərpası deməkdir.

Mehriban xanım Əliyevanın bu tarixi müqəddəs işə rəhbəlik etməsi onu deməyə əsas verir ki, bu istiqamətdə həyata keçiriləcək digər tədbirlər də uğurla yekunlaşacaq.

Qeyd edək ki, işğaldan azad edilən ərazilərimizdəki dini abidələrimizin bərpası prosesinə xarici mütəxəssislərin cəlb edilməsi də təqdirəlayiq haldır. Bu ərazilərdə ermənilərin dini abidələrimizi, məscidlərimizi vandalcasına dağıdıb məhv etməsi cinayətlərinə dünyanın bütün aidiyyəti təşkilatları sərt reaksiyalar verməlidirlər. Azərbaycan erməni vandalizmi ilə bağlı bu faktları meydana çıxarmaqla bütün dünyaya sübut etdi ki, ermənilər işğal dövründə ərazilərimizdə abidələrimizi dağıdıb, məhv ediblər. Bu da yalançı erməni təxribatına böyük zərbə oldu. Bu prosesdə də Mehriban xanım böyük fədakarlıq nümayiş etdirir.

## Vətənə və xalqa xidmət nümunəsi

Göründüyü kimi, Prezident İlham Əliyevlə birgə Mehriban xanım Əliyevanın ölkənin inkişaf strategiyasının uğurla həyata keçirilməsində, həmçinin sosial-humanitar layihələrin gerçəkləşməsində böyük əməyi var. Bir məsələni xüsusi olaraq vurğulayaq ki, Mehriban xanım Azərbaycan adına həyata keçirdiyi bütün işlərə qəlbinin sevgisi ilə yanaşır və bu səbəblə də reallaşdırdığı işlər uğurlu alınır.

Həqiqətən də ölkəmizdə elə bir sahə yoxdur ki, orada Mehriban xanım Əliyevanın xoş əməlləri, xoşniyyətli layihələri olmasın. Bütün bunları nəzərə alaraq əminliklə deyə bilərik ki, Azərbaycanın birinci xanımı, Birinci vitse-prezident Mehriban Əliyevanın keçdiyi parlaq həyat yolu Vətənə və xalqa xidmət nümunəsidir.

Hazırda möhtəşəm inkişaf mərhələsini yaşayan respublikamızın qazandığı uğurlara dəyərli töhfələr verən Mehriban xanım ictimai-siyasi həyatda, dönməz xarakter alan islahatlar prosesində fəal iştirakı, milli mədəniyyətimizin dünyada tanıdılması istiqamətində yorulmaz fəaliyyəti, vətənpərvərliyi və xeyirxahlığı ilə diqqətdən kənarda qalmır. Onu haqlı olaraq Azərbaycan humanizminin simvolu adlandırırlar.

Mehriban Əliyevanın xoşməramlı fəaliyyəti həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək ali dəyərlərlə, orden və medallarla qiymətləndirilir. Bunların sırasında Azərbaycanın ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordenini, "Qızıl ürək" beynəlxalq mükafatını, Avropa Olimpiya Komitələrinin Ali ordenini, Fransanın "Şərəf Legionu" ordenini, İtaliyanın "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordenini, Polşanın "Böyük Komandor Xaçı" ordenini, Rusiyanın "Dostluq" ordenini göstərmək olar. Bunlar Azərbaycanın Birinci vitse-prezidentinin layiq görüldüyü mükafatların heç də tam siyahısı deyil.

Amma Mehriban xanım Əliyevanın özü hesab edir ki, ən böyük mükafatı xalqının ona olan sevgisi, inamı və etimadıdır. Bunu isə birinci xanım əməlləri, humanizmi, xeyirxahlığı, nəcibliyi ilə çoxdan qazanıb. Elə özünün də dediyi kimi, "illər ötdükcə, qarşımıza yeni ideya və planlar çıxdıqca, məqsədlərimiz xaraktercə dəyişir, amma əsas amalımız - Azərbaycan xalqına xidmət etmək amalı dəyişməz olaraq qalır və qalacaq".

Ulu Öndər Heydər Əliyevin siyasi irsi bu gün Azərbaycanın inkişaf strategiyasının nüvəsini təşkil edir. Bu siyasəti layiqli şəkildə davam etdirən Prezident İlham Əliyev Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirə bilib.

*Əminliklə deyə bilərik ki, xalqın sevgisini, etimadını qazanmış Mehriban xanım Əliyeva da Azərbaycanın bundan sonra daha da güclənməsi, qlobal nüfuzunun daha da yüksəlməsi istiqamətində sadiq silahdaş kimi Prezident İlham Əliyevlə birgə çox mühüm işlər görəcək, daha möhtəşəm layihələr reallaşdıracaq. Qalib dövlətin yeni zirvələr fəth etməsi üçün möhtəşəm layihələrə imza atacaq.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

## Azərbaycana şərəfli xidmət nümunəsi







# Mehriban Əliyevanın təşəbbüsü ilə...

**Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə DOST konsepsiyası əsasında yaradılan və Cənubi Qafqazda həssas əhali qrupundan olan şəxslərə xidmət göstərən ilk ən böyük müəssisədəyik.**

2021-ci il oktyabrın 22-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı ilə açılışı olan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində əlilliyi olan şəxslər, şəhid ailələrinin üzvləri, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmişlər və onların övladları, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar və digər həssas qruplara xidmət göstərilir.

Mərkəzə daxil olan kimi yaradıcılıq ab-havasına düşdüyümüzü hiss edirik. Girişdə "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş, benefisiarlar tərəfindən müxtəlif tullantılardan hazırlanmış əl işləri ilə tanış oluruq. Məlumat verilir ki, əsərlərin çoxu COP29 ərəfəsində sərgidə nümayiş olunacaq.



















### 14 istiqamət üzrə təlim

14 fəaliyyət istiqaməti üzrə təlimlər keçirilən mərkəzdə yarandığı gündən 570-dən çox şəxsə xidmət göstərilib. Bu gün isə müəssisədə həssas əhali qrupundan olan 160 nəfərə yaxın benefisiar təlimlərdən yararlanaraq, müxtəlif sahələrdə biliklərə yiyələnir və ya bacarıqlarını inkişaf etdirirlər.

Qeyd edək ki, Mehriban Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası sosial islahatların mühüm nailiyyətlərindən biridir və onun əsasında 15 istiqamət üzrə 160 sosial xidmət "bir pəncərə"dən, müasir, çevik, şəffaf, vətəndaş məmnunluğuna uyğun təqdim olunur. İndiyədək Bakı şəhəri, Abşeron və Bərdə rayonlarında 7 DOST Mərkəzi, Zəngilanın Ağalı kəndində "Smart DOST" xidmət məntəqəsi, Şuşa şəhərində Qarabağ Regional DOST Mərkəzinin filialı istifadəyə verilib. Mərkəzlərdə göstərilən xidmətlərə görə vətəndaş məmnunluğu yüksək səviyyədədir. Hazırda Naxçıvan, Quba, Sabirabad, Sumqayıt, Gəncə və Masallıda da DOST xidmətləri şəbəkəsinin qurulması üçün layihə həyata keçirilir, təmir-tikinti işləri aparılır. Ümumilikdə 17 yeni Regional DOST Mərkəzinin, 55 DOST filialının yaradılması nəzərdə tutulur. DOST konsepsiyası ötən dövrdə 30-dan çox beynəlxalq mükafat və sertifikatla təltif olunub. "Aİ Biznes Mühiti Hesabatı 2021"də isə DOST mərkəzləri Azərbaycanın 3 təkmil islahatından biri kimi qiymətləndirilib.

Mərkəzdə həyata keçirilən fəaliyyət istiqamətləri ilə tanış olmaq, təlim proseslərini izləmək üçün otaqlara baş çəkirik. Mərkəzə qəbul 6 yaşdan başlayır. Vətəndaşlar əvvəlcə lazımi sənədləri toplayaraq DOST Mərkəzlərinə və ya Sosial Xidmətlər Agentliyinin yerli nümayəndəliklərinə müraciət edirlər. Daha sonra onlar mərkəzin Qiymətləndirmə Komissiyasına dəvət olunaraq, mütəxəssislər tərəfindən mövcud meyarlara əsasən müsbət rəy aldıqdan sonra müvafiq yaradıcılıq və reabilitasiya prosesinə yönəldilirlər.

Musiqi səsini eşidib ilk yaxınlaşdığımız otaq audio-səsyazma studiyası olur. Öyrənirik ki, studiyada vokal bacarıqlarının inkişaf etdirilməsi, audiodisklərin və solo albomların yazılması, videoçarxların, sənədli və bədii filmlərin, teletamaşaların dublyaj edilməsi mümkündür. Təlimçi ilə benefisiarın gitarada birgə ifalarını dinləyib mane olmadan otaqdan uzaqlaşırıq.

Daha sonra Multidisiplinar qrupun üzvlərinin yer aldığı, benefisiarların ilkin mərhələdə qiymətləndirilməsi prosesində fəal iştirak edən Sosial, pedaqoji inkişaf və psixoloji dəstək departamentinin əməkdaşları ilə tanış oluruq. Burada olan sosial işçilər, klinik psixoloq, uşaq psixoloqu, defektoloq-loqopedlər, psixo-pedaqoq, surdotərcüməçi və digər mütəxəssislər tərəfindən benefisiarların qiymətləndirilməsi həyata keçirilir.

Departamentin fəaliyyətindən danışan klinik psixoloq Nəzrin Verdiyeva deyir ki, benefisiarların qəbulu zamanı psixoloqların, sosial işçilərin rəyləri böyük əhəmiyyət kəsb edir. "Tibbi-sosial ekspertiza mütəxəssisləri tərəfindən qoyulmuş diaqnozdan əlavə, psixoloqlar da rəylərini bildirirlər. Mərkəzdə təlim fəaliyyətləri qrup üzrə formalaşdırılır. Benefisiarların qrup təlimlərinə uyğunluğu yoxlanılır, onların psixoloji vəziyyəti qiymətləndirilir. Təlim prosesinin gedişatında benefisiarların motorik bacarıqları, idraki xüsusiyyətləri, həmçinin sosial adaptasiya qabiliyyəti inkişaf edir. Şəxsiyyətlərarası münasibətlərdə balans əldə olunması üçün, həmçinin ailədaxili münasibətlərdə problemlər yarandığı halda valideyn qrupları ilə də terapiyalar keçirilir. Kompleks yanaşma nəticəsində yaxşı nəticə əldə edilir", - deyə psixoloq fikrini tamamlayır.

Növbəti olduğumuz otaq isə rəngarəngliyi ilə diqqətimizi çəkir. Əslində, mərkəzin hər bir studiyasında yaradıcılıq işlərini hiss etmək mümkündür. Burada benefisiarlar çiçəklərlə işləyirlər. Floristika və landşaft dizaynı studiyasında süni, qurumuş güllərdən, yarpaqlardan müxtəlif kompozisiyalar, natürmortlar hazırlanır. Bu təlimlər art-terapiya hesab olunduğundan müəyyən kateqoriyadan olan şəxslər üçün xüsusilə mühüm əhəmiyyətə malikdir.

### Qədimdən müasirliyə uzanan sənət yolu

Min illərə dayanan, nəsildən-nəsilə ötürülən qədim bədii oyma sənəti də mərkəzin fəaliyyət istiqamətlərindən biridir. Xüsusi bacarıq, səbir və böyük zəhmət tələb edən bu sənət növü ilə məşğul olmaq üçün əsasən 12 yaşdan yuxarı benefisiarlar təlimlərə qəbul olunurlar.

13 ilə yaxındır bədii oyma sənəti ilə məşğul olan Asif Qasımov mərkəz fəaliyyətə başlayandan burada təlimçi kimi çalışdığını deyir. "Təlimlər 2-3 saat davam edir. Benefisiarlar arasında oyma sahəsində müəyyən bacarıqlara malik olanlar və ya buna yeni başlayanlar var. Bir il ərzində onlara peşəkar şəkildə bədii oyma sənəti öyrədilir".

Taxta üzərində müxtəlif tarixi abidələrimizi işləyən benefisiarlarla həmsöhbət oluruq. Onlardan ən kiçiyinin Sabir olduğunu söyləyən A.Qasımov deyir ki, onun 14 yaşı var və 5 aydır təlimlərə qoşulub.

7 ildir bədii oyma ilə məşğul olan Daşqın Abbasov isə bu sahənin peşəkarına çevrilmək istəyir, elə bu məqsədlə də DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinə müraciət edib. Hazırda Asif Qasımovdan sənətin sirlərini öyrənən Daşqın oymaçı kimi fəaliyyət göstərərək bu sənəti gələcək nəsillərə ötürmək, qədim sənətin hər zaman yaşamasını istəyir. O bildirir ki, artıq dörd aya yaxındır təlimlərə qoşulub və bu müddətdə Asif müəllimdən çox şey öyrənib.

Onlarla sağollaşdıqdan sonra daha bir qədim sənət növlərimizdən olan xalçaçılıq və toxuma studiyasına daxil oluruq. Kimi xalça eskizi çəkir, kimi xalça toxuyur, kimisi isə tikmək işləri ilə məşğuldur. Ailəsinin sənətini davam etdirən təlimçi Solmaz Səfərova da uzun illərdir xalçaçılıqla məşğuldur. Bildirir ki, xalça toxumaq çox səbir və diqqət tələb edir. Təlimə qəbul zamanı benefisiarların kiçik motorik bacarıqları yoxlanılır və müəyyən kəsici alətlərdən istifadə nəzərə alınaraq, 8 yaşdan yuxarı şəxslər qəbul olunurlar.

Təlimçinin yanında həvəslə xalça toxumaqla məşğul olan 27 yaşlı Gülnarə deyir ki, həm də xalça eskizi təlimlərində iştirak edir. İki ilə yaxındır bacarıqlarını inkişaf etdirən benefisiarın ən böyük arzusu isə xalçaçılıq üzrə peşəkar təlimçi kimi fəaliyyət göstərməkdir.

### Təlim müddəti 12-24 ay arasında dəyişir

Nəfis ornamentlər, qədim atributlar ilə bəzədilən Azərbaycan xalçaları hər zaman adla deyilib. Təbii ki, gözoxşayan xalçanın ərsəyə gəlməsi üçün ilk olaraq ideya lazımdır. Bunun üçün ilkin mərhələdə xalça eskizi çəkilir. Studiyada həmsöhbət olduğumuz təlimçi Ayturan İbrahimova deyir ki, eskizçəkmə bacarıqlarına yiyələnmə benefisiarlara görə dəyişir. Eskizlərin hazırlıq müddəti işin mürəkkəbliyinə, böyüklüyünə görə fərqlənir. Ayturan xanım deyir ki, bunun üçün rəssamlıq bacarıqlarına o qədər də ehtiyac yoxdur.

Təlim müddəti yaradıcılıq istiqamətlərinin proqramından, həmin sahənin çətinliyindən, benefisiarların müvafiq bilikləri mənimsəməsindən asılı olaraq, 12 aydan 24 ayadək dəyişə bilir. Təlimlərə cəlb olunan şəxslər müəyyən edilən müddəti tamamlayaraq sertifikatlar alırlar.

Benefisiarların ən çox maraq göstərdiyi sahələrdən olan Keramika studiyasına yollanırıq. Burada müxtəlif yaş qrupundan olan şəxslərin məşğul olduqlarını görürük. Elə studiyada yer alan əl işləri onların təlimçilərinin və ya fərdi hazırladıqları sənət nümunələridir. Təlimçi Ruhəngiz Bağırova deyir ki, təlimlərə əsasən 10 yaşdan yuxarı şəxslər qəbul edilirlər, çünki gili yoğurmaq, qançarda işləmək müəyyən güc tələb edir. İlk mərhələdə gildən əl işləri sıfırdan yığılır, 3-5 gün qurudulur, daha sonra üzərində kompozisiya işlənilir. Boyandıqdan sonra şirələmə prosesi gedir. Daha sonra isə bir də sobaya göndərilərək bişirilir. Mərkəzdə həm bədii oyma, həm də keramika təlimlərinə qoşulan 30 yaşlı Orxan İmanov deyir ki, ilyarımdır hər iki fəaliyyət istiqaməti ilə məşğul olur. Əl işlərinin sərgilərdə nümayiş olunduğunu vurğulayan benefisiar bildirir ki, əvvəl həvəskar kimi məşğul olmağa başlasa da, artıq bacarıqlarını inkişaf etdirərək peşəkar fəaliyyət göstərir.

Daha sonra baş çəkdiyimiz Təsviri sənət studiyasında da işinə çox həvəslə yanaşan Elvin diqqətimizi çəkir. O deyir ki, 4 yaşından rəssamlıqla məşğuldur. Peşə liseyini bitirib və özünü inkişaf etdirmək üçün atasının məsləhəti ilə mərkəzə müraciət edib. Arzusu əsərlərinin həm də xarici ölkələrdə sərgilərdə nümayiş olunmasıdır.

Mərkəzi gəzərkən benefisiarların ən çox hansı fəaliyyət istiqamətlərinə üstünlük verdiyini də öyrənirik. Bizə məlumat verilir ki, onlar daha çox floristka, muncuqtoxuma və tikmə, xalçaçılıq, musiqi, təsviri incəsənət, dulusçuluq, rəqs, kapoeyra sahələrinə maraq göstərirlər.

### Musiqili idmanda benefisiarların uğurları

Akrobatika, musiqi və rəqsi birləşdirən kapoeyra son illər gənclərin maraq göstərdiyi idman növlərindən biridir. Azərbaycanda bu sahə ötən əsrin son illərində meydana gəlib. Mərkəzin kapoeyra təlimçisi Elsevər Heydərov 2008-ci ildən bu idman növü ilə məşğuldur. O, artıq 11 ildir ki, müəllim kimi fəaliyyət göstərir. Elsevər kapoeyraya marağın çox olduğunu deyir: "Musiqili, əyləncəli keçdiyinə görə uşaqlar daha çox buna həvəs göstərirlər. Təlimlər qrup şəklində keçirilir. Kapoeyra həmçinin fiziki zəif uşaqlarda dayaq-hərəkət sistemini möhkəmləndirir. 5-6 yaşdan təlimlərə qoşulmaq mümkündür".

Təlimlərə qoşulan benefisiarların yarışlarda uğurlu nəticələri də var. Bunu studiyadakı sertifikatlardan da müşahidə edirik. Təlimçi bildirir ki, benefisiarlar həm Bakı çempionatına, həm də respublika yarışlarına qoşulurlar. Ümumilikdə Mərkəzdə təlimlərə cəlb edilmiş həssas əhali qruplarından olan şəxslərin yaradıcılıq nümunələrinin beynəlxalq müstəvidə tanıdılması istiqamətində də işlər aparılır. Məsələn, IV Qış Olimpiya Oyunları çərçivəsində Cənubi Koreyanın Qanqvon əyalətində əlilliyi olan gənclərin əl işlərindən ibarət sərgidə ilk dəfə mərkəzin benefisiarlarının da rəsm əsərləri nümayiş olunub. Bundan əlavə, Cenevrədə Millətlər Sarayında 2 Aprel - Dünya Autizm Məlumatlandırma Gününə həsr olunmuş sərgidə də benefisiarların 70-ə yaxın əl işi sərgilənib.

### Mehriban Əliyevanın xüsusi diqqət və qayğısı...

Sonda mətbəxə baş çəkib benefisiarlarımızın məharətini izləyirik. Kulinariya istiqaməti üzrə təlimçi Elnur Nağdəliyev bildirir ki, 12 yaşdan yuxarı şəxslərin qoşulduğu təlimlər 6 ay davam edir. Onlara həm şirniyyat, həm də xörək hazırlamaq öyrədilir. İlk təlimdə resept əsasında hər hansı xörək təlimçi ilə birgə hazırlanır. Növbəti dərsdə isə benefisiarlar öz bacarıqlarını yoxlayırlar. Bu gün benefisiarlar pizza hazırlayırdılar, nahara az vaxt qaldığından son tamamlama işləri gedirdi. Onu da bildirək ki, mərkəzdə benefisiarlar naharla təmin olunurlar.

Mehriban Əliyevanın mərkəzin fəaliyyətinə və orada olan benefisiarlara diqqət və qayğısı hər zaman hiss olunur. Türkiyə Prezidentinin xanımı Əminə Ərdoğanla birlikdə mərkəzə baş çəkməsi də bunun bariz nümunəsidir. Hər iki ölkənin birinci xanımı müxtəlif studiyalarda keçirilən təlimlərlə tanış olaraq, inklüziv kamera orkestrinin ifasında musiqi nömrələrini dinləmiş, benefisiarların əl işlərindən ibarət sərgi ilə tanış olmuşlar.

Yaradıcılıq, incəsənət bacarıq, böyük zəhmətlə yanaşı, səbir və diqqət tələb edir. Bu sahəyə göstərilən diqqət və qayğı hər zaman yüksək qiymətləndirilir. Həssas əhali qrupundan olan şəxslərin istedadlarının ortaya çıxarılması, bacarıqlarının inkişaf etdirilməsi, eyni zamanda onların sosial adaptasiyasının təşkil edilməsi isə xüsusilə vacibdir.

Bu baxımdan Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr, birinci xanımın təşəbbüsü əsasında yaradılan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyəti təqdirəlayiqdir. Mehriban Əliyevanın xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum olmuş uşaqlara, əlillərə, xəstə uşaqlara, eyni zamanda autizm və Daun sindromlu şəxslərə göstərdiyi diqqət, onların həyat səviyyəsinin yüksəldilməsi, cəmiyyətə adaptasiyası üçün həyata keçirdiyi tədbirlər humanizmin, insanlığın ən gözəl nümunəsidir.

*Əsmər QARDAŞXANOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları



## Qarşılıqlı etimad və bərabərhüquqlu tərəfdaşlıq

### Rusiya Azərbaycanla dostluq münasibətlərinin inkişafına böyük əhəmiyyət verir

**Son günlərin mühüm və qlobal miqyasda maraqla izlənilən siyasi hadisələrindən biri Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana etdiyi dövlət səfəri oldu. Bu səfər bütün məqamları ilə Azərbaycanla Rusiya arasında dövlətlərarası dialoqun, əməkdaşlığın və dostluğun yüksək səviyyədə olmasından xəbər verdi, əlaqələrin indiyədək imzalanmış iktərəfli sənədlərin məzmununa uyğun olaraq inkişaf etdiyini göstərdi.**

#### Kreml Azərbaycanın yaratdığı yeni reallığı qəbul edir

Milli maraqları rəhbər tutan müstəqil xarici siyasətin yürüdülməsi Azərbaycanın beynəlxalq münasibətlər sistemində aparıcı rolunu və yüksək nüfuzunu, region ölkələri və dünyanın güc mərkəzləri ilə qarşılıqlı etimada əsaslanan münasibətlər qurmasını və inkişaf etdirməsini şərtləndirən əsas amillərdən biridir. Bu sırada respublikamızın dünyanın əsas siyasi-hərbi qütblərindən biri, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Rusiya ilə siyasi əlaqələrinin yüksək səviyyəsi və məzmunu xüsusi vurğulamışdır.

Qeyd edək ki, Vətən müharibəsində əldə etdiyimiz Zəfərdən sonra Azərbaycan-Rusiya əlaqələri yeni inkişaf mərhələsinə qədəm qoyub. Məlum olduğu kimi, müharibə günlərində Rusiya təmkinli davranış nümayiş etdirdi. Ermənistanın çoxsaylı müraciətlərinə, cəhdlərinə, hətta KTMT ilə bağlı şantajlarına baxmayaraq, rəsmi Moskva Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazilərinin işğaldan azad olunmasına qarşı çıxmadı. Prezident İlham Əliyevin yürütdüyü müdrik və qətiyyətli siyasət, uğurlu diplomatiya, həm də Rusiya ilə qurulmuş düzgün münasibətlər nəticəsində Azərbaycan qarşısında duran tarixi vəzifələrin həllinə nail oldu, öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi.

2022-ci ilin fevralında imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamə isə əlaqələrə yeni siyasi məzmun qatdı. Bütün bunların fonunda özünü göstərən həqiqət odur ki, Azərbaycanın ərazi bütövlüyünü təmin edərək yaratdığı yeni reallıq Rusiya tərəfindən qəbul edilir.

#### Ticarət dövriyyəsinin yüksəlməsi hər iki dövlətin mövcud potensialına əsaslanır

Azərbaycanla Rusiya arasında əlaqələrin yüksək səviyyəsini Prezident Vladimir Putinin Azərbaycana dövlət səfəri də təsdiq edir. Rusiya Prezidenti əvvəllər də ölkəmizdə səfərdə olub. Amma ilk dəfə idi ki, dövlət səfərinə gəlirdi. Prezident İlham Əliyevin mətbuata bəyanatında qeyd etdiyi kimi, dövlət səfərinin formatı və xarakteri xüsusi əhəmiyyətə malikdir, belə demək mümkünsə, həm də dövlətlərarası münasibətlərin yüksək səviyyəsindən xəbər verir.

Azərbaycanla Rusiya arasında imzalanmış sənədlərin mübadiləsi isə ikitərəfli əlaqələrin hüquqi bazasını daha da gücləndirir. Bu sənədlər siyasi, iqtisadi, sosial sahələrdə əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsini ehtiva edir.

Ümumiyyətlə, Azərbaycanla Rusiya arasında yüksək siyasi əlaqələrlə yanaşı, iqtisadi sahədə də müsbət dinamika mövcuddur. Belə ki, 2023-cü ilin nəticələrinə görə, 2022-ci illə müqayisədə ticarət dövriyyəsi 17 faiz artaraq 4.5 milyard dollar səviyyəsinə yüksəlib. Bu il isə ölkələrimiz arasında iqtisadi əlaqələr sferasında daha yüksək nəticə gözlənilir. Xüsusilə qeyd edilməlidir ki, sənaye və kənd təsərrüfatı sahələrində idxal-ixrac əməliyyatlarının yüksəlməsi, tranzit axınının və yük daşımalarının həcminin artması, o cümlədən Azərbaycanın rusiyalı turistlər üçün cəlbedici məkan olaraq qalması ticarət dövriyyəsinin yüksəməsinə təsir edən iqtisadi faktorlardır. Xüsusilə qeyd edilməlidir ki, Azərbaycanla Rusiya arasındakı iqtisadi əlaqələrin yüksəlməsi yalnız hər iki dövlətin mövcud potensialına əsaslanır.

#### Əməkdaşlığın daha da genişləndirilməsi üçün güclü siyasi iradə var

Azərbaycanla Rusiya arasında əməkdaşlıq əlaqələri siyasi sferadan tutmuş iqtisadi, mədəni, humanitar sahələrə qədər geniş spektri əhatə edir. Prezidentlərin danışıqları zamanı bütün bunlar, o cümlədən regional təhlükəsizlik ilə bağlı fikir mübadiləsi aparıldı. Dövlət başçılarının danışıqları, mətbuata verilən bəyanatlar isə göstərdi ki, bütün istiqamətlərdə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün güclü siyasi iradə mövcuddur. "Bütün istiqamətlər üzrə müsbət dinamika görürük. Nümayəndə heyətlərimizin tərkibi də bunu çox əyani şəkildə göstərir. Bu çox mətləblərdən xəbər verir. Yəni qarşılıqlı fəaliyyətin müzakirəsi üçün mövzular çoxdur və qarşılıqlı fəaliyyətimizin əhatə dairəsi ildən-ilə genişlənir. Biz bütün istiqamətlər üzrə qarşılıqlı fəaliyyətimizi möhkəmləndirmək əzmindəyik və əminəm ki, Sizin səfəriniz ölkələrimizin və xalqlarımızın yaxınlaşmasında növbəti mühüm addım olacaq", - deyə geniş tərkibdə görüşdə Prezident İlham Əliyev bildirib.

Azərbaycan həm də səmimi və münasibətlərin ruhuna uyğun siyasət yürüdən dövlətdir. Təsadüfi deyil ki, respublikamız qlobal səviyyədə Rusiyaya qarşı olan çağırışlara qoşulmur.

Azərbaycan və Rusiya prezidentlərinin hər görüşü əlaqələrin genişlənməsinə xidmət edir. Bu baxımdan Bakıda aparılan danışıqlar göstərir ki, dostluq, bərabərhüquqluluq və bir-birinin daxili işlərinə müdaxilə etməmək prinsipləri əsasında qurulan Azərbaycan-Rusiya əlaqələri bundan sonra daha da inkişaf edəcək. Prezident Vladimir Putinin vurğuladığı kimi, Rusiya Azərbaycanla çoxplanlı dostluq münasibətlərinin inkişafına böyük əhəmiyyət verir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## Azərbaycan-Rusiya müttəfiqliyi daha da möhkəmlənir

**"Rusiya Prezidenti Vladimir Putinin ölkəmizə dövlət səfəri iki ölkə arasında münasibətlərin daha da dərinləşməsinə təkan olacaq. Dövlət başçılarının verdiyi mesajlardan da aydın oldu ki, səfərin formatı və xarakteri xüsusi əhəmiyyətə malik olmaqla yanaşı, dövlətlərarası münasibətlərin yüksək səviyyəsindən xəbər verir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Könül Nurullayeva deyib. Deputat qeyd edib ki, prezidentlərin Birgə Bəyanatı daxil olmaqla, Bakıda qəbul edilən sənədlər münasibətlərin dostluq və müttəfiqlik xarakterini bir daha təsdiqləyir. Ümumiyyətlə, Azərbaycan regionda sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmlənməsinə yönəlmiş siyasət sayəsində qonşu ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsinə nail olub. Rusiya da dünyanın və regionun ən böyük ölkələrindən biri, eyni zamanda BMT TŞ-nin 5 daimi üzvündən biri kimi dünya nizamında öz yerini qoruyub saxlayır. Azərbaycan-Rusiya əlaqələri dövlətlərin müstəqilliyi, ərazi bütövlüyü, bərabərhüquqlu və bir-birinin daxili işlərinə müdaxilə etməmək prinsipləri əsasında inkişaf etməkdədir. Azərbaycanla Rusiya arasında yaxın dostluq münasibətləri, dövlətlərarası dialoq yüksək səviyyədədir. Təsadüfi deyil ki, 2023-cü ildə 2022-ci illə müqayisədə ticarət dövriyyəsi 17 faiz artaraq 4.5 milyard dollara yüksəlib. 2024-cü ildə daha yüksək nəticə gözlənilir. Dövlət başçıları iqtisadi-ticari münasibətlərlə bağlı məsələləri detallı şəkildə təhlil etdilər. Bir daha bəyan olundu ki, Rusiya və Azərbaycan bir-biri üçün mühüm iqtisadi tərəfdaşlardır. Ən iri investor kimi Rusiya tərəfindən Azərbaycan iqtisadiyyatına 4 milyarddan çox birbaşa investisiya qoyulub.

"Tərəflər həmçinin böyük əhəmiyyətə malik olan "Şimal-Cənub" layihəsinin reallaşdırılması üzrə birgə planlarını da bəyan etdilər. Belə ki, bu layihə Hind okeanının sahillərinə çıxmağa və bu marşrutdan qarşılıqlı fayda, maraq kontekstində istifadə etməyə imkan verəcək. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, ildə 15 milyon ton və daha çox - 30 milyon tonadək yüklərin daşınması əsas hədəflərdən biridir. Moskva və Bakı ilə yanaşı, bu dəhlizin digər iştirakçıları da birgə səylərlə öz fəaliyyətini davam etdirəcəklər", - deyə o əlavə edib.

Dövlət başçılarının həmçinin regional təhlükəsizliklə bağlı məsələləri də müzakirə etdiyini xatırladan K.Nurullayeva vurğulayıb ki, ötən ilin sentyabrında Azərbaycanın həyata keçirdiyi antiterror əməliyyatlarından sonra regionda tamamilə yeni reallıqlar formalaşıb. Cənubi Qafqazda möhkəm və uzunmüddətli sülh üçün yeni imkanlar yaranıb və bölgə dövlətləri bu fürsəti əldən vermək istəmirlər. Rəsmi Bakının mövqeyi bundan ibarətdir ki, Cənubi Qafqaz regionunda sabitlik və təhlükəsizlik bir çox hallarda Rusiya ilə Azərbaycan arasında sıx qarşılıqlı fəaliyyətdən asılıdır. Kreml isə hesab edir ki, Cənubi Qafqazda sülh və sabitlik bu regionun bütün dövlətlərinin və xalqlarının köklü maraqlarına tam şəkildə cavab verməlidir. Bu baxımdan Rusiya Prezidenti ölkəsinin gələcəkdə də Azərbaycan-Ermənistan qarşılıqlı fəaliyyətinin normallaşdırılmasına və 2020-2022-ci illərdə Rusiya, Azərbaycan prezidentləri və Ermənistanın baş naziri arasında əldə olunmuş məlum üçtərəfli razılaşmalar əsasında sülh sazişinin bağlanmasına hərtərəfli kömək edəcəyini bəyan etdi.

Deputatın fikrincə, Moskva, eyni zamanda Sovet İttifaqı vaxtından bizdə qalan müvafiq sənədləri nəzərə almaqla, sərhədlərin delimitasiyası və demarkasiyasına, transsərhəd marşrutların açılmasına, humanitar təmasların yaradılmasına da kömək etməyə hazırdır: "Bakıda aparılan danışıqlar və əldə olunan razılaşmalar Rusiya-Azərbaycan tərəfdaşlığının gələcəkdə də möhkəmlənməsinə xidmət edəcək. Azərbaycan müstəqil siyasət yürüdərək, öz milli maraqları çərçivəsində bütün tərəflərlə əməkdaşlığı inkişaf etdirir. Rəsmi Bakı həm Qərb, həm də Rusiya, eyni zamanda İran və digər ölkələrlə yaxşı əlaqələr qurmağı bacarıb. Bir sözlə, Prezident İlham Əliyevin beynəlxalq arenada yürütdüyü siyasət, məharətli diplomatiya həm də Rusiya ilə qurulmuş düzgün münasibətlər nəticəsində Azərbaycan qarşısında duran tarixi vəzifələrin həllinə nail olub, öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Ən vacib məsələ isə bundan ibarətdir ki, mövcud mürəkkəb geosiyasi şərait fonunda Azərbaycan Qərblə Rusiya arasında münaqişə meydanına çevrilməyib".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## "Şimal-Cənub" dəhlizi Azərbaycan və Rusiyanın əsas magistral layihəsidir




**Bakı bir sıra fundamental səbəblərə görə bir çox ölkələr üçün həmişə böyük əhəmiyyət kəsb edib. Azərbaycan əsas enerji oyunçusudur, bundan başqa, coğrafi mövqeyinə görə ölkəmiz nəqliyyat və logistika baxımından, xüsusilə "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi ilə bağlı mühüm tərəfdaşdır.**

**Azərbaycana rəsmi səfərə gələn Rusiya Prezidenti Vladimir Putinin avqustun 19-da Prezident İlham Əliyevlə danışıqları baş tutub. Görüşdə ikitərəfli strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin daha da inkişaf etdirilməsi, aktual beynəlxalq və regional problemlər müzakirə olunub. Bu səfər böyük əhəmiyyət kəsb edir, çünki Azərbaycan və Rusiya liderləri tərəfindən aparılan danışıqlar iki ölkə arasında əməkdaşlıq və Cənubi Qafqazdakı vəziyyətlə bağlı məsələləri həll etmək imkanı verir. Bu kontekstdə Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana səfəri Cənubi Qafqazda sülhün və təhlükəsizliyin daha da möhkəmlənməsinə mühüm töhfə sayıla bilər.**

**AZƏRTAC mövzu ilə bağlı rusiyalı iqtisadi ekspert, Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun (İMEMO RAS) Mərkəzi Asiya sektorunun rəhbəri, tarix elmləri namizədi Stanislav Pritçinlə müsahibə hazırlayıb.**

*- Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana dövlət səfəri ikitərəfli iqtisadi əlaqələrin inkişafına necə təsir edəcək?*

- İstənilən sammit görüşü, xüsusən də dövlət səfəri ikitərəfli münasibətlərin inkişafı üçün həmişə müəyyən təkan olur, çünki müzakirə olunacaq müxtəlif layihələr razılaşdırılır. Bu, ölkələrimiz arasında bağlanmış müqavilələrə, ilk növbədə, 2022-ci ilin fevralında imzalanmış Strateji Əməkdaşlıq haqqında Sazişə sadiq olduğumuzu göstərən ikitərəfli münasibətlərimizin növbəti mərhələsidir. Və bu aspektdə əlaqələrimiz fəal şəkildə inkişaf edir. Səfərin ən yüksək statusu bu gün inkişafının pik nöqtəsində olan Azərbaycan-Rusiya münasibətlərinin səviyyəsini aydın şəkildə əks etdirir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın MDB ölkələri ilə xarici ticarət dövriyyəsinin üçdə ikisi Rusiyanın payına düşür. Ölkələr arasında ticarət dövriyyəsi 2023-cü ildə rekord səviyyəyə - 4,5 milyard dollara çatıb və bu rəqəmin bu il yenilənməsi gözlənilir. Bu ilin yanvar-may aylarının yekunlarına əsasən, Rusiya ilə Azərbaycan arasında qarşılıqlı hesablaşmalarda milli valyutaların payı 73 faizi keçib, ötən il isə onların payı 57,8 faizə çatıb.

*- Bütün Cənubi Qafqaz regionunun sabitliyi və təhlükəsizliyi daha çox Rusiya ilə Azərbaycan arasında sıx qarşılıqlı fəaliyyətdən asılıdır. Ölkələrimiz bu regionun təhlükəsizliyinə necə kömək edə bilərlər?*

- Buradakı mənzərə əslində kifayət qədər genişdir. Rusiya və Azərbaycan beştərəfli dialoqumuz çərçivəsində, o cümlədən Cənubi Qafqazda təhlükəsizlik sisteminin necə olması ilə bağlı Xəzər dənizində təhlükəsizliyin təmin edilməsinə mümkün qədər yaxın baxışa və ümumi yanaşmalara malikdir. Təbii ki, bu, ilk növbədə açıq sərhədlər və nəqliyyat, ticarət vasitəsilə iqtisadi əlaqələrin inkişafıdır. Bu da İkinci Qarabağ müharibəsindən sonra verdiyimiz üçtərəfli bəyanatda öz əksini tapıb. Daha geniş kontekstdə danışsaq, həm Rusiya, həm də Azərbaycan Ermənistan, Azərbaycan, Gürcüstan, Rusiya, İran və Türkiyənin daxil olduğu "3+3" formatını maksimum dəstəkləyirlər. Təəssüf ki, hələlik bu format yalnız layihə olaraq qalır, çünki həmişə regional əməkdaşlıqda maraqlı olmayan oyunçular var.

Bundan əlavə, Ermənistan-Azərbaycan ziddiyyətlərinin həllinə Rusiya və Azərbaycanın yaxın və oxşar yanaşmalarının şahidi oluruq. Burada təəssüf ki, ABŞ və Fransanın timsalında regiondankənar oyunçular meydana çıxır ki, onlar üçün rəsmi Bakı ilə İrəvan arasında ziddiyyətlərin davam etməsi regionda təsir imkanları yaradır və bu, təbii ki, dağıdıcı amildir. Buna qarşı Rusiya və Azərbaycan birgə işləməyə hazırdır.

*- Azərbaycan və Rusiya prezidentləri Xəzər dənizində ekoloji vəziyyəti müzakirə ediblər. Mümkün ekoloji fəlakətin qarşısını almaq üçün tərəflərin həm ikitərəfli, həm də beştərəfli formatda hansı yolları müəyyənləşdirməsi mümkündür?*

- Rusiya və Azərbaycanın ekoloji problemlərin həllinə həmişə oxşar baxışları olub. Bundan əlavə, biz Xəzər dənizinin beynəlxalq statusu haqqında Konvensiya çərçivəsində Bioloji Müxtəlifliyin Mühafizəsi haqqında Protokolu imzaladıq. Xəzər dənizi Xəzər regionunun ümumi ekoloji obyektidir və onun hissələrindən birində böhran hər bir dövlətin şəxsi planlarına və onun inkişaf perspektivlərinə təsir edəcək. Neft əməliyyatlarına və Xəzər dənizindəki ümumi vəziyyətə səmərəli ekoloji nəzarət yalnız Xəzəryanı dövlətlərin birgə nəzarəti ilə mümkündür. Belə nəzarət Xəzəryanı dövlətlər tərəfindən yaradılmış və müvafiq səlahiyyətlərə, xüsusən də birgə ekoloji proqramların işlənib hazırlanması və həyata keçirilməsi hüququna malik dövlətlərarası ekoloji qurum vasitəsilə həyata keçirilə bilər.

*- Rusiya şirkətləri Azərbaycan bazarında özlərini kifayət qədər rahat hiss edirlər. Bunu Rusiya Prezidenti Vladimir Putin Prezident İlham Əliyevlə danışıqlar zamanı deyib. Azərbaycan iqtisadiyyatının hansı sahələri rusiyalı investorları cəlb edir?*

- Bakıda fəaliyyət göstərən Rusiya şirkətləri və Rusiyada fəaliyyət göstərən Azərbaycan şirkətləri aqroekspressdir, yəni qarşılıqlı əlaqəyə və Azərbaycan mallarının Rusiya bazarına çatdırılmasına imkan verəcək ən etibarlı və sürətli infrastrukturdur. Rusiya Azərbaycanın qeyri-neft ixracının əsas və ən böyük alıcısıdır. Bundan əlavə, Azərbaycan-Rusiya investisiya əməkdaşlığı çox uğurla inkişaf edir: Azərbaycanda Rusiya kapitallı 1,3 minə yaxın şirkət qeydiyyatdan keçib və Azərbaycan iqtisadiyyatına Rusiya investisiyalarının ümumi həcmi 8,7 milyard dolları ötüb. Rusiya investorları Azərbaycan iqtisadiyyatının bank sektoru, neft-kimya, yük maşınlarının istehsalı, şərabçılıq, qida sənayesi kimi sahələrini fəal şəkildə araşdırırlar. Eyni zamanda azərbaycanlı investorlar arasında Rusiya iqtisadiyyatının müxtəlif sahələrində, ilk növbədə, xidmət sektorunda, turizmdə, kənd təsərrüfatı məhsullarının emalı və digər sahələrində fəaliyyətə maraq var. Səfər zamanı Rusiya Birbaşa İnvestisiyalar Fondu ilə Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) arasında Rusiya şirkətlərinin Azərbaycan bazarına daxil olması və Azərbaycan biznesinin Rusiyaya cəlb edilməsinə investisiya dəstəyi haqqında saziş bağlanıb. Saziş bu mühüm sahədə əməkdaşlığın genişləndirilməsi üçün zəruri hüquqi baza yaradır.

*- Rusiya və Azərbaycan Xəzər şelfində birgə həyata keçirmək üçün potensial olaraq yeni layihəni nəzərdən keçirir. Bunu Rusiya Baş nazirinin müavini Aleksandr Novak deyib. Layihə haqqında nə deyə bilərsiniz?*

- Bu, Azərbaycanın və Rusiya şirkətlərinin, ilk növbədə, "Lukoyl"un şelfdə işləmək təcrübəsini nəzərə alaraq kifayət qədər perspektivli istiqamətdir. Hesab edirəm ki, bu istiqamət xüsusilə Azərbaycanda karbonsuz enerjinin inkişafı kontekstində əməkdaşlıq üçün çox vacib sahədir. Yəni layihə azad edilmiş ərazilərdə kiçik atom-elektrik stansiyalarının inkişafı kontekstində həyata keçirilə bilər.

*- "Şimal-Cənub" layihəsi rəsmi Bakı ilə Moskva arasında dövlətlərarası münasibətlər üçün müstəsna əhəmiyyət kəsb edir. Bu marşrut üzrə potensialın artırılması üçün hər iki ölkə hansı tədbirləri görməlidir? Layihənin üstünlüyü nədir?*

- Azərbaycan və Rusiyanın regionda kommunikasiyaların inkişafında maraqlı olmasından danışarkən "Şimal-Cənub" nəqliyyat dəhlizi mövzusunu nəzərdən qaçırmaq olmaz. Bu dəhliz sayəsində Hindistan və Çin öz yüklərini Mərkəzi Asiya, Azərbaycan, Rusiya və Avropaya daşıya biləcəklər. Layihənin əsas üstünlüyü yükdaşıma vaxtının yarıdan çox azaldılmasıdır. Dünyada mövcud vəziyyət fonunda əsas mərkəzi Azərbaycan olan nəqliyyat marşrutlarının əhəmiyyətini qiymətləndirmək çətindir. Azərbaycan bu istiqamətdə bir sıra mühüm addımlar ataraq "Şimal-Cənub" marşrutunun təşviqində mühüm rol oynayır. "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsinin həyata keçirilməsi həm Cənubi Qafqaz regionunun, həm də Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır. Bu marşrut sayəsində ölkələr arasında ticarət dövriyyəsi iki dəfə artıb, daşımaların qiyməti isə dəniz nəqliyyatı ilə müqayisədə xeyli aşağı düşüb. "Şimal-Cənub" dəhlizi bizim əsas magistral layihəmizdir. Üstəlik, burada ən diqqətçəkən məqam odur ki, Rusiya və Azərbaycan öz növbəsində bütün razılaşmaları yerinə yetiriblər və infrastrukturu genişləndirməyə hazırdırlar. Bundan əlavə, bu, Rusiyanın ticarət əlaqələri üçün bağlanan qərb istiqamətinə alternativ olacaq yeni marşrut açmaq imkanıdır. Azərbaycan üçün isə təbii ki, bu, tranzit potensialını artırmaq və ondan istifadə etmək imkanıdır.

*- Hər iki lider Bakı Ağ Şəhərdə də oldular. Bildiyiniz kimi, əvvəlcə bu ərazi "Qara Şəhər" adlanıb. Bakıda belə bir infrastrukturun yaranmasını necə qiymətləndirirsiniz?*

- Bakıda şəhər infrastrukturunun inkişafına gəlincə, burada təbii ki, ciddi irəliləyiş var. Postsovet məkanının paytaxtları arasında Bakı ən dinamik inkişaf edən, ekoloji yönümlü, klaster inkişafı ilə seçilən şəhərlərdən biridir. Və keçmiş "Qara Şəhər" bu gün bütün parklar sistemini təmsil edir. Məhz buna görə də Prezident Putin Azərbaycan paytaxtında baş verən dəyişikliklərin sürətindən heyran olub. Həqiqətən də Cənubi Qafqazda Bakı turistlər baxımından, şəhərsalma siyasəti baxımından incidir. Prezident İlham Əliyev rusiyalı həmkarını paytaxtın şərq hissəsinin bərpasına və inkişafına yönəlmiş "Bakı Ağ Şəhər" layihəsi ilə tanış edib. Bir neçə il əvvəl Azərbaycan rəhbərliyi məhz bu yerdə Ağ şəhər yaşayış kompleksinin tikintisinə başlamaqla "Qara Şəhər"i "Ağ Şəhər"ə çevirməyi qarşısına məqsəd qoymuşdur. Nəticədə, biz ölkə rəhbərliyinin "qara"nı "ağ"a çevirə bildiyinin şahidi olduq.

# 1 sentyabr Milli Məclisə seçkilər günüdür

## Zəfər zirvəsində zəfər seçkisi

### Şuşa ilk parlament seçkilərinə hazırdır

**◆ Qarabağdan reportaj**

**Ölkəmiz mühüm siyasi hadisə ərəfəsindədir. Müstəqillik dövründə ölkəmizdə keçiriləcək sayca 7-ci parlament seçkilərinə 9 gün qalır. Bütün ölkə üzrə seçkilərə hazırlıqlar yekunlaşmaq üzrədir.**

**Bu seçkilər həm də ərazi bütövlüyümüzün, suverenliyimizin tam təminatından sonra işğaldan azad edilmiş Qarabağ və Zəngəzurda təşkil edilən ilk parlament seçkiləridir. Yəni ilk dəfə olaraq parlament seçkilərinə suverenliyini tam bərpa etmiş ölkə kimi gedirik.**















Ümumiyyətlə isə Qarabağ və Şərqi Zəngəzurda 34 daimi seçki məntəqəsi yaradılıb. Keçmiş məcburi köçkünlər 574 məntəqədə səs verə biləcəklər. Onların sayı isə 399 min 56 nəfərdir.

Əlbəttə ki, seçkilər hər bir xalqın ictimai-siyasi həyatında mühüm rol oynayır. Bu mənada həmin prosesə xüsusi önəm verilir. Sentyabrın 1-də ölkəmizin şanlı tarixində daha bir mühüm hadisə yaşanacaq. İşğaldan azad olunmuş ərazilərə köçürülən keçmiş məcburi köçkünlər bu tarixi hadisənin iştirakçısı olacaqlar.

Vətən müharibəsində qazandığımız Zəfərin zirvəsi sayılan Şuşa şəhəri də seçkilərə hazırlaşır. Artıq böyük köç karvanının yeni ünvanları sırasında Şuşanın da olması onu deməyə əsas verir ki, mədəniyyət paytaxtımızın sakinləri doğma yurdda səs verəcəklər.

Biz də Şuşaya səfərimiz çərçivəsində yolumuzu 124 saylı Şuşa-Ağdam-Xocavənd Seçki Dairəsinin buradakı məntəqə seçki komissiyasından salaraq səsverməyə hazırlıq prosesi ilə maraqlandıq.

124 saylı Şuşa-Ağdam-Xocavənd Seçki Dairəsi 93 seçki məntəqəsini əhatə edir. Bu dairədən deputat seçilmək uğrunda 7 nəfər mübarizə aparacaq. Onların sırasında Yeni Azərbaycan Partiyası və Azad Vətən Partiyasının namizədləri, bitərəflər var.

Şuşada isə iki - 46 və 47 saylı məntəqə seçki komissiyaları (MnSK) fəaliyyət göstərir. 46 saylı MnSK şəhərin 1 nömrəli tam orta məktəbinin inzibati binasında yerləşir. MnSK-nın sədri Səbinə Gözəlova deyir ki, Şuşa sakinlərinin ilk parlament seçkilərində doğma şəhərlərində səs verə bilmələri, bütövlükdə isə seçkilərin Qarabağ və Şərqi Zəngəzurda təşkil olunması olduqca mühüm siyasi hadisədir. 46 saylı seçki məntəqəsində seçicilərə öz səsvermə hüquqlarından azad şəkildə istifadə etmələri üçün lazımi şərait yaradılıb. MnSK-nın əməkdaşları müxtəlif treninqlərdə iştirak ediblər.

Səbinə Gözəlovanın sözlərinə görə, seçki məntəqəsi zəruri texniki vasitə və metodiki vəsaitlər ilə təmin olunub, seçici siyahıları və məlumat lövhələri asılıb. Seçicilərin öz mövqelərini sərbəst şəkildə bildirmələri üçün kabinələr yaradılıb. Seçki məntəqələrində katib və üzvlər, habelə seçkini izləyəcək müşahidəçilər üçün yerlər ayrılıb.

Müasir infrastrukturla təchiz edilən 1 nömrəli tam orta məktəbin binası yanğın təhlükəsizliyindən mühafizə, fasiləsiz rabitə və elektrik enerjisi ilə təmin edilib. Yəni məntəqə seçkilərə tam hazır vəziyyətdədir.

47 saylı məntəqə seçki komissiyasının yerləşdiyi ünvana yollanırıq. Bu məntəqə Şuşadakı "Xarıbülbül" hostelinin birinci mərtəbəsində yerləşir. MnSK-nın sədri Eldar Salahovla söhbət əsnasında bəlli olur ki, 47 saylı məntəqə bundan öncə mövcud olmayıb. Parlament seçkilərinin keçirilməsi üçün yeni yaradılan 124 saylı Şuşa-Ağdam-Xocavənd Seçki Dairəsi formalaşdıqdan sonra seçki məntəqələrinin sayı artırılıb.

Bu məntəqədə ilk dəfə səsvermə prosesi keçiriləcək. Doğma yurdlarına qayıdan şuşalılar hüquqlarından istifadə edib öz namizədlərinə səs verəcəklər. Məntəqə seçki komissiyasının sədri deyir ki, seçkiyə hazırlıq prosesi yüksək səviyyədə həyata keçirilir. Sentyabrın 1-də bu məntəqədə yeni tarix yazılacaq: "Hazırlıq prosesi tam yekunlaşmaq üzrədir. Seçicilərin sərbəst şəkildə səs vermələri üçün kabinələr, müşahidəçilər üçün yerlər müəyyənləşdirilib. Doğma yurda qayıdan şuşalıların evlərindən çıxaraq rahat şəkildə məntəqəyə gəlmələri üçün də şərait yaradılır".

Eldar Salahov deyir ki, suverenliyimizin tam təmin edilməsi kimi tarixi şəraitdə ilk dəfə məhz parlament seçkilərində məntəqə seçki komissiyasının sədri kimi fəaliyyət göstərmək həm böyük məsuliyyət, həm də qürurverici hadisədir. Bu seçkilər məntəqə üzvlərinin həyatında silinməz iz qoyacaq.

Aparılan hazırlıqlar, həyata keçirilən tədbirlər onu deməyə əsas verir ki, Zəfər zirvəmiz Şuşa parlament seçkilərinə tam hazırdır. Suverenliyimizin bərpasından sonra mədəniyyət paytaxtımızda ikinci dəfə seçki prosesi baş tutacaq. 30 illik həsrətdən sonra Şuşaya qayıdan yerli sakinlərin içərisində həm ikinci, həm də birinci dəfə seçki prosesində iştirak edənlər tarixə yazılacaqlar.









*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*
*Bakı-Şuşa-Bakı*

## MSK dairə seçki komissiyalarının informasiya texnologiyaları üzrə mütəxəssisləri üçün praktiki seminarlara start verib






**Mərkəzi Seçki Komissiyası (MSK) Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar genişmiqyaslı maarifləndirmə proqramı çərçivəsində avqustun 21-dən etibarən növbəti layihəyə - dairə seçki komissiyalarının informasiya texnologiyaları üzrə mütəxəssisləri üçün praktiki seminarlara başlayıb.**

AZƏRTAC xəbər verir ki, layihənin əsas hədəfi seçki günü məlumatların operativ şəkildə ictimailəşdirilməsi, beləliklə, aşkarlığın və şəffaflığın həmin gün də yüksək səviyyədə təmin edilməsidir.

Seminarlar çərçivəsində dairə seçki komissiyalarının informasiya texnologiyaları üzrə mütəxəssisləri Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminin (DAİS) ümumi fəaliyyəti, yenilənərək daha da təkmilləşdirilən imkanları barədə ətraflı məlumatlandırılır, DAİS üzərindən tətbiq olunan proqram təminatlarından birbaşa və praktiki istifadə təmin edilir, eləcə də yaranan suallara yerindəcə əyani şəkildə aydınlıq gətirilir.

İnformasiya texnologiyaları üzrə mütəxəssislərə xüsusi proqram modullarından praktiki məşğələlərlə test rejimində işləməyə də şərait yaradılır ki, bu da Milli Məclisə seçkilər günü həm seçicilərin fəallığı, həm də səsvermənin nəticələrinə dair protokol məlumatlarının Mərkəzi Seçki Komissiyasına ötürülməsi üçün proqram təminatlarını dərindən mənimsəmələrinə imkan verir.

Dairə seçki komissiyalarının informasiya texnologiyaları üzrə mütəxəssislərinin bilik, bacarıq və işgüzar vərdişlərinin gücləndirilməsində mühüm rolu olan praktiki seminarların avqustun 23-dək davam etməsi nəzərdə tutulur.

## Seçicilər namizədlərin platformalarını müzakirə edirlər

**Ölkəmizdə keçiriləcək növbədənkənar parlament seçkilərinə sayılı günlər qalıb. Seçkinin demokratik və şəffaf keçirilməsi üçün Qusarda da lazım olan tədbirlər görülür.**



60 saylı Quba-Qusar seçki dairəsinin 44 saylı Aşağı Ləgər seçki məntəqəsi kənd tam orta məktəbində təşkil edilib. Məntəqədə adıçəkilən kəndin seçiciləri səs verəcəklər. Məntəqənin sədri Lamiyə Abdullayeva bildirdi ki, kəndin ziyalıları, ictimaiyyət nümayəndələri demək olar, hər gün məntəqənin qarşısına toplaşır və namizədlərin platformalarını müzakirə edirlər.

Məntəqənin sədri onu da dedi ki, 13 nəfər ilk dəfə səs verəcək gəncimiz var: "Onların hər biri seçkidə iştirak edəcək. Jasmin Həsənova, Elşən Məmmədov, Abdulmir Şixzadayev, Dilarə Rizvanova və digərləri vaxtaşırı məntəqəyə gəlir, həyatlarında yenilik yaradacaq bu seçkidə məntəqə üzvlərinə kömək etmək istədiklərini bildirirlər".

Olya Kiçibəyova öz fikirlərini bizimlə bölüşərək bildirdi ki, 44 günlük Vətən müharibəsində oğullar öz sözlərini deyərək işğal altında olan torpaqları azad etdilər: "Bu gün vətənimizin bütöv ərazisində keçirilən seçki bizim qürur yerimizdir. Qəhrəman oğulların 4 iI əvvəl etdiklərini bizlər bu gün seçkilərdə davam etdirməliyik".

L.Abdullayevanın sözlərinə görə, məntəqə üzrə yaşı 70-dən yuxarı 32 seçici var. Onların hər birinin sağlamlığı yerindədir. Aparılan söhbətlərdə seçki günü səsvermədə yaxından iştirak edəcəklərini bildiriblər.

Məntəqə bütün texniki avadanlıqlarla təmin edilib. Seçki günü kiminsə məntəqəyə gəlməsi mümkün olmazsa, ünvanına daşınan qutu aparılacaq.

*A.ƏLİYEV,*
*"Azərbaycan"*

## Sərbəst, demokratik və şəffaf

### Lənkəranın seçki məntəqələrində bunun üçün bütün şərait yaradılıb

**Hər ötən gün bizi sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərinə yaxınlaşdırır. Lənkəranda da bu mühüm siyasi kampaniyaya ciddi hazırlaşırlar. Buna şahid olmaq üçün şəhərdəki bir neçə məntəqəyə baş çəkdik.**

77 saylı Lənkəran şəhər seçki dairəsinin 2 saylı seçki məntəqəsi Asif Məhərrəmov adına şəhər 7 nömrəli tam orta məktəbin binasında yerləşir. Digər seçki məntəqələri kimi, bu məntəqədə də səsvermə gününə hazırlıq işləri başa çatmaq üzrədir. Məntəqə seçki komissiyasının sədri Allahverən Babayevin sözlərinə görə, dəqiqləşdirilmiş son siyahıya əsasən, məntəqədə 28 nəfər ilk dəfə səs verəcək. Ümumiyyətlə, məntəqədə seçkilərin şəffaf və demokratik keçirilməsi üçün hər cür şərait yaradılıb. Seçici siyahıları hazırdır, istənilən seçici gəlib adının siyahıda olub-olmaması ilə maraqlana bilər: "Adları seçici siyahısında olmayan şəxslər isə səsvermə günü şəxsiyyət vəsiqəsini təqdim etməklə səs vermək hüququ qazanacaqlar. Məntəqəmiz lazım olan bütün texniki avadanlıqlarla, təbliğat-təşviqat materialları ilə də təchiz olunub. Əvvəlki seçkilərdə olduğu kimi, şəffaflığın təmin edilməsi üçün gözlə görünməyən mürəkkəbdən istifadə olunacaq. Tam əminliklə deyə bilərəm ki, növbədənkənar parlament seçkilərinin şəffaf, ədalətli, demokratik və qanun çərçivəsində keçirilməsi təmin olunacaq", - deyə A.Babayev bildirdi.




76 saylı Lənkəran-Masallı seçki dairəsinin Xarxatan kənd tam orta məktəbinin binasında yerləşən 29 saylı seçki məntəqəsi də seçkilərə hazırlığın son mərhələsindədir. Məntəqə seçki komissiyasının sədri Faiq Babayev:

- Məntəqəmiz səsvermə kabinələri, seçki qutuları ilə təmin olunub. Seçici siyahıları, təbliğat və təşviqat xarakterli plakatlar seçki məntəqəsinin girişində, təyin olunmuş yerlərdə asılıb. Siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir namizədin öz seçiciləri ilə görüşməsi üçün bərabər şərait yaradılıb. Söz düşmüşkən bildirim ki, deputat mandatı uğrunda mübarizə çox gərgin olacaq. Əslində bu, həm də ölkəmizdə seçkilərin demokratik, şəffaf, azad və ədalətli keçirilməsinə yaradılan şəraitin göstəricisidir.

78 saylı Lənkəran kənd seçki dairəsi Girdəni kəndində yerləşir. Dairə üzrə 53 seçki məntəqəsi fəaliyyət göstərir. Dairə Seçki Komissiyasının sədri Əlövsət Rufiyevin məlumatına görə, avqustun 13-dən 16-na qədər məntəqə seçki komissiyalarının üzvləri üçün Mərkəzi Seçki Komissiyası tərəfindən maarifləndirici treninqlər keçirilib. "DSK-ya müraciət edən 14 nəfərdən 7-nin namizədliyi qeydə alınıb. Onlar xüsusi ayrılmış yerlərdə maneəsiz olaraq seçiciləri ilə görüşlər keçirmək imkanı qazanıblar", - deyə Ə.Rufiyev bildirdi.

Ə.Rufiyevdən onu da öyrəndik ki, dairənin əhatə etdiyi bütün məntəqələr zəruri texniki avadanlıqlarla təchiz olunub. Seçici siyahıları hamının tanış ola biləcəyi yerlərdən asılıb. Seçki məntəqələrində seçkilərə hazırlıq işləri qanunvericiliyin tələblərinə uyğun aparılır. Məntəqələr işıq, qaz, rabitə, internet və tibbi xidmətlə təmin edilib.

Baş çəkdiyimiz digər seçki məntəqələrində də səsvermə gününə hazırlıq işlərinin seçki qanunvericiliyinin tələblərinə uyğun aparıldığının şahidi olduq. Gördüklərimiz onu deməyə əsas verir ki, sentyabrın 1-də Lənkəranda seçicilərin öz iradələrini sərbəst, demokratik və şəffaf şəkildə bildirmələri üçün hər cür şərait yaradılıb.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## "Vətəndaş Cəmiyyəti Uğrunda" Seçki Müşahidə Koalisiyası seçki müşahidəçiləri üçün təlimlərə başlayıb

**"Seçki Müşahidə Koalisiyası" Milli Məclisə növbədənkənar seçkilər günü müşahidə aparacaq şəxslərlə təlimlərə başlayıb.**

AZƏRTAC xəbər verir ki, avqustun 20-dən start verilən təlimlər 30 nəfərlik qruplarla onlayn formatda keçirilir. Avqustun 30-dək davam edəcək təlimlərdə nüfuzlu QHT rəhbərləri və nümayəndələri də iştirak ediblər. Təlimi ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun Azərbaycanda parlament seçkilərini izləyəcək Müşahidə Missiyasının nümayəndəsi də izləyib.

Koalisiyanın həmtəsisçisi - "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri Zaur İbrahimli təlim iştirakçılarını seçkilərin müşahidəsi ilə əlaqədar görülmüş işlər və atılacaq addımlar, təşkilati məsələlər haqqında məlumatlandırıb.

Koalisiyanın digər həmtəsisçisi - Hüquqi Təhlil və Araşdırmalar İctimai Birliyinin sədri Ramil İskəndərli müşahidəçilərin hüquq və vəzifələri, seçki qanunvericiliyinin pozulmasına görə məsuliyyət, qanunvericilikdə təsbit olunmuş digər məsələlərlə bağlı təlim keçib. Təlim zamanı suallar cavablandırılıb, təkliflər qeydə alınıb.




Qeyd edək ki, "Vətəndaş Cəmiyyəti Uğrunda" Seçki Müşahidə Koalisiyası Milli Məclisə növbədənkənar seçkilərin müşahidəsini həyata keçirəcək. Koalisiya "Bələdiyyələrin fəaliyyətinin təbliği" İctimai Birliyi, Hüquqi Təhlil və Araşdırmalar İctimai Birliyi və "Prioritet" Sosial-İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyi tərəfindən yaradılıb. "Vətəndaş Cəmiyyəti Uğrunda" Seçki Müşahidə Koalisiyasının məqsədi seçki prosesində şəffaflığın, hesabatlılığın, inklüzivliyin təmin edilməsi, namizədlərin qeydiyyatı, təşviqat kampaniyasının aparılması, səsvermə günü səslərin hesablanması və şikayətlərə baxılması, seçki administrasiyasının fəaliyyəti, seçki mühiti və beynəlxalq standartlar və qabaqcıl təcrübənin nəzərə alınması məsələləri ilə əlaqədar bütün maraqlı tərəfləri müstəqil, obyektiv qiymətləndirmə ilə təmin etməkdir.

# Səudiyyə mediası Rusiya Prezidentinin Azərbaycana səfərini geniş işıqlandırıb

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycan Respublikasına dövlət səfəri Səudiyyə Ərəbistanı Krallığının mediasında geniş işıqlandırılıb.**




Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, Krallığın Londonda nəşr edilən nüfuzlu "Əş-Şərq əl-Avsət" qəzetində dərc olunan məqalədə Putinin səfərinin proqramına Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlığın inkişafı məsələlərinin daxil edildiyi diqqətə çatdırılıb. Yazıda əlavə edilib ki, həmçinin bu danışıqlarda beynəlxalq problemlər və regional məsələlər də müzakirə olunub.

Səudiyyə nəşri vurğulayıb ki, danışıqlarda Azərbaycan-Ermənistan nizamlanması da müzakirə obyekti olub. Eyni zamanda məqalədə Azərbaycanın Moskva ilə əlaqələrinə paralel olaraq, Avropa İttifaqı üçün mühüm enerji təchizatçısı olduğu da qeyd edilib.

Nüfuzlu "Arabnews.com" xəbər saytında dərc edilən məqalədə isə bildirilir ki, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin azərbaycanlı həmkarı İlham Əliyevlə ikitərəfli münasibətlər, beynəlxalq və regional problemlər ətrafında danışıqlar aparıb. Diqqətə çatdırılıb ki, Azərbaycan Moskvanın və Türkiyənin yaxın tərəfdaşı, həm də Qərb ölkələrinin əsas enerji təchizatçısıdır.

"Arabnews" qəzeti yazır ki, İlham Əliyev və Vladimir Putinin iştirakı ilə birgə sənədlər imzalanıb və dövlət başçıları mətbuata bəyanatlar veriblər. Rusiya lideri həmçinin 1993-2003-cü illərdə Prezident olmuş Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin məzarının önünə əklil qoyub.

Qəzet qeyd edir ki, Ermənistan Qərb dövlətləri, xüsusən də ABŞ ilə əlaqələrini dərinləşdirməyə çalışır və bu, Moskvanı qıcıqlandırır.

Krallığın "Əl Mədinə" və "Əl-Riyad" qəzetlərində də Rusiya liderinin Azərbaycana dövlət səfəri haqqında məqalələr dərc olunub.

# *Türkiyəli ekspert:* "Ümidvaram ki, Ankara da Bakının BRICS-ə daxil olmaq qərarından nümunə götürəcək"

**Ümidvaram ki, digər ölkələr, xüsusən də Türkiyə BRICS-ə daxil olmaqla bağlı rəsmi müraciət edən Azərbaycandan nümunə götürəcəklər.**

AZƏRTAC xəbər verir ki, bu fikri "CGTN Türk" telekanalının efirində Mərmərə Universitetinin professoru Hüseyn Barış Doster ifadə edib. Onun sözlərinə görə, müasir dünyada BRICS kimi təşkilatlar "ABŞ imperializminə əsaslanan Qərb hökmranlığı sisteminə qarşı çıxan" Qlobal Cənubun ruporuna çevrilir.

Mərmərə Universitetinin professoru əlavə edib: "Dialoqun Vaşinqtonun müəyyən etdiyi vektorlar ətrafında qurulduğu qlobal münasibətlər sistemi əvvəlki əhəmiyyətini itirir. Bu, həm hərbi-siyasi bloklara, həm də ABŞ-ın rəhbərlik etdiyi iqtisadi, siyasi və diplomatik ittifaqlara aiddir. Bu proseslərin fonunda Qlobal Cənub dövlətlərinin - uzun müddət "məzlum" dövlətlər rolunda qalan inkişaf etməkdə olan ölkələrin rolu artır".

Ekspert Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün ötən əsrin əvvəllərində məzlum xalqların birlik və təşkilatlarının sayının artmasını müsbət amil adlandıran sözlərini xatırladıb.

Ekspert vurğulayıb: "Bu ittifaqların gücləndirilməsi imperialist cərəyanların zəifləməsi ilə nəticələnəcək və Qlobal Cənubu dünya səhnəsində keyfiyyətcə yeni mövqelərə çıxaracaq. BRICS, ŞƏT, Çin-Afrika Əməkdaşlıq Forumu və Türk Dövlətləri Təşkilatı kimi təşkilatlar ölkələr arasında əlaqələrin möhkəmlənməsinə kömək edir, xarici siyasət və iqtisadiyyat sahələrində addımların əlaqələndirilməsinə zəmin yaradır, dövlətlərarası problemlərin həllinə töhfə verir".



Hüseyn Barış Doster imperialist dairələrin təşkilata üzv dövlətlərin, o cümlədən Türkiyənin yerləşdiyi regionun daxili işlərinə qarışmaq cəhdlərinin qarşısının alınması kontekstində BRICS platformasının əhəmiyyətini də qeyd edib. O bildirib ki, bu, xarici təzyiq imkanlarını da məhdudlaşdıracaq.

Mərmərə Universitetinin professoru vurğulayıb ki, dünyada hər bir ölkənin bir-birindən fərqli xarici siyasət prioritetləri var və bu, təbiidir. "Bu məsələ Türkiyə və Azərbaycana da aiddir. "Bir millət, iki dövlət" ideyası və ölkələrimizin xarici siyasət prioritetləri kontekstində Ankara ilə Bakının birliyi anlayışlarını aydın şəkildə dəqiqləşdirmək lazımdır. Türkiyə və Azərbaycanın müəyyən məsələlərdə, o cümlədən Yaxın Şərqlə bağlı yanaşmalarda mövqeləri fərqli ola bilər", - deyə o bildirib.

Ekspert qeyd edib ki, Azərbaycanın 44 günlük Vətən müharibəsinin nəticələri fonunda Bakının dünyada mövqeyi möhkəmlənib. "Bu gün Azərbaycan öz gücünə inanan və Cənubi Qafqazın lideri olan dövlətdir. Bakı hərbi, siyasi və iqtisadi gücünə əsaslanaraq, özünü yüksək səslə regional aktor kimi elan etməyə çalışır. Buna Azərbaycanın məsələn, Fələstində və ya Ukraynada münaqişələrin həllində vasitəçi qismində göstərdiyi səylər də kömək edə bilər", - deyə türkiyəli ekspert sözlərinə yekun vurub.

# Boneyra nümayəndələri müstəmləkəçiliyə qarşı mübarizə ilə bağlı dünyaya müraciət edəcəklər

**Boneyra adasından olan qonaqlar bu gün BTQ ilə birlikdə müstəmləkəçiliklə mübarizə çərçivəsində keçirilən tədbirdə dünyaya müraciət edəcəklər.**

"Report" xəbər verir ki, bunu Bakı Təşəbbüs Qrupunun (BTQ) rəhbəri Abbas Abbasov jurnalistlərə açıqlamasında deyib. "Avqustun 22-də BTQ-nin növbəti tədbiri keçiriləcək. Cari ilin oktyabrında Boneyra adası BMT-yə qətnamə layihəsi təqdim edəcək. Onların Bakıdakı nümayəndələri BTQ ilə birlikdə konfrans keçirmək üçün müraciət etmişdilər və biz sabah Niderlandın müstəmləkəçiliyindən əziyyət çəkən Boneyra xalqı üçün tədbir keçirəcəyik. Onlar bu tədbirdə sözügedən qətnamə layihəsi BMT-yə təqdim edilməzdən əvvəl dünyaya müraciət edəcəklər", - o bildirib.




# *Səfir:* "BMT kolonializmlə mübarizə aparır"

**"Siz ilk növbədə öz ərazi bütövlüyünüzə və məqsədinizə köklənməlisiniz. Bu, böyük bir mübarizədir. Ölkələrin öz azadlıqları uğrunda mübarizəyə ehtiyacı var. Bakı Təşəbbüs Qrupu bu istiqamətdə böyük işlər görür. Biz Belizdə işçilərin hüquqlarının müdafiəsi uğrunda mübarizə aparırıq. BMT kolonializmlə mübarizə aparır".**

"Report" xəbər verir ki, bunu Belizin BMT-dəki səfiri Karlos Fuller Bakı Təşəbbüs Qrupunun (BTQ) ofisində jurnalistlərə açıqlamasında deyib.

"Biz 1981-ci ildə müstəqilliyə nail olmuşuq. Müstəqillik qazanmağa çalışmaq çox uzun, əzmkarlıq və əsas prinsiplərinizin nə olduğunu göstərməli olduğunuz bir mübarizədir. Belizdə həmişə xalqın öz müqəddəratını təyin etməsi və ərazi bütövlüyünü bərpa etməsi əsas məqsəd olub. Ancaq bu olduqca çətin proses idi. Çünki siz insanları mübarizənizə qoşulmağa məcbur etməlisiniz. Sonra siz beynəlxalq ictimaiyyətin tam dəstəyini almaq üçün bütün dünyaya səsinizi çatdırmalısınız", - o bildirib.



Səfir söyləyib ki, bu, bir növ marafondur və müstəqillik istəyən ölkələr bunu nəzərə almalıdır: "Boneyra xalqının öz müqəddəratını təyin etmək hüququ uğrunda apardıqları mübarizəni dünyaya çatdırmaq lazımdır. Müstəqilliyə nail olmaq üçün bizə 1981-ci ilə qədər vaxt lazım idi. Biz şimaldakı qonşularımızı razı salmalı olduq. Panama, Karib ölkələri də bizə qoşuldu və daha geniş ictimaiyyətə mesajı çatdırdıq, Avropanı, Afrikanı, Şərqi Asiya ölkələrini cəlb etdik. Dünyanın bütün bu ölkələri müstəqillik uğrunda mübarizəmizi dəstəkləyirlər. Beləliklə, bu bizə Birləşmiş Millətlər Təşkilatına yaxınlaşmağa və üzv ola bilməyə imkan verdi".

# *Cun SUMER:* "Boneyra xalqını öz ölkələrində azad yaşamaqdan məhrum ediblər"

**Boneyra xalqını öz ölkələrində azad yaşamaqdan məhrum ediblər. "Report" xəbər verir ki, bunu BMT-də Afrikaəsilli İnsanlar üzrə Daimi Forumun üzvü Cun Sumer (June Soomer) jurnalistlərə açıqlamasında deyib.**




"Boneyra xalqına öz müqəddəratını təyin etmək imkanı verilməsi üçün mübarizə aparmaq məqsədilə Bakıda olmaq mənə xoşdur. Bakı Təşəbbüs Qrupu ilə bu istiqamətdə çalışmaq olduqca önəmlidir. Çünki Boneyra xalqını öz ölkələrində vətəndaş kimi azad yaşamaqdan məhrum ediblər. Dünyanın bu adada baş verənlərdən xəbərdar olması üçün böyük tədbirlərin keçirilməsi mütləqdir", - o qeyd edib.

C.Sumer bildirib ki, müstəmləkəçilik, əsarət və onunla əlaqəli bütün məsələlər haqqında BMT-yə hesabat vermək onların mandatının bir hissəsidir: "Müstəmləkəçilikdən əziyyət çəkən ölkələrin müstəqilliyə aparılması üçün yeni təşəbbüslər olmalıdır və həmin təşəbbüslərin qiymətləndirməsini aparmalıyıq. Hazırda müstəmləkəçi ölkələrlə birbaşa əlaqə qurmuruq, yəni həmin ölkələrə getmirik, çünki Avropa dövlətlərinin müstəmləkəçiliklə mübarizə yolunda hansı addımları atdıqlarının qiymətləndirməsini aparırıq".

# *Boneyralı fəal:* "Səsimizi dünyaya çatdırmağa çalışırıq, əks təqdirdə yox olacağıq"

**Adamız Niderlandın müstəmləkəsinə çevrildi və bu, bir toplumun başına gələ biləcək ən pis şeydir. Məsələnin ən dəhşətli tərəfi isə heç kimin bundan xəbərdar olmamasıdır.**




"Report" xəbər verir ki, bunu Dəyişiklik üçün Boneyra Hərəkatının lideri Ceyms Fins (James Finies) Bakı Təşəbbüs Qrupunun (BTQ) ofisində jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, xalq kimi yox olmaq təhlükəsi ilə üzləşiblər:

"Bizi müstəmləkəçilərin həyata keçirdiyi siyasətlə idarə edirlər, bizim xalqımız üçün artıq demokratiya yoxdur. Onlar bizimlə bağlı qanunları dəyişir və bizi tam asılı vəziyyətə salırlar. Bu proseslər qarşısında xalqımız səsini çıxara bilmir, çünki etiraz etsələr, işlərini itirəcəklər və bu kimi bir sıra problemlər yaşayacaqlar. Bakıya problemi işıqlandırmaq üçün gələn bizlər bunu edə biləcək cəsarətli insanlar kimiyik və səsimizi dünyaya çatdırmağa çalışırıq. Əks təqdirdə yox olacağıq".

Hərəkat rəhbəri onlara Bakıda belə bir fürsət yaradıldığı üçün minnətdarlığını ifadə edib: "Bizə lazım olan tək şey etirazımızı bildirə biləcəyimiz platformadır. İnsanlar adamızda nə baş verdiyini bilməlidirlər. Onda başa düşəcəklər ki, biz niyə buradayıq və niyə beynəlxalq ictimaiyyətin köməyinə ehtiyacımız var".

# Azərbaycan ilə Rusiyanın əməkdaşlığının bəhrəsi olan "Şimal-Cənub" marşrutu bütün regionun iqtisadi inkişafına əlavə təkan verəcək

**Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana dövlət səfəri çərçivəsində bir sıra mühüm məsələlərlə yanaşı, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı məsələsi də müzakirə olundu.**




Əsası 2000-ci ildə keçirilən Sankt-Peterburq İqtisadi Forumunda Rusiya, Hindistan və İran tərəfindən qoyulan bu dəhliz Rusiya və Şimali Avropanı Cənub-Şərqi Asiya və Körfəz ölkələri ilə nəqliyyat baxımından birləşdirən beynəlxalq əhəmiyyətli layihədir. Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan 2005-ci ildə bu layihəyə qoşularaq, tranzit ölkə funksiyasını yerinə yetirmək istiqamətində mühüm addımlar atıb. Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişindən tutmuş, Ələt-Astara magistral avtomobil yolunun və Bakı Beynəlxalq Dəniz Limanının modernləşməsinə qədər həyata keçirilən işlər yüklərin Azərbaycan ərazisindən tranzit olaraq daşınması üçün əlverişli imkanlar yaradıb.

Məsələnin mahiyyəti ondan ibarətdir ki, Cənub-Şərqi Asiya ölkələrindən Avropaya yük daşıyan gəmilər Süveyş kanalından keçməklə 16 min kilometr yol qət edirlərsə, "Şimal-Cənub" dəhlizi ilə cəmi 7200 kilometr yol gedəcəklər. Yüklər 60 gün ərzində deyil, 30 gün ərzində mənzilbaşına çatdırılacaq. Bununla yanaşı, nəqliyyat xərcləri də 40 faiz azalacaq.

Azərbaycan "Şimal-Cənub" dəhlizi layihəsinə qoşulmaqla, ilk növbədə, özünün həm Rusiya, həm də İranla quru sərhədinin əlverişli coğrafi xarakteristikasından səmərəli şəkildə faydalanaraq üçtərəfli regional əməkdaşlığı inkişaf etdirmək və mövcud şəraitdən bəhrələnmək, yeni dividendlər qazanmaq istəyir. Bundan başqa, Azərbaycan gələcəkdə bu istiqamətdə qonşu Gürcüstanın ərazisini və kommunikasiyalarını da işə salmaqla "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin inteqrasiyasını sürətləndirməyi nəzərdə tutur.

Bundan başqa, xüsusi qeyd olunmalıdır ki, "Şimal-Cənub" marşrutu Azərbaycan, İran və Rusiya ərazilərində dəmir yolu əlaqələrinin, həmçinin bu ölkələrin tranzit və iqtisadi potensialının gücləndirilməsinə xidmət edəcək, beynəlxalq yüklərin bu istiqamətə daha çox miqdarda axınına təkan verəcək. Azərbaycanın bu dəhlizdən gözləntiləri xüsusilə çoxdur. Proqnozlar göstərir ki, tam gücü ilə fəaliyyət göstərəcəyi təqdirdə, bu dəhliz Avropa ölkələrinin, Rusiyanın, Mərkəzi Asiya və Qafqaz regionlarının Körfəz ölkələrinə və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaq. Həmin dəhliz Avropa, Cənubi Asiya və Yaxın Şərq arasında dəmir yolu daşımalarını, müvafiq olaraq dəmir yolunun istər yerli, istərsə də tranzit daşımalarından əldə etdiyi gəlirləri artırmağa imkan verəcək.

Rusiyanın "Roskonqres" Fondunun analitiklərinin hesablamalarına əsasən, 2022-ci və 2023-cü illər ərzində dəhlizlə yükdaşımalar 18 faiz artaraq 19 milyon tondan 22,6 milyon tona çatıb. Yükdaşımaların həcminin 2030-cu ildə 30, 2035-ci ildə isə 35 milyona çatacağı gözlənilir.

Qeyd etmək lazımdır ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsasını təşkil edən Qəzvin-Rəşt-Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu istismara verildikdən sonra yükdaşımaların həcmi daha da artaraq tranzit ölkələrin gəlirlərinin də çoxalmasına səbəb olacaq. Yüklərin Hindistanın Mumbay limanından İranın Çabahar limanına, oradan isə Qəzvin-Rəşt-Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu ilə Rusiya və Avropaya daşınması nəzərdə tutulub. Bu yolun Qəzvin-Rəşt hissəsi artıq fəaliyyət göstərir. Rəşt-Astara hissəsində isə işlər davam edir. Rusiya dəmir yolunun Rəşt-Astara (İran) - Astara (Azərbaycan) hissəsinin tikintisi üçün İrana 13,5 milyard avro güzəştli kredit ayırıb.

Diqqətə çatdırılmalıdır ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi iqtisadi səmərə ilə yanaşı, həm də siyasi əhəmiyyətə malikdir. Dəhlizin keçdiyi ölkələr tranzit gəlirlər əldə etməklə həm də siyasi sabitliyin dayanıqlığına nail olacaqlar. Azərbaycan ilə Rusiyanın qarşılıqlı faydalı əməkdaşlığı nəticəsində fəaliyyət göstərən bu dəhliz yalnız iki ölkənin deyil, bütün region dövlətlərinin iqtisadi inkişafına əlavə təkan verəcək.

***AZƏRTAC***

# Bakıda "Black and Caspian Freight Forum 2024: dəhlizlər, yüklər, infrastruktur" konfrans-sərgisi keçiriləcək

**Bakıda 3-cü Beynəlxalq "Black and Caspian Freight Forum 2024: dəhlizlər, yüklər, infrastruktur" konfrans və sərgisi keçiriləcək.**

Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyasından (ABADA) AZƏRTAC-a bildirilib ki, sentyabrın 17-dən 19-dək keçiriləcək tədbir Qara və Xəzər dənizlərinin logistika bazarının ekspertləri üçün təşkil edilən platforma rolunu oynayır. Məqsəd regionda logistika şirkətlərini və yük sahiblərini Qara və Xəzər dənizi ölkələrinin ərazilərindən keçən nəqliyyat dəhlizlərindən fəal istifadə etməyə cəlb etməkdir. Bütün bu dinamika yeni xidmətlərin, marşrutların və infrastrukturun inkişafına təkan verir. Həmçinin tədbir beynəlxalq nəqliyyat sənədlərinin, dəhlizlərinin və marşrutlarının sadələşdirilməsi və rəqəmsallaşdırılması üzrə dövlətlərarası müqavilələrin bağlanmasını stimullaşdırır, vahid pəncərə mexanizminin yaradılmasını və təkmilləşdirilməsini sürətləndirir.

Konfrans zamanı Avropa və Asiyadan olan bazar iştirakçıları ilə tendensiyaları və praktiki halları müzakirə etmək, habelə digər logistika mütəxəssisləri ilə yeni inkişaf yolları, yeni tərəfdaşlar və müştərilərlə ünsiyyət imkanı yaranacaq.

Tədbirdə 22 ölkədən 100 şirkəti təmsil edən 180-dən çox nümayəndə, ümumilikdə isə 250-dən çox qonağın iştirakı gözlənilir.




# AZERBAIJAN COP29

## Yaşıl dünya naminə həmrəylik ili 2024






# Aqrar sektorun da COP29-dan gözləntisi çoxdur

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) bir çox məsələlərlə yanaşı, kənd təsərrüfatına da diqqət yetirəcək. Qlobal konfrans elmi-tədqiqat institutlarını, qeyri-hökumət təşkilatlarını və yerli icmaları bir araya gətirərək, aqrar bölmədə iqlim dəyişmələrinin təsirinin azaldılması üçün innovativ yanaşmaları müzakirə edəcək.**

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev bir müddət öncə sessiya ilə əlaqədar təqdimat mərasimində bildirmişdi: "Tədbirin proqramı təkcə maliyyə məsələləri ilə məhdudlaşmayacaq. Burada bir çox mövzularla yanaşı, "yaşıl kənd təsərrüfatı" və ərzaq təhlükəsizliyi mövzuları da gündəlikdə olacaq".

Məlumdur ki, aqrar sektor qlobal iqlim dəyişmələrinin fəsadlarına məruz qalan ən həssas sahələrdən biridir. İqlim dəyişmələri torpağın məhsuldarlığına, məhsul istehsalına, su təchizatına böyük təsir edir. Ona görə də ölkəmizdə "yaşıl enerji"yə keçid, "yaşıl kənd təsərrüfatı"na dəstək üçün dövlət proqramları həyata keçirilir. Bu proqramlar çərçivəsində "yaşıl kənd təsərrüfatı"na keçid üçün fermerlər arasında maarifləndirmə işi aparılır, "yaşıl kənd təsərrüfatı"nın faydaları izah edilir.

Bundan başqa, Azərbaycanda aqrar sektorun iqlim dəyişmələrinə qarşı dayanıqlığını təmin etmək üçün bir neçə isqiqamətdə strategiyalar tətbiq olunur. İqlimə uyğun torpağın qorunması, sudan səmərəli istifadə, növbəli əkinçilik, üzvi gübrələmə kimi təcrübələrdən davamlı istifadə torpağın eroziyasını azaldır, suyun israfını minumuma endirir və məhsuldarlığı artırır. Bir fakt: növbəli əkinçilik eyni torpaq sahəsində müxtəlif bitkilərin ardıcıl şəkildə əkilməsini nəzərdə tutur ki, bu da torpağın daha sağlam və məhsuldar olmasına kömək edir. Bəzən isə fermer becərmədən düzgün istifadə etməyəndə əks-nəticə ilə üzləşməli olur. İqtisadçı ekspert Akif Nəsirli deyir ki, kənd təsərrüfatı ilə məşğul olan insanlara bitkiyə azotu normadan artıq vermək lazım olmadığını, hansı dövrdə verilməli olduğunu izah etmək lazımdır: "Tərəvəz və bostan bitkilərinin məhsuldarlığını artırmaq üçün azot gübrələrindən daha geniş istifadə olunur. Doğrudur, bu gübrələr bitkinin böyüməsində, məhsuldarlığın artmasında böyük rol oynayır. Amma həmin tərəvəzlərdən istifadə edənlərin sağlamlığı təhlükə altında olur. Buna görə də təlimlər keçirib onlara torpaqdan, gübrələrdən düzgün istifadə qaydalarını başa salmaq lazımdır. Azot bitkinin vegetativ orqanlarının inkişafı üçündür. Bu gübrəni çiçək dövrünə qədər vermək lazımdır. Həmin dövrdən sonra bitkiyə azot vermək cinayətdir. Torpağın kaliuma, fosfora olan tələbatını ödəmək lazımdır. Torpağın güclənməsi üçün ona orqanik peyin verilməlidir".

Bu deyilənlər təbii ki, iqlim dəyişmələrinin mənfi təsirlərini azaltmaq və kənd təsərrüfatı sektorunun dayanıqlığını artırmaq üçündür. Amma iqlim dəyişikliyi ilə mübarizə və kənd təsərrüfatının dayanıqlığının artırılması yalnız qlobal ərzaq təhlükəsizliyini təmin etmək üçün deyil, həm də kənd təsərrüfatı ekosistemlərinin qorunması və kəndlinin rifahının yüksəlməsi üçün də əhəmiyyətlidir. COP29-da bu cür tədbirlərin dəstəklənməsi və ardıcıl yerinə yertirilməsi üçün müvafiq qərarların qəbul edilməsi gözlənilir.

Başqa bir məsələ. Aqrar sektorda suvarmadan düzgün istifadə etməklə iqlim dəyişmələrinin fəsadlarına "qalxan" tutmaq mümkündür. Damcı üsulu ilə suvarma sistemləri, yağış suyunun yığılması, su ehtiyatlarının bərpası kimi texnologiyalar və təcrübələrin tətbiqini genişləndirmək dövrün tələbidir. Bu üsullar suyun bitkinin birbaşa köklərinə çatdırılması ilə israfı azaldır və su resurslarının səmərəli istifadəsini təmin edir. Yağış suyunun yığılması isə su qıtlığı olan bölgələrdə su ehtiyatlarının artırılmasına əməlli-başlı yardımçı olur. Onu da bildirək ki, quraqlığa davamlı bitkilər iqlim dəyişmələrinə "müqavimət" göstərir və bu, su qıtlığı olan bölgələrdə məhsul istehsalını davam etdirməyə imkan verir. "Yaşıl kənd təsərrüfatı" həm "yaşıl enerji"dən, həm də kimyəvi gübrələrdən normasında istifadə etmək, daha çox təbii gübrələrə üstünlük vermək deməkdir. Aqrar sektora "yaşıl enerji"ni düzgün tətbiq etmək məhsuldarlığın artmasında böyük rol oynayır.

Bütün bunlardan sonra belə qənaətə gəlmək mümkündür: COP29-un Azərbaycanda aqrar sektorun qabaqcıl beynəlxalq təcrübələrə, texnoloji mübadilə və innovasiyalara uyğunlaşdırılmasında mühüm rolu olacağı şübhəsizdir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# *Elnur SULTANOV:* "Azərbaycan COP29-da bütün dünyaya atəşkəslə bağlı çağırış edəcək"



**Azərbaycan COP29-da bütün dünyaya atəşkəslə bağlı çağırış edəcək.**

"Report" xəbər verir ki, bunu Azərbaycan energetika nazirinin müavini, bu ilin noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) baş katibi Elnur Sultanov Türkiyənin "Anadolu" agentliyinə müsahibəsində deyib.

O bildirib ki, COP29-un əsas mövzusu iqlim dəyişikliyi olacaq: "Həmçinin inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə daha çox dəstək göstərməsi də COP29-un gündəliyində olacaq. İqlim dəyişikliyi ən çox Afrikaya təsir edir".

E.Sultanov xatırladıb ki, Ermənistan da COP29-a dəvət edilib: "Təxminən 80 min qonağımız olacaq. Dünyanın bütün prezidentlərinə dəvət göndərilib. 50-dən çox dövlətdən nazirlər gələcək. Bu rəqəmin artacağı da gözlənilir. COP29 Azərbaycanın indiyədək evsahibliyi etdiyi digər bütün tədbirlərlə müqayisə edilməyəcək tədbir olacaq. İqlim müzakirələrinə liderlik edəcəyik. Azərbaycanın qonaqpərvərliyini ortaya qoyacağıq. COP-un uğursuz olma ehtimalı yoxdur".

# Ağstafaçay su anbarının ətrafı təmizliyə çıxmışdır

**2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar Qazax rayonunda da silsilə tədbirlər həyata keçirilir.**



Bu günlər rayon icra hakimiyyətinin təşkilatçılığı, rayon icra hakimiyyəti yanında Yerli Məşvərət Şurası üzvlərinin, Bakı Dövlət Universitetinin Qazax filialının, Qazax Dövlət Sosial-İqtisadi Kolleci tələbələrinin və gənc könüllülərin iştirakı ilə Cəfərli kəndi ərazisində - Ağstafaçay su anbarının ətrafında növbəti təmizlik aksiyası keçirilmişdir.

Aksiyadan əvvəl rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov gənclərlə görüşərək onlara bu nümunəvi təşəbbüslərinə görə minnətdarlığını bildirmişdir. O, iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədi ilə Prezident İlham Əliyevin 25 dekabr 2023-cü il tarixli sərəncamına əsasən Azərbaycanda 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsini yüksək dəyərləndirmiş və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsini əlamətdar hadisə adlandırmışdır.

Sonra zəruri geyim və sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları tərəfindən ərazi plastik və digər məişət tullantılarından təmizlənmiş, toplanmış tullantılar aidiyyəti üzrə təhvil verilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanda keçiriləcək COP29 - iqlim dəyişmələrinin qarşısıalınmaz fəsadları ilə mübarizədə yeni mərhələ

**İllər boyu iqlim dəyişmələri mövzusunu araşdıran alimlərin bir qismi bunun inkişaf etmiş ölkələr tərəfindən inkişaf etməkdə olan ölkələrdəki tərəqqinin sürətinin qarşısının alınması üçün ortaya atılmış boş fikir olduğunu iddia etsə də, digərləri iqlim dəyişmələrinin bəşəriyyət qarşısında duran ən ciddi problem olduğunu izah etməyə çalışıb. İqlim dəyişmələrinin həqiqətən də baş verdiyini iddia edən alimlərin fikrinə əsasən, problemin kökündə Yer kürəsinin karbon-dioksid ($CO^2$) və digər istilik effekti yaradan (parnik) qazların udulması potensialı durur. Bu nə deməkdir?**

Müxtəlif növ tərəvəz və bitkilərin yetişməsi üçün lazımi temperaturu yaradan istilikxanalar kimi, atmosferdəki qazlar da günəşdən gələn istiliyi tutub saxlayaraq planetimizdə bizim yaşamağımız üçün zəruri istiliyi yaradır. Alimlərin hesablamalarına əsasən, əgər atmosferdə bu qazlar olmasaydı, onda Yer kürəsində orta illik temperatur təxminən -19°C olardı. $CO^2$ və digər qazlar atmosferin üst qatlarında günəşdən gələn istiliyi tutub saxlamaqla bizi hədsiz istilikdən mühafizə edərək bir növ görünməz mühafizə zolağı yaradırlar. Beləliklə onlar dünyada insanların normal yaşaması və fəaliyyət göstərməsi üçün zəruri temperaturun formalaşmasında müstəsna rol oynayırlar. XX əsrin ortalarından etibarən sənayenin inkişafı və enerji əldə etmək məqsədilə üzvi maddələrin yandırılması nəticəsində atmosferdə $CO^2$ və digər istilikxana qazlarının həcmi sürətlə artıb. Bu da öz növbəsində günəş istiliyinin atmosferdə daha çox miqdarda saxlanmasına səbəb olur.

Atmosferdə sərhədlərin olmaması və $CO^2$-nin havada sərbəst hərəkəti, hətta yuxarıda adıçəkilən mənbələrin zəif inkişaf etdiyi və ya mövcud olmadığı yerlərdə temperaturun artmasına gətirib çıxarır. Bu da alimlər tərəfindən qlobal istiləşmə adlandırılır.

İqlim dəyişmələri insan inkişafına birbaşa təhlükədir. İqlim dəyişmələri dünyanın bütün ölkələrinə və hər kəsə təsir göstərir. Lakin dünyanın yoxsul insan təbəqələri iqlim dəyişmələrinə daha həssasdırlar. Onlar təhlükənin bir addımlığında dayanır və ona qarşı mübarizə aparmaq üçün çox az resursa malikdirlər. İqlim dəyişmələri Minilliyin İnkişaf Məqsədlərinə (MİM) nail olmaq yolunda müxtəlif əngəllər yaradır, ölkələr daxilində və dövlətlər arasında bərabərsizliyi artırır. Əgər məsələyə vaxtında diqqət yetirilməsə, iqlim dəyişmələri gələcəkdə nəinki zəif inkişaf etmiş ölkələri, hətta varlı ölkə və gələcək nəsilləri də ağuşuna alacaq. Sevindirici haldır ki, iqlim dəyişmələri problemi indi təkcə elmi cəmiyyəti deyil, adi insanları, hökumət nümayəndələrini və siyasətçiləri də narahat etməyə başlayıb.

Məsələ ilə bağlı Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun iqtisadiyyat və coğrafiya şöbəsinin müdiri, coğrafiya üzrə fəlsəfə doktoru Nəriman Paşayev "Report"a açıqlamasında deyib ki, Azərbaycan iqlim dəyişikliyinə qarşı böyük işlər görməlidir: "Qlobal iqlim dəyişikliyi insanların həyat və təsərrüfat fəaliyyətinə təsir göstərir. Əgər hansısa ərazidə quraqlıq yaranıbsa, digər ərazidə sel, daşqın, sürüşmə baş verir. İnsanlar isə buna uyğunlaşmağa cəhd göstərirlər. Hazırda dünyada qlobal quraqlıq hökm sürür".

Onun sözlərinə görə, COP29-un Azərbaycanda keçirilməsi iqlim dəyişikliyinə qarşı görüləcək işlərə təkan verə bilər: "İndiyədək ayrı-ayrı dövlətlərdə keçirilən COP tədbiri bu ilin noyabr ayında ölkəmizdə olacaq. Bu vaxtadək inkişaf etmiş ölkələr iqlim dəyişikliyinə qarşı mübarizə aparırdı. Biz də 2015-ci ildən sonra buna start verdik. COP29 Azərbaycan üçün böyük əhəmiyyətə malikdir. Bu tədbir sayəsində torpaq örtüyünün qorunması, geoloji müxtəlifliyin bərpası, su hövzələrinin yaradılması kimi proseslərə diqqət arta bilər. Sözsüz ki, bu da öz növbəsində insanların ətraf mühitə qarşı diqqət və qayğısını artıracaq. Bu məsələdə təkcə alimlərin, təbiəti mühafizə komitəsinin, ayrı-ayrı nazirliklərin deyil, hər kəsin düşüncəsində dəyişiklik yaranacaq".

Coğrafiyaşünas alim iqlim dəyişikliyinin fəsadlarının Azərbaycanda aydın görülə bildiyini deyib: "İqlim dəyişikliyinin Azərbaycana ən böyük təsiri Xəzər dənizi ətrafında baş verib. Yəni Samurdan Astara çayına qədər ərazidə dəniz ən azı iki yüz metr geri çəkilib. Hətta həmin ərazidə dənizin elə yerlər var ki, orada üç yüz metr geriçəkilmə müşahidə olunur. Quraqlığın gətirdiyi fəsadları Azərbaycanda aydın görmək mümkündür. Kür çayında da suyun azalması müşahidə olunurdu. Amma bu il yağıntıların çoxluğu suyun səviyyəsini bir az artırıb".

N.Paşayev Paris Sazişinin müddəalarına əməl olunmalı olduğunu bildirərək əsas məqsədin 1,5°C hədəfini əlçatan səviyyədə saxlamaq və heç kəsi, əsasən də COP-un iştirakçı ölkələrini diqqətdən kənarda qoymamaq olduğunu söyləyib: "Ətraf mühit həddindən artıq çirklənib. Bu da istilik temperaturunun qalxmasına səbəb olur. Arktika, Antarktika, Qafqaz buzlaqları artıq əriyir. Bu səbəbdən Paris Sazişinin Azərbaycan üçün böyük əhəmiyyəti var. Əslində dünyada atılan hər bir tullantı, karbon emissiyası uzunömürlülüyün qarşısını alır. Dünyada 230-dan çox ölkə var. Onlar düşünməlidirlər ki, dünya vahiddir. İndiyədək 28 belə konfrans reallaşıb. İndi də Azərbaycanda keçirilir. COP tədbirləri göstərir ki, hər kəs öz ərazisini qayğı ilə qorumalıdır. Çirklənmələrə qarşı birgə mübarizə aparılmalıdır. Biz də Paris Sazişini dəstəkləyib öhdəlik götürmüşük. 2030-cu ilə qədər çirklənməni, tullantıların sayını azaltmalıyıq. Bu azalmanı ən azı 35 faiz bacarmaq lazımdır. Bunlar isə çox böyük işlərdir. Uzun tədqiqat, zəhmət tələb edir".

Şöbə müdiri COP29-un ən mükəmməl işlərindən birinin alternativ enerjiyə keçid olacağını deyib: "Azərbaycanda neft-qaz geniş istifadə olunur. Bəzi ölkələrdə isə kömürdən istifadə edilir. Lakin bunlar tükənir. Bu səbəbdən alternativ enerjiyə keçmək lazımdır. Paris Sazişinin əsas məqsədindən biri həm də dünyada tükənməyən enerjiyə keçməkdir. Tükənməyən enerji dedikdə günəş, külək, su, qabarma və çəkilmə enerjisi və s. nəzərdə tutulur. Bu enerjilər ətrafı çirkləndirmir və tükənmir. Temperaturu 1,5°C-də saxlamaqdan əlavə, bacardıqca minimuma endirmək lazımdır. Siz təsəvvür edin temperatur iki dərəcə qalxsa, bütün Avropa suyun altında qala bilər. Bu məsələ dünyada hamını maraqlandırmalıdır. Azərbaycanın götürdüyü öhdəliyə əsasən, 2030-a qədər alternativ enerjidən 30 faiz istifadə olunmalıdır. Hazırda bu göstərici yeddi-on faizdir. Naxçıvanda və Qarabağda isə alternativ enerji istifadəsini maksimala, yəni 80 faizə qədər qaldıra bilərik".

N.Paşayev vurğulayıb ki, qlobal temperaturun sabit saxlanılması çirklənmənin azalmasından asılıdırsa, Azərbaycanda yenidən emal müəssisələrinin sayının artırılması mütləqdir: "Bütün istehsal müəssisələrində ətraf mühitə atılan tullantılar minimuma endirilməlidir. Buna aid böyük təlimlər keçirilməlidir. Bakı şəhərində cəmi bir tullantıların emalı zavodu var. Hər gün evlərdən zibil dediyimiz, amma xammal olan tullantılar çıxarırıq. Onların hamısı istehsala cəlb olunmalıdır. Biz isə xammalı ya basdırırıq, ya yandırırıq, ya da atırıq. Dünyada xammal çatışmazlığı yaşanır. Biz isə onu məhv edirik. Özümüzün tələbatını ödəmək üçün hər rayonda ən azı bir tullantıların yenidən emalı zavodu olmalıdır. Həmin zavodların sayəsində tullantılar yenidən emal edilməlidir. COP29 bu baxımdan dünyada yeni iş yerlərinin yaradılmasına zəmin yaradacaq".

# COP29 Azərbaycan Əməliyyat Şirkəti "Daily Show" verilişini təqdim edir

**COP29 Azərbaycan Əməliyyat Şirkəti Bakıda keçiriləcək COP29 iqlim konfransı zamanı qlobal müstəvidə yayımlanacaq gündəlik televiziya proqramını təqdim edir. Verilişdə qlobal auditoriya üçün gündəlik COP hadisələrinin xülasəsi təqdim olunacaq. Məqsəd konfransla bağlı məlumatların əlçatanlığını təmin etməkdir.**




AZƏRTAC xəbər verir ki, veriliş COP29 konfransı boyu tədbirin məkanı olan Bakı Stadionundakı studiyadan yayımlanacaq. Verilişin yayımı televiziya şirkətləri, onlayn videoyayım platformaları və COP29-un rəsmi kanalları vasitəsilə həyata keçiriləcək. "Daily Show" müsahibələr, ekspert təhlilləri və konfransa dair digər məlumatları əhatə edəcək. Veriliş tamaşaçılarda COP konfransına fərqli baxış bucağını təmin edəcək.

COP29-un müəyyən edilmiş Prezidenti Muxtar Babayev verilişin mahiyyəti ilə bağlı bunları qeyd edib: "Dünyada iqlim dəyişmələrinin təsirləri daha çox hiss olunduqca, informasiyaya tələbat da artır. Biz havanın artan temperaturu və bu problemin həlli ilə bağlı artan narahatlıq fonunda iqlim fəaliyyətlərini qlobal auditoriyaya daha aydın və anlaşılan formatda çatdırmaq istəyirik. Gündəlik veriliş bu məqsədimizə çatmağa xidmət edən addımlardandır".

"Daily Show" verilişi yüksəkkeyfiyyətli yayımların təşkilində zəngin təcrübəyə malik Böyük Britaniyanın "Hi Impact" media şirkəti tərəfindən hazırlanacaq. Verilişin daha geniş auditoriyanı əhatə etməsi üçün COP29 Əməliyyat Şirkəti layihə üzrə tərəfdaşlıq imkanları da qiymətləndirib. "Daily Show" layihəsində tərəfdaşların müəyyən edilməsi üçün seçim prosesi sentyabrın sonunadək davam edəcək. Seçim nəticələrinə dair qərar COP29 Sədrliyi və UNFCCC tərəfindən veriləcək. Layihəyə tərəfdaş qismində müraciət forması və ətraflı məlumat COP29-un rəsmi veb-saytında əks olunub.

## Jurnalist araşdırması

***Son dövrlərdə məktəbli, yeniyetməlik çağında olan uşaqlarda aqressiya hallarının artdığını müşahidə edirik. Onların ailə üzvlərinə qarşı kobud davranış sərgiləmələri, məktəbdə, küçədə həmyaşıdlarına, yaxud özlərindən kiçik və ya böyük uşaqlara güc tətbiq etmələri, qəddar cəza üsullarına əl atmaları, hətta bu hərəkətləri ilə öyünərək çəkib paylaşmaları və bu kimi tez-tez rastlaşdığımız digər xoşagəlməz hallar hər bir valideyndə, ümumiyyətlə cəmiyyətimizdə böyük narahatlıq və təşviş yaradır.***

***Bəs övladlarımız niyə aqressivdir? Onları belə davranışlara vadar edən səbəblər hansılardır? Uşaqların psixoloji sağlamlığının pozulmaması üçün nələrə diqqət yetirilməlidir?***

***Mövzu ilə bağlı suallarımızı bu sahə üzrə ölkənin ən peşakar mütəxəssislərindən olan həkim psixiatr, tibb elmləri üzrə fəlsəfə doktoru İkram Rüstəmov cavablandırır.***



# Övladlarımız niyə aqressivdir?



**Psixiatr İkram Rüstəmov:**

- İnsanın istər fiziki, istər psixi problemlərinin əksəriyyətinin altında müxtəlif genetik amillər dayanır. Şüa, radiasiya, qida kimi genetikaya təsir edən, onu pozan amillər, üç-dörd nəsil sonra belə, nəvə-nəticələrdə müxtəlif problemlərə gətirib çıxara bilər, o cümlədən aqressiyaya.
- Valideyn münasibətlərinin pozulması, ata-ananın bir-birinə dözümsüzlüyü, yola gedə bilməməsi o evdə böyüyən uşaqların hövsələsiz, aqressiv olmalarına gətirib çıxarır. Bir başqa məqam isə maddi məsələlərin ön plana keçməsi ilə əlaqədardır. Artıq biz böyüklərin məişət problemləri o qədər artıb ki, uşaqlara verdiyimiz emosiya, onlara ayırdığımız vaxt, keçirdiyimiz zaman keyfiyyətsiz olub.
- Adətən valideynlərin "bizim vaxtımızda belə deyildi", "biz də uşaq olmuşuq" kimi övladlarına dedikləri sözlər var. Amma hər dövrün tələbləri başqadır. Hər dövrdə dəyişməyən tək gerçəklik var ki, uşaq yetişdirərkən iki təməl amil vacibdir: biri sevgidir, digəri güvən.

### İlk səbəb

"Niyə uşaqlarımız aqressivdir?" sualının birmənalı cavabının olmadığını söyləyən psixiatr İkram Rüstəmovun fikrincə, nəinki uşaqlarımız, ümumiyyətlə dünyadakı insanlar zaman içində müəyyən qədər aqressivləşiblər və bunun müxtəlif səbəbləri var. İnsanın aqressiv, hövsələsiz olmasının birinci səbəbi genetik - bioloji amillərlə bağlıdır: "Çünki hər sosial problem yaşayan, hər gərgin adam aqressiv olmur. Psixoloji nöqteyi-nəzərdən baxanda bunu iki hissəyə bölürük: intravert və ekstravert insanlar. Birincilər emosiyalarını daha çox çölə əks etdirirlər, daha çox aqressiv görünürlər. İkincilər isə bu gərginliyi (düzdür zaman-zaman onlar da aqressiya göstərə bilərlər) əsasən, xalq dilində desək, ürəyə salaraq, daha çox təşviş, qorxu, stress dolu vəziyyət kimi yaşayırlar".

Psixiatr vurğulayır ki, ümumiyyətlə, insanın istər fiziki, istər psixi problemlərinin əksəriyyətinin altında müxtəlif genetik amillər dayanır. Şüa, radiasiya, qida kimi genetikaya təsir edən, onu pozan amillər, üç-dörd nəsil sonra belə, nəvə-nəticələrdə müxtəlif problemlərə gətirib çıxara bilər, o cümlədən aqressiyaya: "Bu yaxınlarda Cənab Prezident qohum evliliklərini qadağan edən çox önəmli bir qanun imzaladı. Nəzərə alaq ki, yaxın genetik strukturu olan insanlardan doğulan uşaqlarda xəstəliklərin artma riski daha yüksəkdir. Bu, müəyyən dərəcədə həmin problemlərin azalmasına gətirib çıxaracaq önəmli qanundur".

### Nə yeyiriksə, oyuq

İkram Rüstəmov məlumat verdi ki, sosial faktorlar aqressiyanı yaradan başlıca səbəblərdəndir: "İnsan sosial varlıqdır. Bu baxımdan nəzərə alsaq ki, son zamanlar sosiallığımız azalır, bir az yalnızlaşırıq, özümüzə qapanırıq və bunların hamısı müəyyən dərəcədə aqressiv duruma, duyğularımızı kontrol edə bilməməyimizə gətirib çıxara bilir. Sosial faktorlar arasında texnologiya, sosial şəbəkələr böyük yer tutur. Eyni zamanda qidanı misal göstərmək olar. Əvvəlki dövrlərə nisbətən hazırda təbii, üzvi qidalarla qidalanmada ciddi azalma var. Günümüzdə daha çox paketləşdirilmiş qidalardan istifadə olunur. Düşünürəm ki, bunun da aqressiyanın yaranmasında müəyyən dərəcədə təsiri var. Belə bir söz də var ki, "nə yeyiriksə, oyuq".

Psixiatr bildirdi ki, cəmiyyətimizdə çox sıx qarşılaşılan ailəiçi münasibətlərdə pozulmalar da xüsusi aqressiya yarada bilir: "Tutaq ki, valideyn münasibətlərinin pozulması, ata-ananın bir-birinə dözümsüzlüyü, yola gedə bilməməsi o evdə böyüyən uşaqların hövsələsiz, aqressiv olmalarına gətirib çıxarır. Bir başqa məqam isə (bu bir az bəlkə də yeni iqtisadi sistemin gətirdiyi bir xüsusiyyətdir) maddi məsələlərin ön plana keçməsi ilə əlaqədardır. Artıq biz böyüklərin məişət problemləri o qədər artıb ki, uşaqlara verdiyimiz emosiya, onlara ayırdığımız vaxt, keçirdiyimiz zaman keyfiyyətsiz olub. İstər-istəməz bunun da uşaqların gərginləşməsində, narahatlığında artırıcı rolu var".

### Yeniyetməlik dövründə bu xaos çox yaşanır

"Uşağın inkişafında problem olan iki dövr var. Biri "iki yaş dövrü"dür, digəri yeniyetməlik", - deyən həkim məlumat verdi ki, keçid dövrü olduğu üçün həmin dönəmlərdə fiziki inkişafla psixi inkişafın balansı pozulur. Məsələn, "iki yaş sindromu" çağalıqdan uşaqlığa keçid dövrüdür. Yeniyetməlik isə uşaqlıqdan böyüklüyə keçid dövrüdür. İqlimə, genetikaya görə yeniyetməlik yaşı dəyişə bilər, bu, hamıda eyni olmur, amma ümumi standartlaşdırılmaya görə 11-22 yaş yeniyetməlik dövrü sayılır.

Psixiatr İkram Rüstəmov izah etdi ki, insanın başqasına və özünə zərər vermək davranışı həddi aşan davranışdır: "İnsan psixikası inkişaf edərkən "super eqo" adlandırılan məfhum var - vicdanımızı, əxlaqımızı, cəmiyyət qanunlarını, daxili instiktlərimizi, hisslərimizi, duyğularımızı bir mənada nəzarət edən beyin və ya psixika mexanizmi. Kimin "super eqo"su zəifdirsə (xüsusilə, yeniyetməlik dövründə bu xaos çox yaşanır), onun psixikasında müəyyən boşluqlar yaranır. Hətta normal inkişaf edən yeniyetmədə də müəyyən dərəcədə "super eqo" formalaşmağa başlayır Buna bağlı bəzi həddi aşmaları görə bilirik. Amma bir insan - uşaq və ya böyük olsun, özünə yaxud başqasına həddi aşacaq zərər verirsə, artıq bu halda "uşaq stres keçirdi, belə oldu" yanaşması doğru deyil".

Mütəxəssis bildirir ki, burada psixi pozuntudan söhbət gedir. Buna görə onun altında yatan səbəbləri araşdırmaq lazımdır ki, bioloji faktorlarmı, psixi xəstəlikmi, müxtəlif psixi travmalarmı var və ya bu sosial problemlərləmi bağlıdır: "Amma heç zaman səbəb təkbaşına olmur, çoxmənşəli olur. Yeri gəlmişkən, deyim ki, müasir tibbdə multidisiplinar yanaşma deyilən bir məfhum var. Konsiliumlar keçirilir, həkimlər ortaq qərara gəlirlər. Hər bir pasiyentə fərdi yanaşma olur. Ona görə təbabətdə bizə dərs keçəndə də deyirdilər ki, "xəstəlik yoxdur, xəstə var. Hər xəstənin problemi fərdi olduğu kimi, müalicəsi də fərdidir".

### Zəmanənin mənfi təsirləri

Belə bir məşhur deyim var ki, uşaqlar valideynlərindən daha çox zəmanəyə oxşayırlar. Bəs bu deyimdə həqiqət payı nə qədərdir?

İkram Rüstəmov bildirdi ki, birmənalı olaraq zəmanənin həmin zəmanədə yetişən hər kəsə təsiri var: "İnsan yaşamında onun daxili dünyası, ənənəsi, görüb-götürdüyü sosial məsələlər, yetişdiyi ailə, mədəniyyət, hansı cəmiyyətdə böyüməsi çox önəmlidir. Tutaq ki, bir azərbaycanlı müəyyən yaşdan sonra Amerikada, Fransada, İngiltərədə və digər ölkələrdə gedib yaşadığı zaman heç vaxt amerikanlaşa, fransızlaşa... bilməz. O, ömrünün sonuna qədər azərbaycanlılığını qoruyub saxlaya biləcək. Həmin mühitə uyğunlaşan isə onun orada doğulan övladları olacaq. Bu uşaqların genetikası azərbaycanlı ola bilər, amma əsasən ya fransız, ya amerikan, ya ingilis... olacaq. Bu mənada hamımız zəmanə uşağıyıq. Yaxud, 10-12 yaşı olan zaman məcburi köçkün düşmüş bir uşağı götürək. Həmin yaşdakı o uşaqla, indi 30-40 yaşına çatmış "uşaq" eyni deyil. Yəni onun oradakı psixologiyası, həyata baxışı - yaş, təhsil fərqini nəzərdə tutmuram - mühitin təsiri ilə formalaşır. İndi yenidən qayıdıb o mühitə düşsə, bəlkə də özünü yad kimi hiss edəcək. Düzdür, həmin vaxtdan qalan hisslər, xatirələr adaptasiyasını asanlaşdıra bilər, o vaxt bir yerdə olduğu məhəllə, sinif uşaqları ilə, dost-tanışlarla bir araya gələndə, o dönəmin bir nostalgiyası paylaşılır. Amma o da həqiqətdir ki, artıq onlar fərqli dünyanın insanlarına çevriliblər. Bu misalların timsalında da deyirəm ki, zəmanə birmənalı şəkildə insanın formalaşmasına təsir göstərir. Yuxarıda da vurğuladığım kimi, hazırda yaşadığımız zəmanənin problemlərinin də uşaqlarımızın aqressiv olmasında böyük rolu var".

### Yerindən duran psixoloq olanda...

Aqressiyası olan uşaqlar psixoloqa, yoxsa psixiatra aparılmalıdır? Bəzən valideynlər bununla əlaqədar çaşqınlıq yaşayırlar.

"Hazırda cəmiyyətimizdə yerindən duran psixoloq olduğu üçün, əslində bu məsələ çox müzakirə olunan mövzudur", söyləyən İkram Rüstəmov deyir ki, insan hər zaman psixi problem yaşayır. Psixi problem o zaman psixi pozuntu halını alır ki, bu həddi aşır. Həddi aşmaq insanın gündəlik həyat keyfiyyətini, işgörmə qabiliyyətini pozur və artıq bu, psixi pozuntu səviyyəsinə gəlib çatmaq deməkdir: "Bir insanın həyat keyfiyyətində psixi mənada pozuntu varsa, bu, psixoloq yox, məhz psixiatr və ya uyğun durumda klinik psixoloq tərəfindən dəyərləndirilə bilər. Əgər qərar verilsə ki, bu tibbi pozuntudur, təbii ki psixiatrik tərəfdən müalicə edilməlidir. Yox, əgər psixososial məsələlərlə bağlıdırsa, psixoterapiyalar, müxtəlif psixolojik yanaşmalarla klinik psixoloqlar da problemi yoluna qoya bilərlər. Amma hansısa bakalavr məzunu olan psixoloqun hər hansı psixoloji problemçözmə bacarığı və səlahiyyəti yoxdur".

Həkim bildirir ki, 10-15 il əvvələ nəzərən, hazırda valideynlər uşaqlarını daha rahat şəkildə psixiatr yanına gətirirlər: "Əvvəllər pasiyent yanıma gələndə deyirdi ki, "doktor, psixiatr olduğunuzu deməyin, deyin ki, nevropotoloqam". İndi tam əksinə, yanıma gələndə deyirlər ki, "məsləhət gördülər ki, nervpotoloqa gedim, amma araşdırıb gördüm ki, psixiatr yanına getməliyəm". İnsanlarımızın, ümumilikdə isə dünyadakı insanların hamısının psixiatriyaya bir damğalı baxışı var. Bizdə bunun təməli Sovet İttifaqı zamanı qoyulub. Belə ki, sosialist ideologiyası deyirdi ki, "bizim ölkəmizdə ruhi xəstə yoxdur". Ona görə bir çox psixiatrik xəstəxana şəhərdən kənarda açılırdı, bu işlə məşğul olan adamlar "dəli həkimi" adlandırılırdı və sair. İndiki dövrdə bir az "müasirləşərək" müəyyən dərəcədə təfəkkürümüz dəyişib, amma bu fikir tam yox olmayıb..."

### Sevgi və güvən

Mütəxəssis analizlərinə əsasən aydın oldu ki, uşaqlarımızın aqressiv olmasına bir çox amillər səbəb olur. Onların arasında ailə, valideyn münasibətlərinin özünü qabarıq göstərməsi isə elə uşaqların aqressiyası qədər təhlükəli və diqqətolunası problemdir.

"Adətən valideynlərin "bizim vaxtımızda belə deyildi", "biz də uşaq olmuşuq" kimi övladlarına dedikləri sözlər var. Amma hər dövrün tələbləri başqadır. Bir valideyn heç zaman özü də həmin yaşı keçdiyinə görə övladını tam anlaya bilməz. Düzdür, bəzi ortaq xüsusiyyətlər ola bilər, amma tam olaraq onu anlaması mümkün deyil. Övladı da heç vaxt tamamilə empatiya qurub valideynini anlaya bilməz", - deyən İkram Rüstəmovun fikrincə, hər dövrdə dəyişməyən tək gerçəklik var ki, uşaq yetişdirərkən iki təməl amil vacibdir: biri sevgidir, digəri güvən.

Psixiatr bildirir ki, valideyn övladını sevərkən, onunla münasibət qurarkən övladı əmin olmalıdır ki, ata-anası onu o olduğu üçün sevir. Nə yaxşı oxuduğu, nə tərbiyəli olduğu, nə hansısa pis vərdişlərinin olmadığı üçün yox. Həmin övlad sağlam ruh halı, sağlam psixologiya ilə yetişəcək. Burada söhbət sevgi hissini mənimsəməkdən gedir: "Etimad duyğusu da həmçinin. Övlad bilməlidir ki, ata-ana hər zaman onun arxasındadır. Nə olursa-olsun, başına nə gəlirsə-gəlsin, nə səhv edirsə-etsin hər zaman o güvəni yaşaya bilər. Etimad duyğusunu tam olaraq vermək çox önəmlidir. Zəmanə də, sosial faktorlar da dəyişsə, bu heç zaman dəyişmir. Sevgi və etimad təməlləri sağlamdırsa, digər problemlər aşılır".

### Xoşbəxt uşaq o ailədə yetişər ki...

Həkim vurğulayır ki, bəzən övlad-valideyn, istərsə də cütlük münasibətlərində problemlər qışqıraraq, bağıraraq, emosiya ilə həll edilməyə çalışılır: "Amma qlobal məsələlərdə olduğu kimi, cəmiyyətin ən kiçik modeli olan ailədə də problemləri ağılla, siyasətlə, soyuqqanlılıqla həll edə bilərik. Qorxu ilə bəzi məsələləri yoluna qoymaq olar, ancaq problemin kökündən həlli üçün daha ağıllı və soyuqqanlı olmaq lazımdır. Çox zaman valideynlər övladları ilə öz daxili dunyaları vasitəsilə münasibət qururlar. Misal üçün, kiməsə qıcıqlana bilərsən, amma bunun səbəbi onun şəxsi keyfiyyətləri və ya elədiyi hansısa bir hərəkətlə bağlı olmaya bilər. Tutaq ki, beynimdə o şəxsi 10 il əvvəl sözüm çəp gələn hansısa insana bənzədib ona uyğun qıcıqlanmış ola bilərəm. Valideynlər də bəzən uşaqları ilə bu cür yanlış, tamamilə özlərinin vaxtilə yaşadıqları "travma"ya uyğun davranırlar".

Söhbət əsnasında psixiatr valideynlərə tövsiyəsini də verdi: "Valideynlərin, yəni ata-ananın ailədə bir-birlərinə münasibətləri nə qədər qarşılıqlı hörmətə, sevgiyə, dözümlülüyə əsaslanarsa, o ailədə xoşbəxt uşaq yetişər və onun problemləri də daha asan həll olunar. Ona görə, ilk növbədə valideynlər bir-biriləri ilə münasibətlərini düzəltməli, əgər bunu bacarmırlarsa yardım almalıdırlar. Öz şəxsi problemlərinin fərqinə varmaq, özünütənqid də vacib amildir. Valideynlər bir az da özlərinə baxdıqdan, necə deyərlər, çuvalduzu özlərinə batırdıqdan sonra uşaqları ilə bağlı qərar verməlidirlər. İnsan daxilən eqoist olur. Hər zaman günahı qarşı tərəfin üzərinə atmağa çalışır. Bütün bunların fərqinə varmalıyıq. Burada zəka faktoru da çox önəmlidir. Bəzən insanın zəka səviyyəsi onu analiz etməyə və ya dərk etməyə yetmirsə, təbii ki, iş gəlib yenə də dağa-daşa düşəcək".

Psixiatr İkram Rüstəmov vurğuladı ki, problemləri böyütdükcə ondan çıxış yolları tapmaq da çətin olur. Buna görə də həyata daha pozitiv baxmaq - istər uşaqlarda olsun, istərsə də böyüklərdə fərq etməz - aqressiyanı da azaldar: "Hazırda dünyada psixososial mənada həddindən çox problemlər var və bu problemləri çözməyə, dünyanı "xilas" etməyə çalışan insanların sayı kifayət etmir. Bununla əlaqədar hər nə qədər içərimizdə pessimizm olsa da, həyata pozitiv baxmaq lazımdır. Çünki dünya özü insanın üstündə bir yükdür. Ətrafdakı insanlara baxın, hətta özünü ən xoşbəxt biri kimi təqdim etmək istəyənlərin belə problemləri var. Bu baxımdan dərd, sıxıntı, problem insanların həyatında çoxdur. Burada əsas məsələ odur ki, sən ona necə baxırsan. "Quran"da deyilir ki, "mən sizi imtahan üçün yaratdım". Yəni o mənada bu dünyaya kef çəkməyə gəlməmişik, kef çəkənimiz də yoxdur. Dünyaya pozitiv baxdığımız zaman pozitiv yaşayacağıq, nə qədər ki, problemləri böyüdəcəyik, o qədər də altında əziləcəyik..."

### Çıxış yolunu öncə özümüz tapmalıyıq

Əslində, bütün dünyada övladlar bir-birilərinə bənzəyirlər. Hamısı əsəbi, telefon aludəçisi, sosial şəbəkə asılısıdır...

Bir-biriləri ilə ünsiyyət qura birmirlər, bir-birilərini və valideynlərini anlamaqda çətinlik çəkirlər...

Amma bu problemlərdən çıxış yolu var. Övladlarımızı aqressiyadan uzaqlaşdırmaq üçün öncə özümüzdən başlamalıyıq.

Gəlin, özümüzü tam sağaldandan sonra övladlarımıza keçək...

Bəli, genetik amillər, sosial faktorlar, zəmanənin acı gerçəklikləri, qida, ailəiçi şiddət və digər səbəblərin yaratdığı "aqressiv uşaqları"mızı sevgi və etimadla müalicə edə bilərik.

Təbii ki, peşəkar mütəxəssis yardımını unutmadan...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## ÜST: "Mpox"la bağlı yeni pandemiya dövrü yaşanacağı üzrə narahatlığa əsas yoxdur



**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) sözçüsü Marqaret Harris bildirib ki, bəşəriyyətin COVID-19 kimi yeni pandemiya dövrü yaşanacağı ilə bağlı narahatlığına əsas yoxdur. AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, Harris qlobal araşdırma altında olan və ÜST-nin keçən həftə yayılmasını "beynəlxalq narahatlıq doğuran ictimai sağlamlıq fövqəladə hal" kimi elan etdiyi "Mpox" virusu ilə bağlı fikirlərini çatdırıb.**

Virusun sürətlə yayılmasının dünya gündəmində olduğunu qeyd edən Harris əlavə edib, "Mpox" virusunun iki genetik növü var. Onun sözlərinə görə, keçən il ortaya çıxan yeni virus növü olan "Clade 1b" çox sürətlə yayılır və xüsusilə uşaqlar arasında ölüm nisbəti yüksəkdir. "Bizi çox narahat edən odur ki, çox sürətlə yayılan virus digər ölkələrdə də qeydə alınıb. Burundi, Ruanda, Uqanda və Keniya buna misaldır", - deyə ÜST-nin sözçüsü bildirib.

"Mpox" virusunun yeni növü olan "Clade 1b" səbəbindən ölüm nisbətlərinin daha yüksək olduğunu ifadə edən Harris qeyd edib ki, xüsusən münaqişə zəminində məcburi köçkün olan azyaşlı uşaqlar immun sisteminin zəif olması üzündən daha tez-tez yoluxurlar. Onun sözlərinə görə, adi çiçək xəstəliyinə və HİV-ə yoluxmuş şəxslərin "Mpox" virusuna yoluxma və ölüm ehtimalı daha yüksəkdir.

"Mpox" virusunun spesifik müalicəsinin olmadığını qeyd edən Harris bildirib ki, ona qalib gələ biləcək antiviral dərman yoxdur, amma simptomatik müalicə müsbət nəticə verir. Onun sözlərinə görə, virusa yoluxan xəstələrə qızdırmanı aşağı salan və ağrıkəsici dərmanlar verilməli, həmçinin onlar təcrid edilməlidir.

Harris qeyd edib ki, çiçək xəstəliyinə qarşı hazırlanmış peyvəndlər "Mpox"a qarşı da istifadə oluna bilər. O, habelə bu xəstəliklə bağlı karantin rejimi elan etməyə ehtiyac olmadığını deyib. Xəstələrlə təmasda olanlar isə 4 gün ərzində peyvənd olunmalıdır.

"Mpox" virusunun yayılma tendensiyasını izləmək üçün yaxşı laboratoriya diaqnostikasına ehtiyac olduğunu deyən Harris, bu xəstəliyə qarşı mübarizədə cəmiyyətlərin iştirakının vacibliyinə diqqət çəkib. O vurğulayıb: "Biz "Mpox" virusunun bütün dünyaya yayılmasını və pandemiyaya çevrilməsini istəmirik. Bu, COVID-19-dan çox fərqli bir virusdur, başqa şəkildə yayılır. COVID-19 hava yolu ilə ötürülür, "Mpox" isə çox yaxın fiziki təmasla yayılır. Buna görə də fiziki təmasla bağlı araşdırmalar havada yayılan virusun qarşısını almaqdan daha asandır. Biz bu virusun səhiyyə sistemlərinə yeni təzyiq göstərməsini istəmirik, ona görə də pandemiyanın qarşısını almaq üçün beynəlxalq əhəmiyyətli ictimai səhiyyə fövqəladə vəziyyəti elan edilib", - deyə ÜST-nin sözçüsü vurğulayıb.

## Meşələrdə yanğın təhlükəsizliyi məsələləri müzakirə olunub



**Fövqəladə Hallar Nazirliyinin Cənub Regional Mərkəzi tərəfindən "Meşə fondu və xüsusi mühafizə olunan ərazilərdə baş verə biləcək yanğın hadisələrinə qarşı qabaqlayıcı tədbirlərin həyata keçirilməsi" mövzusunda Qızılağac Milli Parkında birgə tədbir keçirilib.**

Tədbirdə Fövqəladə Hallar Nazirliyinin aidiyyəti yerli qurumlarının, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 1 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin və Qızılağac Milli Parkının əməkdaşları iştirak ediblər.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə çıxış edənlər yanğın hadisələrinin baş verməməsi üçün qabaqlayıcı tədbirlərin görülməsinin və yanğınla mübarizə istiqamətində maarifləndirmə işlərinin əhəmiyyətini vurğulayıblar.

Eyni zamanda kənd təsərrüfatı ilə məşğul olan sahibkarların, fermerlərin, meşə ətrafında yaşayan kənd sakinlərinin, heyvandarlıq və əkinçiliklə məşğul olan vətəndaşların odla ehtiyatlı davranmaları və yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etmələrinin vacibliyi tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Tədbirin praktiki hissəsində şərti olaraq baş vermiş meşə yanğınının qarşısının alınması əyani şəkildə iştirakçılara nümayiş etdirilib.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Postmüharibə dövründə şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 129 min şəxsə 354 min xidmət göstərilib

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həmin sosial dəstək paketi çərçivəsində postmüharibə dövründə:

- şəhid ailələri üzvləri və müharibə veteranları olan 105 min şəxsə 118 min aylıq sosial ödəniş, 23,4 min şəxsə birdəfəlik ödəmə təyin olunub;
- şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlara 6 200 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 528 avtomobil təqdim edilib;
- şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 11 min şəxsə 66,5 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib;
- müharibə ilə əlaqədar əlilliyi olan 2182 şəxs 59,6 min reabilitasiya vasitəsi, o cümlədən 481 şəxs 587 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub;
- şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 22,5 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 10,6 min şəxs özünüməşğulluq proqramına cəlb olunub.

Ümumilikdə, postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi 129 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 354 min xidmət göstərilib.

## Ötən müddətdə müavinətlər üzrə 626 milyon, Prezident təqaüdləri üzrə 400 milyon manat ödənilib

**Bu ilin yanvar-iyul aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən 487 min nəfər sosial müavinət, 399 min nəfər Prezidentin aylıq təqaüdü ilə təmin edilib.**




Həmin dövrdə əhaliyə sosial müavinətlər üzrə 626 milyon, Prezident təqaüdləri üzrə 400 milyon manat ödənilib.

Cari ilin 7 ayında 89 min, sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən 659 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

## Məşğulluqla məşğul olanda...

### 6 ayda 95 faizi özəl sektorda olmaqla 45,4 min yeni iş yeri açılıb

**Sirr deyil ki, hər bir hökumətin xüsusi diqqət yetirdiyi sahələrdən biri də əhalinin məşğulluğunun təmin edilməsidir. Məşğulluq əhalinin sosial təminatında və firavan yaşamasında önəmli rol oynayır. O üzdən, bu sahədən yan keçmək, sadəcə, mümkün deyil.**



Azərbaycanda da dövlət siyasətinin əsas istiqamətlərindən biri əhalinin sosial müdafiəsidir. Məşğulluğun təmin edilməsi isə sosial müdafiənin ən etibarlı formasıdır. Prezident İlham Əliyev dəfələrlə çıxışlarında əhalinin məşğulluğunun təmin edilməsi və yeni iş yerlərinin açılmasının əhəmiyyətini vurğulamış və bu istiqamətdə konkret qərarlar qəbul etmiş, əməli addımlar atmışdır.

Nəticədə, ölkəmizdə icra edilən sosial-iqtisadi islahatlarda əhalinin əmək fəaliyyətinin təmin edilməsi mühüm məsələ kimi önə çıxmışdır. Bu gün əhalinin məşğulluğunun daha çox təmin edilməsi üçün yeni formalardan istifadə olunur, müxtəlif layihələr çərçivəsində beynəlxalq qurumlarla əməkdaşlıq edilir. Və bütün bunlar təbii ki, nəticəsiz qalmır. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari il avqustun 1-nə olan ilkin məlumatlara əsasən, ölkə üzrə iqtisadi fəal əhalinin sayı 5 milyon 288,9 min nəfər olmuşdur. Onlardan 5 milyon 5,2 min nəfərini məşğul əhali təşkil edir. Cari il iyulun 1-nə olan vəziyyətə Azərbaycanda muzdla çalışan işçilərin sayı 1 milyon 760,5 min nəfərdir. Onlardan 887,5 min nəfəri dövlət, 873,3 min nəfəri qeyri-dövlət sektorlarında çalışmışdır. Həmin dövr qeyri-neft sektorunda çalışanların sayı neft sektorunda çalışanların sayını üstələmişdir. İşləyənlərin üstünlük təşkil etdiyi sahələr məhsul istehsalı, xidmət sahəsi, təhsil, səhiyyə və sosial xidmətlərin göstərilməsi olmuşdur.

Cari ilin 6 ayında ölkə üzrə 45,4 min yeni iş yeri açılmışdır. Həmin iş yerlərinin 95,1 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Ümumilikdə yeni yaradılan iş yerlərində tikinti, ticarət, nəqliyyat vasitələrinin təmiri, emal sənayesi, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələri üstünlük təşkil edir.

Paralel olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən özünüməşğulluq proqramı iştirakçılarının aktivlərlə təminatı işləri davam edir. Son vaxtlar Bakı və ölkəmizin regionlarında 600-dək işsiz və işaxtaran şəxs bu proqram çərçivəsində mal və materiallar formasında aktivlərlə təmin olunub. Verilmiş aktivlər hesabına həmin şəxslər üçün kənd təsərrüfatı, istehsal və xidmət sahələri üzrə kiçik təsərrüfatlar qurulub. Proqrama cəlb olunanlar üçün ilk mərhələdə kiçik biznesin təşkili və idarə olunmasına dair bilik və bacarıqların öyrədildiyi təlim kursları keçirilir. Təlimlərdən sonra onlar biznes planlarına uyğun olaraq müxtəlif aktivlərlə təmin edilirlər.

Dövlət Məşğulluq Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərə köçürülən sakinlərin dayanıqlı məşğulluğunun təminatı istiqamətində də zəruri tədbirlər görülür. Əhalinin məşğulluq xidmətlərinə əlçatanlığının artırılması məqsədi ilə agentliyin Şərqi Zəngəzur Regional Məşğulluq filialının Laçın xidmət şöbəsi istifadəyə verilib. Xidmət şöbəsində məşğulluq xidmətləri ilə bağlı müraciət edən sakinlərin qeydiyyatı aparılır, onların məşğulluq imkanları qiymətləndirilir. Fərdi məşğulluq proqramları tərtib edilməklə sakinlərin aktiv məşğulluq tədbirlərinə cəlb olunması, habelə onlara karyera məsləhəti xidmətlərinin göstərilməsi istiqamətində işlər aparılır.

Agentlikdən verilən məlumatda bildirilir ki, Böyük Qayıdış proqramı çərçivəsində Laçın rayonu üzrə doğma torpaqlarına qayıdan vətəndaşların məşğulluğunun təmin olunması üçün genişhəcmli işlər görülüb. Bunun sayəsində əhalinin məskunlaşdığı Laçın şəhəri, Zabux və Sus kəndlərində 900-dən artıq şəxsin məşğulluğu təmin edilib. Onlardan 800-dən çoxu vakansiya üzrə işlə təmin olunub, 32 nəfər özünüməşğulluq proqramına cəlb edilərək aktivlərlə təmin edilib. Bundan əlavə, Laçın rayonunda 5 fərqli ixtisas üzrə peşə hazırlığı kursları təşkil edilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Naxçıvan ilə Türkiyə arasında enerji ixracına dair "Əməliyyat müqaviləsi" imzalanacaq

**Yaxın zamanlarda Naxçıvan Dövlət Energetika Xidməti ilə TEİAŞ (Türkiye Elektrik İletim Anonim Şirketi) arasında enerji ixracı (mübadiləsi) ilə bağlı müvafiq "Əməliyyat Müqaviləsi"nin imzalanması planlaşdırılır. Trend xəbər verir ki, bu barədə NDEX məlumat yayıb.**

Bildirilib ki, Türkiyə və Naxçıvan tərəfində olan ötürücü və paylayıcı yarımstansiyalar, elektrik verilişi xətlərinin mövcud vəziyyəti, sayğacların yerləşmə nöqtələri, rele-mühafizə sistemlərinin tətbiq sahələri, TEİAŞ və Xidmət arasında enerji ixracı (mübadiləsi) ilə bağlı müvafiq "Əməliyyat Müqaviləsi"nin bağlanılmasına görə sənədləşmə işlərinə dair qarşılıqlı müzakirələr aparılıb.

Türkiyə-Naxçıvan elektrik enerjisi idxalı-ixracı əlaqəsi haqqında ENTSO (European Network of Transmission System Operators) tərəfindən 75 meqavat ixrac (Türkiyə tərəf passiv ada rejimində olmalıdır), 40 meqavat idxal (Naxçıvan tərəf passiv ada rejimində olmalıdır) ötürməyə icazə verilib.

## 7 ayda özəlləşdirilmədən büdcəyə 100 milyon manatdan çox vəsait daxil olub

**Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən cari ilin ilk 7 ayında özəlləşdirmə və icarədən dövlət büdcəsinə 122,8 milyon manat vəsaitin ödənilməsi təmin edilib.**

Bu dövr ərzində 35 hərrac keçirilib. Hərraclarda 5 səhmdar cəmiyyətinin səhm paketi, 6 kiçik dövlət müəssisəsi, 465 nəqliyyat vasitəsi satılıb. Bu ilin yanvar-iyul ayları ərzində hərraca çıxarılmış dövlət əmlakı üzrə 360 elektron sifariş qəbul edilib, hərraclarda iştirak etmək məqsədilə "Elektron Hərrac" proqram təminatı vasitəsilə 44 onlayn qoşulma reallaşıb.

Cari ilin 7 ayında özəlləşdirmədən dövlət büdcəsinə 100,7 milyon manat vəsait daxil olub, ötən ilin eyni dövrü ilə müqayisədə 46,1 faiz artım qeydə alınıb.

## Neftin ucuzlaşması davam edir

**AZƏRTAC xəbər verir ki, dünya birjalarında neft yenidən ucuzlaşıb.**



Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,13 dollar azalaraq 77,07 dollar olub. Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,33 dollar azalaraq 74,04 dollar təşkil edib.

## "Made in Azerbaijan": domofon, müşahidə kamerası, konnektor, elektrik yuvası...



**Müasir dövrdə hər hansı təsisatın özünü mütərəqqi beynəlxalq aləmdən təcrid şəraitində saxlaması intihara bərabər bir addım olardı. O üzdən Azərbaycan bütün istiqamətlərdə sivil, mütərəqqi dünyaya inteqrasiya edən bir ölkə kimi digər dövlətlərlə sıx əlaqələr qurur.**

Milli iqtisadiyyatımız qlobal iqtisadiyyatın tərkib hissəsi olduğundan, xarici mühitdən kənarda deyil. Məhz buna görə iqtisadiyyatın inkişafına aid Prezidentin imzaladığı bütün sənədlərdə uzunmüddətli dövr üçün iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığının gücləndirilməsi, makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsinə geniş yer verilir. Ölkədə makroiqtisadi sabitliyin və dayanıqlığın gücləndirilməsi məqsədi ilə yeni reallıqlara uyğun büdcə qaydasına əsaslanan fiskal çərçivənin formalaşdırılması, bu sahədə əsas meyar sayılan qiymətlərin aşağı və sabit olmasının vacibliyi vurğulanır.

Danılmaz gerçəklikdir ki, son dövrlər Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu iqtisadi siyasət nəticəsində ölkəmizin ixrac qabiliyyəti yüksəlib, yerli məhsulların beynəlxalq standartlara uyğunlaşdırılması işləri sürətlənib. Bütün bunlar isə ölkəmizdə keyfiyyət infrastrukturunun inkişafına xüsusi əhəmiyyət verilməsinin nəticəsidir.

Azərbaycanın sənaye zonalarında 10 il müddətinə müxtəlif vergilərdən azad olunmaqla qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq üçün müstəsna imkanlar yaradılır. Həmin zonalarda dövlət vəsaiti hesabına yaradılan müasir infrastruktur sahibkarlığın inkişafı üçün əlverişli imkanlar təqdim edir. Dövlətimizin başçısı iqtisadi məsələlərlə bağlı çıxış və müsahibələrində, eləcə də əcnəbi qonaqlarla görüşlərində mütəmadi şəkildə adıçəkilən mövzunun əhəmiyyətini vurğulayır, əsas məqsədin iqtisadiyyatın şaxələndirilməsi olduğunu bildirir.

İstər Prezident İlham Əliyevin göstəriş və tövsiyələri, təsdiqlədiyi hüquqi-normativ aktların tələbi, eləcə də bazarın diktə etdiyi şərtlər sayəsində ölkəmizdə istehsal olunan məhsulların keyfiyyəti xeyli yüksəlib. Bu özünü təkcə daxili istehlak bazarında deyil, xarici ticarət əlaqələrində də açıq-aydın göstərir. Dünyanın bir çox qabaqcıl ölkələri Azərbaycanla iqtisadi-ticari ünsiyyətə və yeni müqavilələrin imzalanmasına xüsusi maraq göstərirlər. Məsələn, bir müddət öncə Madriddə Azərbaycanın İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) və İspaniya Ticarət Palatası, eləcə də Madrid Ticarət, Sənaye və Xidmətlər Palatası arasında görüş keçirilib. Qeyd olunub ki, İspaniyaya qeyri-neft məhsullarının ixracının artırılması, eləcə də ispan şirkətlərinin ölkəmizin investisiya layihələrinə cəlb edilməsi yönündə AZPROMO tərəfindən müvafiq qurumlarla aktiv işlər görülür. Tədbir çərçivəsində əməkdaşlığın hüquqi çərçivəsinin müəyyənləşdirilməsi məqsədi ilə adıçəkilən qurumlarla anlaşma memorandumları imzalanıb.

Azərbaycanın "AEM Elektron" MMC şirkətinin Çində "Voltam" brendi altında domofon və şlaqbaum istehsalına başlaması da sevindirici xəbərdir. Şirkətin korporativ satış meneceri Azər Rzayevin sözlərinə görə, ÇXR-də domofon və şlaqbaumla yanaşı, şəbəkə kabelləri, konnektorlar, elektrik yuvaları, müşahidə kameralarının yığılması da planlaşdırılır: "Bu məhsullar Çindəki partnyor şirkətlərin zavodlarında hazırlanır və yalnız Azərbaycan bazarına göndərilir. Gələcəkdə həmin məhsulların istehsalının ölkəmizdə təşkili də nəzərdə tutulur. Domofonlar yeni məhsulumuzdur. Bu məhsullar ölkə bazarına az sayda test məqsədilə çıxarılıb. Gələcəkdə domofonların, eləcə də "Voltam" brendi altında digər məhsulların istehsalını genişləndirəcəyik".

Azərbaycan da Çin bazarına əliboş getmir. Hazırda ÇXR-ə fındıq ixracı məqsədi ilə qarşılıqlı protokolların imzalanması üçün danışıqlar aparılır. Bunu AQTA-nın idxal və ixraca nəzarət şöbəsinin baş məsləhətçisi Vəfa Səfərli paytaxtımızda keçirilən "Yaşıl dünya naminə" mövzusunda Bitki Sağlamlığı Forumunda bildirib: "Çinə fındıq, eləcə də alma, nar və badam ixracı üçün agentlik risk qiymətləndirməsinin nəticələrini qarşı tərəfin səlahiyyətli qurumuna rəsmi kanallar vasitəsilə təqdim edib. Agentliyin müvafiq sahədə vahid dövlət nəzarətini həyata keçirən dövlət qurumu kimi təsisatlanması, ixrac olunan bitkilər və bitkiçilik məhsullarına münasibətdə digər ölkələrin tələblərinə uyğun nəzarəti həyata keçirməsi nəticəsində xarici ölkə bazarlarına çıxış imkanları artırılıb, ixrac həcminin artırılmasına nail olunub".

Ötən il Rusiya ilə ticarət dövriyyəmizin həcmində 17 faiz artım müşahidə edilib. Sankt-Peterburq şəhərinin sənaye siyasəti, innovasiyalar və ticarət komitəsi sədrinin birinci müavini Aleksandr Sitov deyib ki, Rusiyanın şimal paytaxtının ərzaq və kənd təsərrüfatı məhsulları ilə təminatında Azərbaycan əhəmiyyətli rol oynayır.

Nə qədər gözlənilməz olsa da, bu sırada heyvandarlıq məhsulları da var. Məsələn, Azərbaycan Vyetnama hər il 1000 tondan çox ət və ət məhsulları ixrac edəcək. Bununla bağlı Bakıda "Canet" MMC və Vyetnam Aşpazlar Assosiasiyası arasında əməkdaşlığa dair niyyət protokolu imzalanıb. MMC-nin rəhbəri Tural Əliyev məlumat verib ki, bu ilin may ayında Vyetnamda keçirilən görüşdə şirkətlərlə bu istiqamətdə danışıqlar aparılıb: "Sənədə əsasən, Vyetnam şirkətlərinin tələbatı üzrə Azərbaycandan ət ixrac ediləcək. İxracın həcminin illik 1000 tondan çox olacağı proqnozlaşdırılır. Çatdırılma əsasən hava yolu ilə həyata keçiriləcək. Soyudulmuş ətlər hava nəqliyyatı, dondurulmuş ətlər isə avtomobil yolu ilə daşına bilər".

Sadalanan faktları xeyli artırmaq mümkündür. Amma bunlar da kifayət edir ki, iqtisadiyyatımız şaxələndikcə, qeyri-neft sektoru inkişaf etdikcə, istehsal olunan məhsulların keyfiyyəti yüksəldikcə ticarət əlaqələrimizin daha geniş coğrafiyanı əhatə etdiynin şahidi olaq.

***Qurban MƏMMƏDOV,***
***"Azərbaycan"***

## DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi 3 İSO sertifikatı alıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Rəqəmsal İnnovasiyalar Mərkəzinə (DOST RİM) üç beynəlxalq İSO sertifikatı təqdim edilib:**

İSO 9001:2015 ("Keyfiyyəti İdarəetmə Sistemi")

İSO 20000-1:2018 ("İnformasiya Texnologiyaları Xidmətləri İdarəetmə Sistemi")

İSO 27001:2022 ("İnformasiya Təhlükəsizliyinin İdarəolunması").

DOST RİM hər üç İSO üzrə bütün mərhələləri uğurla keçərək, müvafiq istiqamətlərdə aparılan qiymətləndirmənin nəticəsi olaraq həmin standartlara layiq görülüb.

Mərkəzdə standartların idarəetmə sistemində tətbiqi, habelə informasiya təhlükəsizliyi və risklərin, innovativ yeniliklərin idarə edilməsi sistemlərinin yerli və beynəlxalq tələblərə uyğunlaşdırılması və yekun olaraq müəssisənin sertifikatlaşdırılması həyata keçirilib.

Qeyd olunan İSO sertifikatlarının tələblərinə əsasən, DOST RİM tərəfindən Nazirliyin fəaliyyət sahələri üzrə e-xidmətlərin yaradılması və bu e-xidmətlərin dayanıqlığı təmin olunaraq, İT proseslərində və əməliyyatlarında davamlı təkmilləşdirmə işlərinin aparılmasında keyfiyyətli idarəetmənin tətbiqi və s. təşkil edilib.

# REGİONLAR

## "Şəhərdən kəndə": "Paşa Holdinq" nümunə göstərir

**Bu gün kənd təsərrüfatının inkişafı üçün dövlət və özəl sektor tərəfindən müxtəlif layihələr həyata keçirilir. Onlardan biri də "Şəhərdən kəndə" layihəsidir. Layihə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən "Paşa Holdinq"in dəstəyi ilə 2021-ci ildən icra olunur.**



Məqsədi ölkəmizdə aqroturizmin inkişaf etdirilməsi, regionlarda yaşayan əhalinin məşğulluğunun artırılması, yerli fermer təsərrüfatlarına alternativ satış kanalı, eləcə də şəhər sakinləri və xarici turistlərdən ötrü fərqli turizm imkanlarının yaradılması olan layihənin fermerlər üçün önəmli tərəfi ondan ibarətdir ki, təsərrüfat sahibləri aqroturizm modulu üzrə təlim proqramlarında iştirak edərək bilik və bacarıqlarını artırırlar. "Şəhərdən kəndə" çərçivəsində fermer təsərrüfatları abadlaşdırılır, onlara texniki və avadanlıq dəstəyi göstərilir ki, bu da layihəyə qoşulan fermerlərə əlavə gəlir mənbəyi əldə etməyə imkan yaradır. Nəticədə həm yerli, həm də əcnəbi turistlər maraqlı, fərqli və daha sərfəli istirahət etmək, kənd təsərrüfatı mallarını yerində almaq və təbiətə daha yaxın olmaq imkanı qazanırlar. Təsadüfi deyil ki, cəmi 3 il ərzində layihə sayəsində regionlarda kənd turizminin inkişafı xeyli sürətlənib, o cümlədən kəndlərin çoxunda sosial rifah halı yaxşılaşıb, yeni xidmət sahələri açılıb, alternativ satış kanalları yaradılıb, ailə biznesi genişlənib, kənd əhalisinin, eləcə də kiçik və orta fermer təsərrüfatı sahiblərinin gəlirləri artıb. Bunlardan başqa, həyata keçirilən ekoloji və aqrar maarifləndirmə tədbirləri əhalinin böyük şəhərlərə axınının sürətini azaldıb, insanları torpağa bağlayıb. Layihə çərçivəsində müntəzəm olaraq şəhər məktəblilərinin və ali məktəb tələbələrinin kəndlərə ekskursiyaları həyata keçirilib ki, bu da gənclərdə kənd həyatına maraq oyadıb.

Yeri gəlmişkən xatırladaq ki, bu günlərdə "Aqrar Fəaliyyətli Azərbaycan Qadınları" (AFAQ) layihəsi çərçivəsində İsmayıllı rayonunda kənd təsərrüfatı ilə məşğul olan 9 fermerə "Şəhərdən kəndə" vasitəsi ilə dəstək göstərilib. Topçu kəndində fəaliyyət göstərən qadın fermerlərin müraciətləri əsasında təsərrüfatlara baxış keçirilib, qiymətləndirmə sorğuları aparılıb, həmçinin fəaliyyət sahələrinə uyğun təlimlər keçirilib.

Qiymətləndirmə sorğularına əsasən, 8 fermerə ümumilikdə təsərrüfatlarının ehtiyacları üzrə 6 yemdoğrayan aparat, südçəkən aparat təqdim edilib. Eyni zamanda qadınların quşçuluq istiqamətində birgə fəaliyyətinə dəstək olmaq üçün inkubator verilib. Layihə çərçivəsində İsmayıllı rayonunun Kürdmaşı kəndində Solmaz Bağırlının rəhbərlik etdiyi qadın qrupuna məxsus quşçuluq təsərrüfatında istehsal həcminin artırılmasına dəstək məqsədi ilə 96 kvadratmetrlik hin tikilib, təsərrüfat 30 su və 30 yemqabı ilə təmin olunub. Bundan başqa, Sumağallı kəndində "Arzu" qadın qrupuna məxsus təsərrüfata baxış keçirilib, fermerlərin fəaliyyətlərinin çoxşaxəli olması və kəndin turizm üçün əlverişliliyi nəzərə alınaraq təsərrüfatın aqroturizm potensialı dəyərləndirilib. Bu məqsədlə layihə çərçivəsində "Arzu" qadın qrupuna məxsus ərazidə mətbəx və söhbətgah, sanitar qovşağı tikilib, uşaq oyun meydançası salınıb, ehtiyac duyulan avadanlıqlarla təmin edilib.

Rayonun Qalacıq kəndində yerləşən fermer Şahin Əlisultanovun təsərrüfatına da layihə çərçivəsində dəstəklər göstərilib. Əsas fəaliyyəti bağçılıq, arıçılıq və maldarlıq olan təsərrüfatda söhbətgah və sanitar qovşağı tikilib, uşaq oyun meydançası salınıb, eyni zamanda turizm xidmətinin yaxşılaşması məqsədi ilə təsərrüfat avadanlıqlarla təmin edilib, burada 15 nəfərin gecələməsi və 24 nəfərin qidalanması üçün şərait yaradılıb. Bu dəfə də "Şəhərdən kəndə" layihəsinin işi bu rayonla məhdudlaşmayıb. Layihə çərçivəsində Şamaxı rayonunun Meysəri kəndində yerləşən Sərdar Bayramova məxsus təsərrüfat da abadlaşdırılıb. Arıçılıq, meyvəçilik, üzümçülük, şərabçılıq və tərəvəzçilik, quşçuluqla məşğul olan təsərrüfatda 8 nəfərin gecələməsi, 15 nəfərin qidalanması üçün şərait var. Əlavə olaraq burada sanitar qovşağı, söhbətgah və manqal tikilib və digər işlər görülüb.

Xatırladaq ki, "Şəhərdən Kəndə" layihəsi çərçivəsində bu günə qədər yerli və əcnəbi mütəxəssislər tərəfindən həyata keçirilən təlimlərdə 315 təsərrüfat sahibi iştirak edib. Təsərrüfat sahəsinin inkişafı və turistlər üçün xidmət səviyyəsinin artırılması üçün 23 təsərrüfat abadlaşdırılaraq müxtəlif avadanlıqlarla təmin olunub.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

### Astara xəbərləri

## "Kimin ağrıyır canı..."

### Azərbaycanda çay istehsalının 60 faizi Astaranın payına düşür

**Çayçılıq subtropik bölgənin, o cümlədən Astaranın ənənəvi və gəlirli sahələrindəndir. Bu baxımdan regionda çayçılığın inkişaf etdirilməsinin prioritet məsələ kimi qarşıya qoyulması təsadüfi deyil.**



Məlum olduğu kimi, sahənin inkişaf etdirilməsi, çay məhsullarına tələbatın yerli istehsal hesabına təmin olunması, onların ixrac potensialının artırılması, kənd əhalisinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədi ilə "Azərbaycan Respublikasında 2018-2027-ci illərdə çayçılığın inkişafına dair Dövlət Proqramı" qəbul edilmişdir. Proqramın həyata keçirilməsi nəticəsində Astarada çayçılığın inkişafı sürətlənmiş, çay plantasiyalarının əkin sahəsi artırılmışdır.

Bu gün Azərbaycanda mövcud çay plantasiyalarının təxminən 24 faizi, çay istehsalının isə 60 faizindən çoxu Astara rayonunun payına düşür. Rayon Statistika İdarəsindən aldığımız məlumata görə, hazırda rayonda 232,1 hektar çay sahəsi var və həmin sahələrdən 1 avqust vəziyyətinə 486,6 ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 11,2 ton (2,4 faiz) çox məhsul yığılmışdır. Məhsuldarlıq 0,5 sentner artaraq 21 sentnerə çatmışdır.

Rayonda çayçılıqla 3 müəssisə məşğuldur və 2024-cü ilin 7 ayında həmin müəssisələr tərəfindən 145,8 ton və ya 6,4 faiz çox yaşıl çay yarpağı istehsal edilərək təhvil verilmişdir. Məhsuldarlıq isə 0,4 sentner artaraq 7,7 sentnerə çatmışdır. Əhaliyə məxsus təsərrüfatlar tərəfindən isə 340,8 ton (keçən ilin müvafiq dövrünə nisbətən 0,7 faiz çox) məhsul yığılmışdır.

Təsərrüfatlarda çay yığımı davam edir.

## Bu il rayon üzrə 290 hektarda çəltik əkilib

**Son illər kənd təsərrüfatının ənənəvi sahələrindən olan çəltikçiliyin inkişafı, əhalinin düyüyə olan tələbatının ödənilməsi və çəltik istehsalının artırılması istiqamətində bir sıra əhəmiyyətli tədbirlər görülmüş və müsbət nəticələr əldə olunmuşdur.**



"Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın bu müsbət dinamikada rolu böyükdür. Proqram, eyni zamanda kənd əhalisinin sosial rifahının yaxşılaşdırılması və məşğulluq səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Astara rayonunun təsərrüfatlarında cari ilin məhsulu üçün 290 hektar sahədə çəltik əkilmişdir ki, bu da keçən illə müqayisədə 54,2 hektar və ya 23 faiz çoxdur. Rayon Statistika İdarəsinin rəis müavini Şövqiyyə Məmmədovanın verdiyi məlumata görə, çəltikçilik Astaranın ənənəvi təsərrüfat sahəsidir və regionda çəltikçiliyin inkişafı üçün geniş prespektivlər var.

Artıq bir neçə ildir bölgənin brendi olan, ekoloji cəhətdən təmiz və keyfiyyətli Astara düyüsünə bazarda tələbat çoxdur. Bu, əkinçilərə çəltik sahələrini ildən-ilə artırmağa stimul verir. Çəltikçilik rayonun əsasən Səncərədi, Pensər, Kakalos və Ərçivan ərazi nümayəndəliklərində geniş yayılıb. Hazırda bütün ərazilərdə əkin sahələrinin aqrotexniki tələblər səviyyəsində becərilməsi üçün ciddi səy göstərilir.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Görüşə yalnız balıqçılar dəvətli idi

**Neftçala Rayon İcra Hakimiyyətinin təşkilati dəstəyi ilə Azərbaycan Balıq İstehsalçıları və Emalçıları Assosiasiyası İdarə Heyətinin rayon ərazisində balıqçılıq fəaliyyətilə məşğul olan hüquqi və fiziki şəxslərlə "Azərbaycan Fish-Farm" MMC-də görüşü keçirilib.**

Neftçala və Salyanda nohur balıqçılığı ilə məşğul olan 30 nəfərin iştirak etdiyi tədbiri giriş sözü ilə açan assosiasiyanın sədri Zaur Salmanlı akvakultura sahəsində ciddi potensiala malik olan Neftçala rayonu ərazisində ərzaq təhlükəsizliyi ilə bağlı dövlət proqramının həyata keçirilməsi istiqamətində görülməsi vacib olan işlər haqqında danışıb.

Görüş zamanı kənd təsərrüfatının digər sahələrində olduğu kimi, balıqyetişdirmə sahəsinə subsidiyaların ayrılması, balıq yeminə olan tələbatın standartlarına cavab verən keyfiyyətlə təmin olunması, beynəlxalq standartlara uyğun yeni texnologiyaların tətbiqi ilə məhsuldarlığın artırılması, nohur göllərində sudan istifadə qaydaları, verilən suyun qiyməti barədə yığıncaq iştirakçıları ilə maraqlı fikir mübadiləsi aparılıb, mövcud vəziyyət və qarşıya çıxan çətinliklər müzakirə olunub.

*S.CAVADOV,*
*"Azərbaycan"*

### Ağstafa xəbərləri

## Yeniyetmə və gənclərin yay istirahəti səmərəli keçir

**Ağstafa Rayon İcra Hakimiyyəti və Qazax-Tovuz Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Həsənsu çayının ətrafında piknik təşkil olunmuşdur.**



Yeniyetmələrlə gənclər arasında birliyin təşviqi, onların intellektual səviyyəsinin artırılması, eyni zamanda məktəblilərin yay tətilini daha mənalı və yaddaqalan etmək üçün keçirilən tədbirin açılışında çıxış edənlər demişlər ki, Ulu Öndər Heydər Əliyevin memarı və qurucusu olduğu müasir Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə gənclər hərtərəfli qayğı ilə əhatə olunub və onların vətənpərvərlik, milli-mənəvi dəyərlər ruhunda yetişmələri, yüksəksəviyyəli təhsil almaları, fəal və sağlam həyat tərzi sürmələri, idmanla məşğul olmaları üçün bütün zəruri tədbirlər görülüb. Öz növbəsində hər bir yeniyetmə və gənc də ölkəmizdə yaradılan bu əlverişli mühitdən maksimum dərəcədə bəhrələnərək böyük fəallıq nümayiş etdirməlidirlər.

Müxtəlif növ stolüstü dama yarışlarının, musiqili-əyləncəli müsabiqələrin, nahar və çay süfrəsinin təşkil olunduğu tədbir zamanı iştirakçılar, həmçinin ərazini tullantılardan təmizləmişlər.

## Yüksək balla ali məktəblərə daxil olan gənclərlə görüş keçirilmişdir

**Ağstafada Dövlət İmtahan Mərkəzinin (DİM) 2023-2024-cü tədris ili üzrə keçirdiyi qəbul imtahanlarında yüksək bal toplayaraq tələbə adını qazanan yerli gənclərlə görüş keçirilmişdir.**



Görüşü giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Seymur Orucov açaraq tələbə adını qazanmış gəncləri təbrik etmiş, onlara gələcək hədəflərinə çatmaları üçün uğurlar arzulamışdır.

Sonra Ağstafa təhsil sektorunun müdiri Mədət Zeynalov, şair Rüfət Axundlu, eləcə də test imtahanında 669 bal toplayan Həcər İsgəndərli və 682 bal toplayaraq yüksək nailiyyət əldə edən Nurlan Axundov çıxış edərək ölkəmizdə elmə, təhsilə göstərilən yüksək diqqət və qayğıdan söz açmışlar.

Yüksək bal toplayaraq tələbə adını qazanmış gənclərə Ağstafa Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanları və xatirə hədiyyələri təqdim edildikdən sonra xatirə şəkli çəkdirilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Şabranda məskunlaşmış qərbi azərbaycanlılar doğma yurdlarına dönəcəklərinə inanırlar

**Ölkəmizin hər bölgəsində olduğu kimi, Şabran rayonunda da əslən Qərbi Azərbaycandan olan soydaşlarımız yaşayırlar. Düzdür, erməni şovinizmi və keçmiş SSRİ rəhbərliyinin riyakarlığı səbəbindən dədə-baba yurdlarından, doğma ocaqlarından zorla köçürülmüş soydaşlarımızdan indi sağ qalanlar çox deyil.**



Əvəzində övladları, nəvə-nəticələri var və onlar da özlərini qərbi azərbaycanlı hesab edirlər, tezliklə tarixi yurdlarına dönəcəklərinə inanırlar.

Bu, Şabran şəhər İcmasının İnkişafı üzrə Təlim və Resurs İctimai Birliyi tərəfindən Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Şabran rayonunda məskunlaşmış qərbi azərbaycanlı soydaşlarımız arasında əzəli torpaqlarımıza qayıdış imkanlarının təbliği" layihəsi həyata keçirilən zaman bir daha bəlli oldu. İctimai birliyin sədri Gülsənəm Əmrahovadan öyrəndik ki, Şabran şəhərində 7, Kilvar kəndində 13, Ağbaş, Xəlfələr və Yeləkəsən kəndlərinin hər birində 1, Taxtalar kəndində 2, ümumilikdə 25 ailədə və Qarabağlı qaçqın və məcburi köçkünlər üzrə nümayəndəlikdə sakinlərin iştirakı ilə qayıdış prosesi mövzusunda maarifləndirici görüşlər keçirilmişdir. Görüş iştirakçılarına agentliyin maliyyə dəstəyi, ictimai birliyin təşkilatçılığı ilə nəşr edilmiş "Qərbi Azərbaycan əzəli və əbədi torpağımızdır" adlı kitablar paylanmışdır.

Sədr onu da dedi ki, tarixi torpaqlarımıza kənar ölkələrin ərazisindən köçürülmüş bədnam ermənilər tərəfindən öz havadarlarına arxalanaraq zaman-zaman xalqımıza qarşı törədilən soyqırımlar və deportasiyalar nəticəsində əzəli yurd yerlərindən didərgin salınmış, uzun müddət torpaq nisgili ilə yaşamış soydaşlarımızın məskunlaşdığı şəhər və kəndlərdə aktuallıq kəsb edən bu layihənin həyata keçirilməsi qayıdış prosesinə yönəlik addım kimi minnətdarlıq hissi ilə qarşılanmışdır: "Görüşlər başa çatdıqdan sonra iştirakçılar tərəfindən yekdilliklə hazırlanaraq təsdiq edilmiş bəyanat qəbul olunmuşdur. Bəyanatda Qərbi Azərbaycanın şəhər və kəndlərindən didərgin salınmış və hazırda Şabran rayonunda məskunlaşmış soydaşlarımızın daim öz doğma torpaqlarına qayıtmaq əzmində olduqları, əzəli torpaqlarımıza, yurd yerlərimizə qayıdışı mütləq şəkildə dəstəklədikləri, Ermənistan tərəfinin isə ədalətin bərpa olunmasını yubatmaqla qayıdış prosesinin davamlı həlli istiqamətində irəliləyişə yardım etmədiyi vurğulanmışdır. Bununla da Şabran rayonunda məskunlaşmış qərbi azərbaycanlı soydaşlarımız Ermənistan hökumətini insan hüquqları ilə bağlı beynəlxalq öhdəliklərə hörmət etməyə və öz əzəli torpaqlarından qovulmuş azərbaycanlıların qayıdışına şərait yaratmağa çağırmışlar", - deyə G.Əmrahova bildirdi.

Ümumiyyətlə, Şabranda məskunlaşmış qərbi azərbaycanlılarda da doğma yurda qayıdışa inam çox güclüdür. Bu inamı və əminliyi onlarda Prezident, Ali Baş Komandan İlham Əliyevin liderliyi və möhkəm iradəsi yaratmışdır. 30 il ərzində erməni vandallarının viranəyə qoyduğu Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa, quruculuq işləri, o yerlərə Böyük qayıdış, bu ümidi daha da artırmışdır.

Sonda onu qeyd edək ki, Şabran şəhərindəki Zərifə Əliyeva adına parkda layihənin davamlı təsir imkanlarını artırmaq məqsədi ilə tarixi Azərbaycan torpaqlarının əhatə etdiyi coğrafi ərazi və tarixi faktlar əsasında hazırlanmış xəritə - iriölçülü lövhə-panno quraşdırılmışdır.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Doktor Alban Bakı və azərbaycanlılar haqqında:

# "Mən bu şəhəri və xalqı sevdim"



**Planetdə Doktor Albanın kim olduğunu bilməyən və onun bütöv bir nəslin böyüdüyü hitlərinə qulaq asmayan insan çətin tapılar. Nigeriyamənşəli məşhur isveçli müğənninin 90-cı illərdə "It's My Life", "Sing Hallelujah", "Look Who's Talking", "Born in Africa" və bir çox başqa mahnıları İsveçdən çox-çox kənarda da gənclər tərəfindən əzbər söylənilirdi. Hətta ingilis dilini bilməyən uşaqlar da Albanın hitlərini oxuyaraq, onun mahnılarının sözlərini qeyri-müəyyən şəkildə xatırladırdılar. Ötən əsrin 90-cı illərinin kumirinin populyarlığı bu günə qədər azalmır. İyul ayında Alban Bakıda "Sea Breeze Resort"da keçirilən DREAM FEST festivalında iştirak edib və burada artistin şəxsi ulduzu da "Walk of Fame" xiyabanında qoyulub.**

Alban Uzoma Nvapa AZƏRTAC-a müsahibəsində musiqi karyerasının necə başlamasından, Bakı haqqında təəssüratından danışıb.

- Alban, salam. Çox şadam və minnətdaram ki, gəncliyimin kumiri Azərbaycanın informasiya agentliyi AZƏRTAC-a müsahibə verməyə razı olub. Sağ olun.

- Siz də sağ olun.

- Onda keçək suallara! İlk sualım: Hello, Alban! Tell me how you're doing? (Salam, Alban! Mənə deyin, necəsiniz? ("Hello Africa" mahnısının sözləri - müəllif)

- Təşəkkür edirəm. Yaxşıyam. (Gülür.)

- Heç kimə sirr deyil ki, Karolinska İnstitutunda diş həkimi ixtisası üzrə təhsil almısan. Bəs musiqi karyeran necə başladı və necə məşhur sənətçi oldun?

- Karolinska İnstitutunda oxuyanda pula ehtiyacım var idi, həftə sonları isə DJ işləyirdim. Məhz həmin dövrdə - 1990-cı ildə hər yerdə ildırım kimi guruldamağa başlayan "Hello, Africa" mahnısı meydana çıxdı və çıxışlarım belə də davam etdi.

- Heç diş həkimi işlədinmi?

- Bəli, bir il.

- Bu necə idi?

- Yaxşı, amma musiqi ilə çalışmaq daha əyləncəlidir.

- Həkim işləmək üçün darıxmırsan?

- Xeyr.

- Albomların milyonlarla tirajla satılıb. Sən hər yerdə görünürdün: televiziya ekranlarında, qəzet və jurnalların üz qabığında. Sonra geniş şəkildə tanınmağa başladın. Bu, həyatda sənə mane oldumu?

- Xeyr. Baxmayaraq ki, bəzən çətin olurdu. Axı məşhur adam bu və ya digər işi görə bilməz. Amma sən bununla yaşayırsan və sonunda öyrəşirsən.

- Musiqi karyeran burada, İsveçdə başlayıb. İsveçli olmayan bir insan üçün İsveç musiqi aləmində bunu etmək çətin deyildimi?

- Biz - ölkəyə yeni gələnlər, bilirik ki, sıfırdan başlamaq həmişə çətindir. Bu məsələdə təcrübəniz olduqda, daha asandır. Amma sonda bacardım.

- Bir müddət işində sakitlik yaranmışdı. Bunun səbəbi nədir və həmin müddətdə nə işlə məşğul idin?

- Körpə uşaqlarım, iki qızım vardı. İndi biri 19, digəri 16 yaşındadır. Uşaqlar dünyaya gələndə, gərək bir az yavaşlayaq.

- Keçək Bakı səfərinə. İyul ayında Emin Ağalarov tərəfindən Bakıda keçirilən DREAM FEST festivalına dəvət olundun. Festivaldan və Azərbaycan ictimaiyyətindən hansı təəssüratlarla ayrıldın?

- Bakı çox gözəl şəhərdir. Strukturlaşdırılmış və sakitdir. Tamaşaçılar isə fantastikdir. Mən bu şəhəri və onun insanlarını sevdim. Bakıda bəyənmədiyim heç nə yoxdur.

- Şəhəri gəzməyə, yerli mətbəxin təamlarını dadmağa vaxtın oldumu?

- Biz daha çox maşınla gedirdik. Yeməklərin Asiya və ərəb mətbəxi ilə ortaq cəhətləri var. Qızardılmış ət, çoxlu qızardılmış ət yedim. Ləzzətli idi.

- Adının ulduzu "Sea Breeze"də "Walk of Fame" xiyabanında qoyulub. Bununla bağlı təəssüratını bölüşərdin.

- Oraya gedib bu ulduzu qəbul etmək çox xoş idi. Mükafatın özü evdədir, ofisimdə ona tez-tez baxıram. Ulduzun üzərində "Alban" yazısını görmək çox xoşdur.

- Yerli ulduzlar da xarici sənətçilərlə birgə səhnədə çıxış etdilər. Onların çıxışı ilə maraqlandınmı və ya gələcəkdə kiminlə əməkdaşlıq etmək istərdin?

- Fakt budur ki, bir dəfə pərdə arxasına keçəndən sonra, demək olar ki, dərhal səhnəyə çıxdım. Mənim çıxışımdan sonra yağış yağmağa başladı. Beləliklə, konsert mənim ifamla başa çatdı. Çox təəssüf ki, məndən əvvəl çıxış edənləri görmədim.

- Sonuncu sualım: Bakıya qayıdıb solo konsert vermək istərdin?

- Bəli. Mütləq! Mən Bakını, Azərbaycanı sevirəm. Oraya təkrar getməliyəm. Bu asandır! Problem yoxdur.

- Ən yaxın zamanda Bakıda solo konsertinə ümid edirik! Xoş söhbət üçün minnətdaram!

- Təşəkkür edirəm!


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN
Milli maraqlar naminə
Azərbaycan verdiyi sözə, imzaladığı sənədlərə hər zaman sadiqdir
Azərbaycana şərəfli xidmət nümunəsi
Xalqa xidmət, dövlətə sədaqət missiyası
"Mehriban xanım bizə anamızı əvəz edir"
Uğurlu müttəfiqlik tam yeni mərhələdə
Seçkilərə beynəlxalq maraq böyükdür
Azərbaycandakı mina qurbanlarının sayı Cənubi Qafqazın digər ərazilərindəki mina qurbanlarından çoxdur
Paşinyanla revanşistlərin yeni qarşıdurması başlanır

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Makron düşdüyü vəziyyətdən çıxış yolu axtarır

## O, demokratiyaya qarşı institusional çevrilişdə ittiham olunur

**Fransada solçu müxalifət prezident Emmanuel Makronun impiçmentinə nail olmaq üçün planlarını açıqlayıb. Bu addımın səbəbi prezidentin Yeni Xalq Cəbhəsi (NPF) blokunun bütün partiyalarının razılaşdırdığı Lüsi Kastenin baş nazir postuna namizədliyini irəli sürməkdən imtina etməsidir.**



Solçuların məntiqinə görə, prezident onun namizədliyini irəli sürməyə borcludur, çünki blok bu yaxınlarda keçirilən parlament seçkilərində birinci yeri tutub. Lakin Makronun özü fərqli fikirdədir. O bildirib ki, parlament seçkilərində qalib olan qüvvə yoxdur. Bu günlərdə solçu siyasətçilərin, o cümlədən "Yenilməyən Fransa" partiyasının lideri Jan-Lük Melanşonun "The Tribune Sunday" qəzeti üçün yazdığı məqalədə deyilir: "Prezident Makron bilməlidir ki, onu dövlət başçısı postundan kənarlaşdırmaq üçün bütün konstitusiya vasitələrindən istifadə olunacaq, onun demokratiyanın əsas qaydasına qarşı biabırçı addımına heç bir tabeçilik olmayacaq: Fransada yeganə hakim xalq səsidir".

Digər məsələlərlə yanaşı, dövlət başçısı demokratiyaya qarşı institusional çevrilişdə ittiham olunur. Belə ki, Makron parlament seçkilərinin nəticələrini qəbul etmək istəmir.

Müəyyən dərəcədə mümkün impiçmentin elanı solçular üçün ümidsizlik addımıdır. Çünki NPF-nin Milli Assambleyada cəmi 193 mandatı var, zəruri çoxluq üçün isə 289 mandat lazımdır. Çoxluğu əldə etmək üçün koalisiyaya mərkəzçi və ya sağçı partiyaları cəlb olunmalıdır, lakin NPF-nin bununla bağlı problemləri mövcuddur. Bu, Makrona Kastenin namizədliyini irəli sürməkdən imtina etməyə əsas verib. Hökumətin təyinatı, hətta ən optimist hesablamalara görə, yalnız sentyabrın əvvəlində baş tutacaq. Fransa prezidenti avqustun 23-də bütün parlament partiyalarını onunla məsləhətləşməyə dəvət edib. Bu fasilənin ən çox yayılmış izahlarından biri Makronun siyasi planını həyata keçirmək üçün potensial müttəfiqlərin razılığının olmamasıdır. Bu plan Yeni Xalq Cəbhəsinin parçalanmasından, mötədil solçuların - sosialistlərin və ekoloqların prezident bloku ilə koalisiya yaratmasından ibarətdir. Ən yaxşı halda onlara "Respublikaçılar" da qoşulacaq - daha doğrusu, sağ mərkəzçi partiyanın millətçilərlə ittifaqdan imtina edən hissəsi.

Bu ssenari reallaşarsa, yeni koalisiyanın ən azı 400 mandatı olacaq və bu da zəruri parlament çoxluğunu xeyli üstələyir. Ən əsası isə nə sol, nə də sağ cəbhənin belə bir koalisiyada bloklayıcı paketi olacaq - və bu, prezidentin imkanlarını daha da artıra bilər.

Lakin belə bir planı həyata keçirmək gündən-günə nüfuzunu itirən Makron üçün asan məsələ deyil. Bundan əlavə, Makronun ehtiyatda daha bir variantı var - "Respublikaçılar"la koalisiya yaratmaq və sonradan ona solçuları qoşmaq. Bu, ən pis variantdır, çünki sağçıların daha az mandatı var.

Amma deyəsən, Makron bu variantı nəzərdən keçirir. Təsadüfi deyil ki, baş nazirliyə mümkün namizədlər sırasında "Respublikaçılar"ın iki yüksəksəviyyəli nümayəndəsinin adı hallanır.

Xatırladaq ki, Fransa prezidenti iyulun 16-da növbədənkənar parlament seçkilərinin nəticələrinə görə postunu tərk etmək istəyən baş nazir Qabriel Attalın istefasını qəbul edib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Ermənistanda işsizlik ən yüksək səviyyəyə çatıb

## Hökumət isə saxta rəqəmlərlə xalqı aldadır

**Qonşu dövlətlərə qarşı ərazi iddialarını hələ də saxlaması, əlaqələrin normallaşdırılmasına qarşı çıxması Ermənistanın tənəzzülünü davam etdirməkdə, üzləşdiyi problemlərin miqyasını daha da artırmaqdadır.**



Baş nazir Nikol Paşinyanın vəziyyəti dəyişdirəcəyinə ümid edən sadə ermənilər isə hansısa yeniliklərin olmamasından getdikcə daha güclü formada narazılıq edirlər.

Ölkədə N.Paşinyanın reytinqinin sürətlə aşağı düşməsi müşahidə olunur və hətta belə fikirlər səslənir ki, bu gedişlə onun və komandasının hakimiyyətdən devriləcəyi istisna edilmir.

Ermənistanda sosial-iqtisadi vəziyyətin təhlili aydın şəkildə göstərir ki, ölkədə inflyasiya böyük sürətlə dərinləşdiyi halda, əhalinin gəlirlərində hansısa artım yoxdur. Yaranan fərq nisbəti isə insanların durumunun daha da ağırlaşmasına, onların ifrat yoxsulluq həddində yaşamasına səbəb olmaqdadır. Artıq rəsmi dairələr də inflyasiya prosesinin nəzarətdən çıxdığını, vəziyyətin ağırlaşdığını etiraf edirlər. Məsələn, bu ilin 9 ayında sosial-iqtisadi vəziyyətdə müsbətə doğru dəyişiklik olmayıb. Statistik rəqəmlər ölkədə işsizliyin və işləyən yoxsulların sayının dayanmadan artdığını göstərir.

N.Paşinyan hakimiyyətə gələndə verdiyi vədlərdən biri də ölkədəki işsizliyi minimum həddə çatdırmaq olsa da, bunun əksi müşahidə edilir və işsizlik, o cümlədən yoxsulluq pik həddə yüksəlib. Səlahiyyətli şəxslər minlərlə yeni iş yerinin açıldığını bəyan etsələr də, rəsmi statistikada işləyənlərin sayında azalma qeydə alındığı danılmaz faktdır. 2024-cü ildə isə son dörd ilin ən yüksək işsizlik səviyyəsi müşahidə olunur.

Məsələn, ötən ilin birinci rübündə 179.6 min nəfər rəsmən işsiz idisə, cari ilin birinci rübündə bu rəqəm 204.4 min nəfərə çatıb. Əvvəlki dövrlə müqayisədə bu, 25 min nəfər və ya 14 faiz çox deməkdir. Həm nominal ifadədə işsizlərin sayı artıb, həm də işsizliyin səviyyəsi dərinləşib.

Ölkədə həkimlər, tibb bacıları, mühəndislər, müəllimlər, digər peşə sahibləri arasında işsizlik hallarına daha çox rast gəlinir.

Bu arada daha bir maraqlı məqam işsizlərin arasında qadınların sayının getdikcə artmasıdır. Hesab edilir ki, Ermənistanda işsizlər arasında kişilərin azlıq təşkil etməsi təəccüb doğurmamalıdır. Çünki kişilərin əksəriyyəti öz ailəsini dolandırmaq məqsədilə ölkəni tərk edərək Rusiyaya və digər yerlərə üz tutub. Xarici ölkələrə gedənlərin sayı bir milyonu ötüb.

Hökumət isə vəziyyəti örtbasdır etmək üçün saxta rəqəmlərlə xalqı aldatmaqla məşğuldur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Ermənistan Cənubi Qafqazı Qərbin plasdarmına çevirməyə çalışır

**Ermənistan Avropa İttifaqı missiyasını, Fransa və ABŞ hərbi təlimatçılarını regiona cəlb etməklə Cənubi Qafqazı faktiki olaraq Qərbin plasdarmına çevirməyə çalışır.**



Bunu AZƏRTAC-a açıqlamasında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov deyib.

O qeyd edib ki, Vətən müharibəsindən sonra kənar qüvvələri həvəslə Ermənistana dəvət edən İrəvan, bununla regionda hərbi-siyasi status-kvonu süni şəkildə dəyişməyə çalışır: "Təbii ki, İrəvanın Qərbi Ermənistana dəvət etməsində məqsəd regionda möhkəmlənməyə çalışan bu qüvvələr vasitəsilə bölgədə qüvvələr nisbətini dəyişmək, onların dəstəyi ilə nəyə isə nail olmaqdır. Halbuki, Ermənistanı həvəslə silahlandıran və ona dəstək xarakterli bəyanatlar verən dövlətlərin əsl niyyəti sadəcə, regionda möhkəmlənməkdən, öz maraqlarını təmin etməkdən ibarətdir. Bunun xaricində Ermənistan və onun aqibəti heç kim üçün maraqlı deyil. İrəvan isə bu həqiqəti anlamaq və qəbul etmək iqtidarında olmadığı üçün Qərbin hər bir avantürasını dəstəkləyir, bunu ona verilən qiymət hesab edir.

Düşünürəm ki, Ermənistanın kənar gücləri, təxribatçı qüvvələri bölgəyə gətirməsi yalnız ölkəmizin deyil, bütün region dövlətlərinin maraqlarına ziddir. Buna görə də rəsmi İrəvanın bu siyasətinə bütün region dövlətləri etiraz etməli, bu siyasətdən imtina etməsi üçün İrəvana təzyiq göstərməlidirlər", - deyə C.Xəlilov bildirib.

Polkovnik əlavə edib ki, İran və Rusiya ilə qarşıdurma vəziyyətində olan Qərbin Cənubi Qafqazdakı hərbi mövcudluğu regiona gərginlik, qeyri-müəyyənlik vəd edir. Bu isə bütün region dövlətləri kimi, Ermənistanın öz mənafeyinə də ziddir.

# Ermənipərəst senator Bob Menendez istefa verib

**Amerikalı ermənipərəst senator Bob Menendez cinayət məsuliyyətinə cəlb olunduğu üçün istefa verib.**



AZƏRTAC-ın məlumatına görə, 5 noyabr seçkilərinin nəticələri elan olunana qədər onu Nyu Cersi senatoru ofisində Corc Helmi əvəzləyəcək. İyulun 16-da Nyu York məhkəməsi Bob Menendezi rüşvətxorluq, maliyyə fırıldaqçılığı, ədalət mühakiməsinə mane olmaq və xarici agent kimi fəaliyyət göstərmək də daxil olmaqla, ümumilikdə 16 maddə üzrə təqsirli bilib. Onun həbsi oktyabrın 29-na nəzərdə tutulub. Menendezi 222 il həbs gözləyir. Menendezin həyat yoldaşı, erməniəsilli Nadine də sadalanan maddələr üzrə ittiham olunub. Lakin onun məhkəmə prosesi xəstəliyi səbəbindən qeyri-müəyyən müddətə təxirə salınıb.

2006-cı ildən Nyu Cersi ştatının senatoru olan Bob Menendez konqresdə fəaliyyət göstərdiyi vaxtda federal agent kimi müttəhim kürsüsünə çıxarılan ilk senatordur. Bu, Menendezin senatın üzvü olduğu təxminən 20 il ərzində korrupsiya ittihamı ilə üzləşdiyi ikinci federal cinayət işidir. Əvvəlki məhkəmə istintaqı hakim heyətinin hökm çıxara bilməməsi səbəbindən yalnız təhqiqatla nəticələnib.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi prokurorluğun veteranı
**ATAKİŞİ ATAKİŞİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin kollektivi polkovnik Əbülfəz Atakişiyevə atası
**ATAKİŞİ ATAKİŞİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Mariya Cəlilovaya bacısı
**SARA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3991**
**Sifariş 1862**

**Qiyməti 60 qəpik**